Xalqın qəzeti!

# Xalq qəzeti

№ 136 (30830) 6 iyul 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Xankəndi zirvəsi İƏT-i yeni yüksəlişə yönləndirdi

*Beynəlxalq qurumun Qarabağ sammiti qapalı sülhdən açıq əməkdaşlığa çağırışdır*



**4 iyul 2025-ci il. Xankəndi. Onillərlə beynəlxalq gündəmdə münaqişə, işğal və separatizm kimi anlayışlarla tanınan bu şəhər indi fərqli bir gerçəkliyin mərkəzindədir. Xankəndi adı illərlə beynəlxalq hesabatlarda, ATƏT-in missiyalarında, BMT qətnamələrində və danışıqlar masalarında yalnız bir statusla çəkilirdi: "mübahisəli zona", "işğal altındakı ərazi", "dondurulmuş münaqişə". Burada diplomatik ritorika ilə hərbi reallıq arasında böyük bir uçurum var idi. Qərb onu "dağılmış münaqişə zonası", Rusiya "təzyiq aləti", Ermənistan isə "müdafiə xətləri" kimi görürdü. Azərbaycan isə Xankəndiyə baxanda parçalanmış hüquqi suverenlik və yarımçıq ədalət görürdü.**

İndi isə – tam beş il sonra – kameralar, fotoobyektivlər Xankəndiyə başqa fokusla yönəlir. Bayraqlar sülh içində dalğalanır, diplomatlar aramla addımlayır, ətrafda mühafizəçilər yox, media nümayəndələri var. Səhnə tamamilə dəyişib – forma da, məzmun da. İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT - ECO) 17-ci sammiti burada keçirilir. Bir vaxtlar separatizmin yuvası olan şəhər bu gün regional əməkdaşlığın simvoluna çevrilir.

Tədbirdə iştirak edən hər bir ölkə Azərbaycanın Qarabağdakı suverenliyini qəbul etdiyini göstərmiş olur. Çünki diplomatiyada bəzən qəbul etdiyini söyləməkdən daha güclü jest — iştirakdır. Görünən budur. Bəs görünməyən nədir?

*(ardı 3-cü səhifədə)*

## Azərbaycan "yaşıl" enerji istehsalını 10 ildə 43 faizə çatdıracaq

*Dünya Bankı ölkəmizin bu yöndə layihələrini fəal dəstəkləyir*



**Maliyyə naziri Sahil Babayev Azərbaycan hökuməti və Dünya Bankı arasında "Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi layihəsi" üzrə kredit sazişinin imzalanması mərasimində dövlətimizin qarşısında ölkəmizin "yaşıl" enerji ixracatçısına çevirilməsinin əsas məqsəd kimi qoyulğunu, bunun üçün respublikanın geniş imkanları, istehsal potensialı olduğunu bildirib.**

Nazir, eyni zamanda, Dünya Bankı Qrupunun Azərbaycanda həyata keçirilən inkişaf proqramlarına verdiyi davamlı dəstəyi yüksək qiymətləndirib. O, mövcud əməkdaşlığın ölkəmizin enerji sektorunda dayanıqlığa müsbət təsiri, "yaşıl" enerji mənbələrinə keçidin sürətləndirilməsi, enerji təhlükəsizliyinin gerçəkləşdirilməsi və iqlim dəyişiklikləri ilə mübarizə baxımından əhəmiyyətini diqqətə çatdırıb.

*(ardı 7-ci səhifədə)*

## Regional liderlik və strateji konsensus

səhifə ⇨ 4

## Ermənistanda yeni konstitusiya müzakirəsi




səhifə ⇨ 5

## İrəvan Rusiyanın TV məkanını hədəfə aldı




*Ermənistan Teleradio Yayımları Komissiyasının gecikmiş bəyanatı*

**Rusiyanın istər çap, istərsə də elektron mediasında ermənilərin çoxluq təşkil etdiyi, hətta bir sıra strateji postlarda olduqları hamımıza məlumdur. Amma yaranmış vəziyyət və siyasi məqam tələb etdikdə, Rusiyanın ermənipərəst mediası belə "dirijor çubuğu"nun işarəsi ilə Ermənistana qarşı da ideoloji hücum taktikasına keçə bilər. İndiki halda bu, Kremlə, ən azı, Hayastanın Qərb yönümlü iqtidarına bəzi siyasi mesajları çatdırmaqdan ötrü lazım olub.**

ardı səhifə ⇨ 5

## Sosial media qovuşdurur, yoxsa ayırır?




səhifə ⇨ 11

## *İrakli Kobaxidze:* Brüsselin təzyiqləri inteqrasiya prosesini sual altına alır




səhifə ⇨ 4

## Səfəvi xanım şahzadənin oğlu – Baburi şahı Övrəngzib



səhifə ⇨ 9

# Venesuela Bolivar Respublikasının Prezidenti Zati-aliləri cənab Nikolas Maduro Morosa

**Hörmətli cənab Prezident!**

Venesuela Bolivar Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Venesuela dostluq münasibətləri xoş ənənələrə əsaslanır. Əminəm ki, dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın böyük potensialının reallaşdırılması istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Venesuela xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2025-ci il**

# Əli Əsədov UNESCAP-ın icraçı katibi ilə görüşdü



**Azərbaycanın Baş naziri Əli Əsədov iyulun 5-də BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi Armida Salsiya Alişahbana ilə görüşüb.**

Görüşdə A.Alişahbananın İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilən 17-ci Zirvə görüşündə iştirakının önəmi qeyd edilib.

Azərbaycan ilə UNESCAP arasında uzunmüddətli tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.

Gələn ilin aprel ayında Bakı şəhərində keçirilməsi nəzərdə tutulan UNESCAP-ın 82-ci sessiyasına hazırlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüş zamanı Azərbaycan ilə UNESCAP arasında qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq perspektivləri müzakirə olunub, həmçinin BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı – SPECA çərçivəsində səmərəli işbirliyinin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

# BMT Komissiyası Səhiyyə Nazirliyi ilə əməkdaşlıq qurur



**Azərbaycan Səhiyyə Nazirliyində Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) İcraçı katibi Armida Salsiah Aliscahbanla görüş keçirilib.**

Görüş zamanı səhiyyə naziri Teymur Musayev Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış strukturları, həmçinin UNESCAP ilə səmərəli əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Nazir qeyd edib ki, Azərbaycan 1992-ci ildə BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasına üzv olub və bu müddət ərzində UNESCAP-a üzv əksər dövlətlərlə yüksək səviyyədə ikitərəfli əlaqələr qurulub.

UNESCAP-ın İcraçı katibi 2023-cü ilin noyabrında BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümündə Azərbaycanda Zirvə görüşünün keçirilməsinin əlamətdar hadisə olduğunu vurğulayıb.

***XQ***

# Bahar Muradova UNESCAP-ın icraçı katibi ilə görüşüb



**Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü çərçivəsində ölkəmizdə səfərdə olan Birləşmiş Millətlər Təşkilatı Baş katibinin müavini və BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi Armida Salsiya Alişahbana ilə görüşüb.**

Görüşdə növbəti ilin aprel ayında Bakıda keçirilməsi nəzərdə tutulan UNESCAP-ın 82-ci sessiyasına hazırlıqla bağlı fikir mübadiləsi aparılıb.

Komitə ilə BMT-nin bir sıra regional qurumları arasında əməkdaşlıqdan söz açan Bahar Muradova təşkilatın Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) çərçivəsində səmərəli əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

İcraçı katib A.S.Alişahbana Azərbaycan ilə UNESCAP arasında uzunmüddətli yüksəksəviyyəli tərəfdaşlıqdan məmnunluğunu ifadə edib. Qadınların iqtisadi səlahiyyətləndirilməsinin ESCAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən olduğunu qeyd edən katib sürətlə dəyişən və rəqəmsallaşan dünyada qadınlar üçün yeni bacarıqların əldə edilməsinin əhəmiyyətindən danışıb.

***XQ***

# Akademik Yusif Məmmədəliyevin 120 illiyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2025-ci ilin dekabr ayında görkəmli alim və ictimai xadim, Azərbaycan Respublikası Elmlər Akademiyasının təşkilatçılarından biri, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kimya elmləri doktoru, akademik Yusif Heydər oğlu Məmmədəliyevin anadan olmasının 120 ili tamam olur.

Akademik Yusif Məmmədəliyev Azərbaycan elminin yetirdiyi parlaq simalardandır. Azərbaycanda neft kimyasının bünövrəsini yaratmış alimin qiymətli sənaye məhsullarının alınması üçün böyük tətbiqi əhəmiyyətə malik texnoloji proseslərin işlənib hazırlanmasında müstəsna xidmətləri vardır. Neft-kimya elmində mühüm hadisəyə çevrilən yüksək oktanlı aviasiya yanacaqları istehsalının yeni üsulunu kəşf etməsi Yusif Məmmədəliyevə şöhrət qazandırmışdır. Respublikada bir sıra elmi müəssisə və qurumların təşkili onun adı ilə bağlıdır. Geniş spektrli fundamental tədqiqat işlərini səmərəli pedaqoji fəaliyyətlə paralel surətdə davam etdirən Yusif Məmmədəliyevin formalaşdırdığı Azərbaycan neft-kimya məktəbi ölkənin hüdudlarından çox-çox uzaqlarda tanınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan elminin inkişafına verdiyi misilsiz töhfələrini nəzərə alaraq, akademik Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə akademik Yusif Məmmədəliyevin 120 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyul 2025-ci il**

# DTX-nin Akademiyasında növbəti məzun buraxılışı





**İyulun 4-də Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasında məzunların buraxılışı ilə əlaqədar təntənəli mərasim keçirilib.**

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat Xidmətindən verilən məlumata görə, tədbirdə DTX-nin rəisi general-polkovnik Əli Nağıyev, Xidmətin rəhbər əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, Akademiyanın professor-müəllim heyəti, məzunlar və onların valideynləri iştirak ediblər.

Əvvəlcə Akademiyanın Heydər Əliyev Muzeyinin qarşısında ucaldılmış ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, dahi şəxsiyyətin əziz xatirəsi dərin ehtiramla anılıb. Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Dövlət Himni səsləndirilib, ardınca məzunlara Akademiyanın diplomları təqdim olunub.

Daha sonra DTX-nin rəisi general-polkovnik Əli Nağıyev çıxış edərək, Akademiyanı müvəffəqiyyətlə bitirdiklərinə görə məzunları təbrik edib, gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb. Xidmət rəisi bildirib ki, Ulu öndərin adını daşıyan bu tədris müəssisəsinin məzunları olan gənc zabitlər fəaliyyətlərini Vətənə və xalqa sonsuz sadiqlik prinsipləri əsasında qurmalı, dövlətin təhlükəsizliyinin qorunması vəzifəsini qarşılarına ali məqsəd kimi qoyaraq hər zaman ayıq-sayıq olmalı, dahi rəhbər Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı peşəkarlıq irsini yaşatmalıdırlar.

Akademiyanın maddi-texniki bazasının və kadr potensialının ildən-ilə daha da təkmilləşdirildiyini vurğulayan general-polkovnik Əli Nağıyev burada təhsil səviyyəsinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, Akademiyadakı mövcud şəraitin davamlı yaxşılaşdırılması istiqamətində görülən işlərdən ətraflı bəhs etmiş, son illərdə bilik yarışlarında bu xüsusi təyinatlı ali təhsil müəssisənin kursantlarının qazandıqları uğurların sadalanan amillərin məntiqi nəticəsi olduğunu deyib.

Çıxışının sonunda Xidmət rəisi Əli Nağıyev Akademiyanı bitirən zabitlərin çalışacaqları DTX-nin struktur bölmələrində vəzifə borclarını vicdanla yerinə yetirəcəklərinə, dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin siyasi kursuna sədaqətlə xidmət edərək, təhlükəsizlik orqanlarının sıralarında öz layiqli yerlərini tutacaqlarına qətiyyətlə inandığını bildirib.

Digər çıxış edənlər məzunların Akademiyada mənimsədikləri bilik və bacarıqları gələcək fəaliyyətlərində lazımi qaydada tətbiq edə biləcəklərinə dərin inamlarını, burada kursantlara göstərilən diqqətə və yaradılan şəraitə görə minnətdarlıqlarını ifadə ediblər.

***XQ***

# Azərbaycan–Pakistan Anlaşma Memorandumu imzalanıb

**Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü çərçivəsində Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə bu ölkəyə investisiya qoyuluşunu nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb. Sənədi iqtisadiyyat naziri Mikayıl Cabbarov və Pakistanın Baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd İshaq Dar imzalayıblar.**

Sənəd iki ölkə liderlərinin qarşılıqlı iqtisadi münasibətlərin və sərmayə tərəfdaşlığının daha da gücləndirilməsi barədə tapşırığının icrasına təkan verəcək.

***XQ***



# Aşura günündə qanvermə aksiyası





**İyulun 5-də Qafqaz Müsəlmanları İdarəsində qurumun təşkilatçılığı, Respublika Qan Bankının dəstəyi ilə Aşura günü ilə əlaqədar qanvermə aksiyası keçirilib.**

Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə başda olmaqla, idarə əməkdaşları, Milli Məclisin deputatları və ölkəmizdəki dini konfessiyaların nümayəndələri iştirak ediblər.

Əlavə edək ki, builki aksiyalar ölkənin 30 şəhər və rayonu üzrə ümumilikdə 38 məntəqədə təşkil edilib. Qanvermə məntəqələrinə 23 məscid və ziyarətgahla yanaşı, 15 tibb müəssisəsi də daxil edilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Aşura günündə ümumilikdə 2 min 696 nəfər könüllü qan verib. Həmin şəxslərdən ümumilikdə 1213.2 litr qan tədarük olunub.

Qeyd edək ki, aksiya qana ehtiyacı olan xəstələrə yardım məqsədilə Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə keçirilib.

***XQ***

# Xankəndi zirvəsi İƏT-i yeni yüksəlişə yönləndirdi

**(əvvəli 1-ci səhifədə)**

Görünməyən — bu sammitin arxasındakı sistemli, illərlə formalaşmış siyasi iradə və strateji səbirdir. Görünməyən — Azərbaycanın təkcə müharibə meydanında deyil, sülh platformalarında da güc mərkəzinə çevrilmək uğrunda yürüdüyü dərin diplomatik oyundur. Görünməyən — bu səssiz razılaşmaların fonunda beynəlxalq ictimaiyyətin "reallığı qəbuletmə" mərhələsinə keçididir. Çünki bu artıq "münaqişə sonrası" yox, "münaqişədən sonrakı reallığın təşkili" mərhələsidir.

Xankəndidə keçirilən sammitə diplomatik çərçivədən baxanda ilk olaraq İqtisadi Əməkdaşlıq Təşkilatının adı görünür. Ancaq bu adın arxasında böyük regional balans oyunu, nüfuz mübarizəsi və siyasi niyyətlər durur.

*

İqtisadi Əməkdaşlıq Təşkilatı 1985-ci ildə üç ölkənin – İran, Pakistan və Türkiyənin təşəbbüsü ilə yaradıldı. Təşkilatın əsas məqsədi regional iqtisadi əməkdaşlığı gücləndirmək, ticarət əlaqələrini genişləndirmək və nəqliyyat infrastrukturlarını inkişaf etdirərək, üzv ölkələr arasında iqtisadi inteqrasiyanı dərinləşdirmək idi. İƏT-in yaradılması həm də həmin dövrün qlobal geosiyasi kontekstində mühüm addım hesab edilirdi. Çünki bu region dünyada enerji, nəqliyyat və strateji marşrutların kəsişdiyi bir nöqtədə yerləşirdi.

1991-ci ildə Sovet İttifaqı dağılandan sonra İƏT-in əhatə dairəsi xeyli genişləndi. Mərkəzi Asiya ölkələri — Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistan — bu təşkilata üzv oldular. Bundan əlavə, Cənubi Qafqaz regionundan Azərbaycan və Ermənistan da İƏT-in üzvləri sırasına daxil oldular. Bu genişlənmə təşkilata funksional və siyasi baxımdan yeni imkanlar qazandırdı. Azərbaycan bu prosesdə fəal iştirakla regionun ən strateji coğrafi mövqelərindən birində yerləşən ölkə kimi ön plana çıxdı.

İƏT-in rəsmi gündəliyi iqtisadi inteqrasiyanın müxtəlif aspektlərini əhatə edir: ticarət axınlarının asanlaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması, nəqliyyat və logistika bağlantılarının möhkəmləndirilməsi, enerji layihələrinin təşviqi və regionda dayanıqlı inkişafın təmin olunması.




Azərbaycanın bu regional təşkilat çərçivəsində həyata keçirdiyi və ya təşəbbüs verdiyi layihələr, əslində, onun gündəliyinə yeni nəfəs gətirdi. Orta Dəhliz, Bakı–Tbilisi–Qars dəmir yolu, Transxəzər marşrutları, Zəngəzur dəhlizinin mümkün açılışı kimi layihələr çoxtərəfli regional layihələr statusunda təqdim edilir. Sammitin gündəliyində yer alan nəqliyyat, enerji, rəqəmsal iqtisadiyyat, yaşıl enerji və ticarət axınları kimi sahələr Azərbaycanın son illər bölgədə liderlik iddiasının struktur sütunlarıdır. Ən əsası isə budur ki, Azərbaycan bu təşkilatı yalnız iqtisadi funksiyaları yerinə yetirən bir qurum kimi görmür. Bakı üçün bu qurum ölkənin öz siyasi modelini, sabitlik yanaşmasını, regional baxışını üzv ölkələrə ötürmək üçün yumşaq güc vasitəsidir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Xankəndidə iştirakı Ankaranın Cənubi Qafqazda artan nüfuzunun açıq göstəricisidir. Prezidentin səfəri həm Şuşa Bəyannaməsinin canlı davamı, həm də Türk dünyasına ünvanlanan bir siqnaldır: Azərbaycanın gələcəyi artıq regional məkanın gələcəyi ilə sıx şəkildə bağlıdır. Bundan əlavə, R.T.Ərdoğanın varlığı beynəlxalq ictimaiyyətə başqa bir mesaj verir: Ankara Bakı ilə eyni diplomatik cəbhədədir.

İran Prezidenti Məsud Pezeşkianın, Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin, eləcə də yüksək səviyyəli digər nümayəndə heyətlərinin Xankəndiyə səfəri siyasi oxunuş doğurur. Uzun illər boyunca Qarabağ məsələsində balanslı və bəzən Azərbaycanın narazılığına səbəb olan ritorikaya malik Tehran indi bu platformada iştirak etməklə Azərbaycanın ərazi bütövlüyünü faktiki tanımış olur.

*

Mövcud fon isə sammitin beynəlxalq rezonansını gücləndirir. Əgər əvvəllər dünya Qarabağla bağlı xəbərləri münaqişə başlıqları ilə tanıyırdısa, indi həmin coğrafiyada liderlər toplaşır, iqtisadi əməkdaşlıqdan danışır və strateji layihələrdən bəhs edirlər. İƏT-in Xankəndidə keçirilən 17-ci sammiti Azərbaycanın yeni beynəlxalq dildə danışmağa başladığını, özü də bunu birbaşa Qarabağdan – illərlə konfliktin sinonimi olan bir məkandan etdiyi bir siqnal idi.

Bundan başqa, Bakı bu sammitlə öz xarici siyasət xəttini də təqdim etdi: qapalı sülh deyil, açıq əməkdaşlıq; revanşist ritorika yox, institusional dialoq. Azərbaycan indi yalnız region daxilində deyil, Avrasiya miqyasında da oyun qurucusu kimi çıxış edir. Bundan daha önəmlisi, Azərbaycan bu tədbirlə beynəlxalq ictimaiyyətə bir çağırış etdi: "Reallığı qəbul edin. Biz artıq keçmişi deyil, gələcəyi müzakirə edirik".

Azərbaycanın bu sammitlə yaratdığı "Qarabağdan regional liderliyə doğru" narrativi, əslində, bölgənin gələcəyi üçün də yeni siyasi çərçivə təklif edir. Azərbaycanın öz ərazi bütövlüyünü təkcə bərpa etməsi yox, bu ərazilər üzərində beynəlxalq əməkdaşlıq və siyasi cazibə yaratması, əslində, postmünaqişə dövrü üçün dünya praktikasında nadir bir presedentdir. Hər ölkə müharibədə qələbə qazana bilər. Amma həmin ölkə heç də sülhü qurub, o sülhü beynəlxalq əlaqələrə çevirmək bacarığını nümayiş etdirə bilməz.

Məhz bu mənada Azərbaycan artıq region içindəki rolunu tamamlayıb, bölgədən kənara çıxan yeni bir siyasi arxitektura qurmaq istəyindədir. Bakı indi suverenliyin qorunması ilə paralel olaraq nüfuzun paylaşılması, əməkdaşlıq kanallarının açılması və regional inteqrasiyanın təşviqi ilə məşğuldur. Bütün bu addımlar isə qapalı təhlükəsizlik doktrinasından açıq diplomatiya strategiyasına keçiddir.

Bununla da, Azərbaycanın xarici siyasəti çoxmərkəzli, çoxvektorlu mövqeyə əsaslanır. Bakı nə təkcə Qərbə, nə də yalnız regiona yönəlir. O, həm Rusiya, həm İran, həm Türkiyə, həm də Çin və Avropa ilə fərqli gündəmlər üzrə paralel diplomatiya aparır. Azərbaycan modeli müasir dövrdə az sayda ölkəyə xasdır. Onu da qeyd etməliyik ki, İƏT-in Xankəndi sammiti Azərbaycan diplomatiyasının özünə inamının rəsmi bəyanıdır.

Sonda bir həqiqəti də vurğulamaq istərdik ki, dünya bu zirvəyə baxaraq bir daha gördü: Qarabağ münaqişəsinin sonu bütün regionun siyasi tənzimlənməsi mərhələsinin başlanğıcıdır. Və bu tənzimləmənin mərkəzində Azərbaycanın öz baxışı, öz təşəbbüsü və öz məntiqi dayanır.

***Ş.ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycanın İƏT çərçivəsində yeni təşəbbüsləri

## Beynəlxalq qurumun Xankəndi toplantısının regional inteqrasiya hədəfləri

**Müasir dövrün çağırışları dövlətlər arasında iqtisadi, ticarət və nəqliyyat sahəsində əməkdaşlığı daha da aktuallaşdırır. Bu kontekstdə Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) ilə qurduğu münasibətlər ölkəmizin regional inteqrasiyada artan rolunu və strateji mövqeyini əks etdirir.**

1985-ci ildə İran, Türkiyə və Pakistan tərəfindən əsası qoyulan İƏT bu gün 10 üzv dövləti birləşdirərək böyük bir coğrafiyada iqtisadi inkişafın və qarşılıqlı inteqrasiyanın təşviqini gerçəkləşdirir. Azərbaycan bu təşkilata 1992-ci ildən üzv olmaqla bölgədə davamlı əməkdaşlıq strategiyasını uğurla həyata keçirir. Ölkəmizlə İƏT arasında əməkdaşlıq əsasən ticarət, nəqliyyat, enerji, kənd təsərrüfatı, turizm və infrastruktur sahələrini əhatə edir. Təşkilat çərçivəsində üzv dövlətlər arasında azad ticarət zonalarının yaradılması, gömrük prosedurlarının sadələşdirilməsi, investisiya təşviqi və birgə layihələrin icrası prioritet istiqamətlər sırasındadır.

Ölkəmizin təşəbbüsü ilə İƏT çərçivəsində indiyədək bir sıra mühüm layihələr həyata keçirilib. Bakı şəhərində təşkilatın bir neçə yüksək səviyyəli sammitinə və nazirlər görüşünə ev sahibliyi gerçəkləşdirilərək respublikamızın regional əməkdaşlıqda fəal mövqeyi nümayiş etdirilib.

Azərbaycan zəngin enerji resurslarına malik ölkə olaraq İƏT məkanında enerji təhlükəsizliyinin təminində mühüm tərəfdaşdır. Neft, qaz və bərpa olunan enerji sahəsində həyata keçirilən layihələr təşkilatın üzv dövlətləri ilə enerji əməkdaşlığını gücləndirir. Azərbaycan qazının TANAP və TAP boru kəmərləri ilə Avropaya nəql edilməsi İƏT-in üzvü olan Türkiyə və digər region ölkələri üçün enerji təchizatında alternativ marşrutların açılmasına şərait yaradır. Bununla yanaşı, ölkəmiz bərpa olunan enerji sahəsində də təcrübəsini paylaşaraq "yaşıl" enerji təşəbbüslərinin dəstəklənməsində fəal iştirak edir.

İƏT ölkələri ilə Azərbaycanın ticarət dövriyyəsi son illər ərzində müsbət dinamika nümayiş etdirir. Türkiyə, İran, Pakistan, Qazaxıstan və Özbəkistan kimi üzv dövlətlərlə qarşılıqlı ticarət və investisiya əməkdaşlığı genişlənir. Azərbaycan bu ölkələrlə qeyri-neft ixracını artırmaq, kənd təsərrüfatı və sənaye sahələrində birgə istehsal müəssisələri qurmaq niyyətindədir. Xüsusilə ərzaq təhlükəsizliyi, logistika mərkəzlərinin yaradılması və rəqəmsal ticarət platformalarının təşviqi sahəsində İƏT çərçivəsində əməkdaşlıq daha da intensivləşir.



İƏT-in dayanıqlı inkişaf gündəliyinə uyğun olaraq Azərbaycan ekologiya, iqlim dəyişikliyi və rəqəmsal transformasiya sahəsində də birgə təşəbbüsləri dəstəkləyir. "Yaşıl enerji zonası" elan olunan Qarabağ və Şərqi Zəngəzur bölgələri bu baxımdan potensial əməkdaşlıq məkanları kimi diqqət çəkir. Bundan əlavə, rəqəmsallaşma və innovasiya sahəsində Azərbaycanın təcrübəsi təşkilatın digər üzvləri üçün nümunəvi model rolunu oynaya bilər. Elektron hökumət, vergi islahatları və biznes mühiti üzrə modern yanaşmalar üzv dövlətlərlə paylaşılaraq qarşılıqlı öyrənməyə zəmin yaradır.

İyulun 4-də Xankəndi şəhərində keçirilən İƏT-in 17-ci Zirvə Görüşündə yuxarıda vurğulanan məsələlər ətrafında geniş bəhs olunub. Prezident İlham Əliyevin çıxışında Azərbaycanın İƏT-in işində həmişə fəal iştirak etdiyi, bu təşkilata üzv ölkələrlə əlaqələrin inkişafının daim diqqət mərkəzində saxlanıldığı, keçən il tarixdə ilk dəfə olaraq qurum məkanında COP29 konfransının reallaşdırıldığı, habelə həmin toplantıda inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılmasının razılaşdırıldığı, İtki və Zərər Fondunun işlək vəziyyətə gətirildiyi diqqətə çatdırılıb.

İƏT-in 17-ci Zirvə Görüşündə təşkilatın orta və uzunmüddətli inkişaf prioritetləri də aydın şəkildə müəyyənləşdirilib. Prezident Şavkat Mirziyoyevin çıxışında bu barədə ətraflı bəhs edilərək "İqtisadi əməkdaşlığın strateji məqsədləri – 2035" adlı konsepsiyasının qəbul olunması zəruriliyi bildirilib. Ticarət, sərmayə, nəqliyyat, enerji, sənaye, kənd təsərrüfatı, ekologiya, turizm və təhsil kimi ənənəvi sahələrlə yanaşı, innovasiya, süni intellekt və rəqəmsal texnologiyalar üzrə əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Zirvə Görüşündə yuxarıda qeyd edilənlərlə yanaşı, əmtəə və xidmətlərdə ticarətin asanlaşdırılması, texniki və qeyri – tarif maneələrin tədricən aradan qaldırılması və elektron ticarətin inkişafının xüsusilə vacibliyi xatırladılıb. Eyni zamanda, qarşılıqlı ticarətin cari həcminin aşağı olaraq qaldığı, 2024-cü ildə bu rəqəmin 95 milyard dollar olduğu və bu göstəricinin ölkələrimizin ümumi ticarət dövriyyəsində cəmi 10 faiz təşkil etdiyi bildirilib.

Toplantıda İƏT- üzv ölkələr çərçivəsində kənd təsərrüfatı, ticarət və əmtəənin məhdudiyyətsiz təchizatı üzrə məlumatların sürətli mübadiləsi üçün "yaşıl dəhlizlər" sisteminin yaradılmasının zəruriliyi, sərmayə əməkdaşlığının yeni səviyyəyə qaldırılması məqsədilə "ECO invest" uzunmüddətli proqramının qəbul edilməsi və investisiya mühitinin daha şəffaf və cəlbedici olması barədə müəyyən təkliflər də səsləndirilib. Çin – Qırğızıstan – Özbəkistan dəmir yolu layihəsi yüksək dəyərləndirilib və gələcəkdə bu dəmir yolu xəttinin Transəfqan dəhlizi ilə birləşdiriləcəyi və böyük regionumuzda tranzit şəbəkələrini səmərəli şəkildə bir araya gətirəcəyi bildirilib.

Azərbaycanın coğrafi mövqeyi onun Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən əsas nəqliyyat qovşağı kimi çıxış etməsinə şərait yaradır. Bu xüsusiyyət İƏT daxilində nəqliyyat əməkdaşlığında ölkəmizin rolunu artırır. TRACECA, Şimal – Cənub və Orta Dəhliz layihələri çərçivəsində respublikamızın təşəbbüsləri İƏT məkanında yükdaşımanın sürətləndirilməsinə və infrastrukturun modernləşdirilməsinə mühüm töhfə verir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı – Tbilisi – Qars dəmir yolu layihəsi regional ticarətin intensivləşməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu infrastruktur layihələri İƏT-in nəqliyyat şəbəkəsi ilə sıx inteqrasiya olunaraq regionun birgə inkişafına xidmət edir.

İƏT-ə üzv ölkələr üçün mühüm önəm daşıyan nəqliyyat dəhlizlərindən danışarkən bir məqama da toxunmaq istərdik. Belə ki, bu təşkilat üzvlərinin əksəriyyətini birləşdirən daha bir mühüm nəqliyyat dəhlizi Orta Dəhlizdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru Aqil Əsədovun sözlərinə görə, Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi dünyanın istehsal mərkəzi olan Çindən yüklərin Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyə üzərindən Avropaya çatdırılmasını gerçəkləşdirir. İllik buraxıcılıq qabiliyyəti 10 milyon tona yaxın olan Orta Dəhliz regionda və dünyada cərəyan edən siyasi proseslər, hərbi münaqişələr səbəbindən ən aktual və cəlbedici istiqamətdir.

Aqil Əsədov qeyd edir ki, Çin – Qırğızıstan – Özbəkistan dəmir yolunun tikintisi Orta Dəhlizin, xüsusilə cənub qolunda yük axınının artmasına səbəb olacaq. Ümumilikdə isə, bu dəmir yolunun tikintisi Türk Dövlətləri Təşkilatına üzv dövlətlər arasında da nəqliyyat əlaqələrinin yaxşılaşdırılmasına mühüm töhfə verəcək. Qırğızıstandan keçən dəmir yolu marşrutu Çindən Avropaya quru məsafəsini 900 kilometr, çatdırılma müddətini isə tam bir həftə azaldacaq. Çini Avropayla bağlayan bu dəmir yolu Transxəzər dəhlizi üzərində aktivliyi artıracaq ki, bu da tranzit xidmətlərin həcm və miqyasının daha da genişləndirilməsinə kömək etməklə yanaşı, üzv dövlətlər arasında əlaqələrin daha da yaxınlaşmasına öz töhfəsini verəcək.

İƏT üzvlərinin əməkdaşlıq etdiyi mühüm nəqliyyat dəhlizlərindən biri də Şimal–Cənub nəqliyyat dəhlizidir. 2000-ci ildə Sankt-Peterburqda Rusiya, İran, Hindistan arasında imzalanmış müqaviləyə əsasən formalaşan Şimal – Cənub nəqliyyat dəhlizi isə İƏT-ə üzv ölkələrdən Azərbaycan, Türkiyə, İran, Qazaxıstan, Qırğızıstan və Tacikistanı birləşdirir. Bu dəhliz üzrə də əsas marşrut Xəzər üzərindən yüklərin Azərbaycana və daha sonra da Gürcüstan–Türkiyə–Avropa istiqamətidir.

Beləliklə, göründüyü kimi, İƏT üzvlərinin hamısı bu və ya digər nəqliyyat layihələrində birgə fəaliyyət göstərir. Nəzərə alsaq ki, qlobal mühitdə rəqabət qabiliyyətliyi üstünlüyünün əsas istiqamətlərindən birini də əlverişli nəqliyyat – tranzit imkanları təşkil edir, onda İƏT-i bu baxımdan da mükəmməl qurum hesab edə bilərik. Başqa sözlə desək, hansı ölkənin beynəlxalq bazarlara əlverişli çıxışı və geniş əhatəli nəqliyyat – tranzit imkanları varsa, o ölkələr daha sürətlə inkişaf edir, qlobal məkana inteqrasiyanı intensivləşdirir və beynəlxalq tribunada söz sahibi olur.

***V.BAYRAMOV***
***XQ***

# Regional liderlik və strateji konsensus

## Xankəndidən dünyaya qlobal mesajlar göndərildi

**Azərbaycanın evsahibliyi etdiyi İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) 17-ci Zirvə görüşü regional və beynəlxalq diplomatik dinamika kontekstində tarixi əhəmiyyət daşıyır. Xüsusilə, tədbirin Qarabağın mərkəzi olan Xankəndidə keçirilməsi Azərbaycanın son illər yaratdığı yeni geosiyasi reallığın beynəlxalq platformada təsdiqi kimi qiymətləndirilə bilər. Prezident İlham Əliyevin bu toplantıda çıxışı isə siyasi baxımdan çoxqatlı və hədəfə yönəlmiş mesajlarla zəngin oldu.**




Prezidentin "qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz" nidası suverenlik, tarixi ədalət və diplomatik iradənin simvolik ifadəsidir. Onun sözləri Azərbaycanın ərazi bütövlüyünün hüquq müstəvisində bərqərar olduğunu, Qarabağın yeni dövrdə diplomatik, iqtisadi və mədəni platformalara evsahibliyi edən bir məkana çevrildiyini nümayiş etdirir. Əvvəllər separatizm və münaqişə ilə xatırlanan Xankəndinin artıq beynəlxalq təşkilatların görüşlərinin keçirildiyi bir şəhər kimi tanınması Azərbaycan diplomatiyasının əldə etdiyi mühüm nəticələrdən biridir.

Prezident Əliyev çıxışında Azərbaycanın 30 il işğal altında qalmış ərazilərində aparılan vandalizm aktlarını – məscidlərin dağıdılması, qəbiristanlıqların məhv edilməsi və mədəni irsin talan olunmasını xatırlatmaqla, Ermənistanın beynəlxalq hüquq və humanitar prinsipləri pozduğunu diqqətə çatdırdı. Faktların təqdimatı həm də beynəlxalq auditoriyanı Ermənistanın müharibə dövründəki və post-münaqişə mərhələsindəki məsuliyyətsiz davranışlarına qarşı həssaslığa çağırır. Xüsusilə, dini ibadət yerlərinin təhqir olunması və minaların hələ də insan həyatı üçün təhlükə mənbəyi olması Azərbaycanın ədalətli mövqeyini daha da legitimləşdirir.

Çıxışın diqqətçəkən hissələrindən biri də Azərbaycan tərəfindən həyata keçirilən "Böyük Qayıdış" Proqramı oldu. Proqram çərçivəsində 50 mindən çox insanın artıq azad edilmiş ərazilərə qayıtdığı, yeni şəhər və kəndlərin tikildiyi bildirildi. Prezidentin bu prosesi faktlarla təqdim etməsi Azərbaycanın, eyni zamanda, məsuliyyətli dövlət obrazı formalaşdırmaqda olduğunu göstərdi.

Digər mühüm vurğu isə Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqları məsələsi idi. Prezident bu məsələni beynəlxalq hüquq çərçivəsində gündəmə gətirməklə yanaşı, İƏT-in son qətnaməsinə və İstanbul Bəyannaməsinə istinad etdi. Bütün bu vurğular göstərir ki, Azərbaycan artıq bu məsələdə tək deyil, beynəlxalq müttəfiqləri ilə birgə vahid diplomatik platforma formalaşdırmağa çalışır və yumşaq güc siyasətində daha çevik və sistemli strategiya qurduğunu sübut edir.

Eyni zamanda, Prezidentin çıxışında



COP29 kimi beynəlxalq tədbirlərə ev sahibliyi etməkdən tutmuş, İƏT çərçivəsində yaradılan yeni mərkəzlərə qədər uzanan geniş diplomatik və iqtisadi təşəbbüslər də yer aldı. Azərbaycanın iqlim diplomatiyası, təmiz enerji siyasəti regional forumların təşkili ilə bağlı aktivliyi, ölkənin yalnız ənənəvi enerji resursları ilə deyil, həm də yaşıl diplomatiya vasitəsilə beynəlxalq nüfuzunu gücləndirdiyini göstərir. Şuşada, Ağdamda və Laçında keçirilən forumlar bu ərazilərin artıq sabitlik, əməkdaşlıq və inkişaf məkanları olduğunu təsdiqləyir.

Prezident Əliyev çıxışında Azərbaycanın nəqliyyat və enerji sahələrindəki rolunu da vurğuladı. Dünyanın 12 ölkəsinə təbii qaz ixrac edən, eyni zamanda, Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin kəsişməsində yerləşən ölkə olaraq Azərbaycan regionda iqtisadi və strateji mərkəzə çevrilib.

Bütövlükdə, Prezident İlham Əliyevin çıxışı Azərbaycanın diplomatik fəallığının, strateji dərinliyinin və yeni dövrə uyğun siyasi modelinin ifadəsi idi. Azərbaycan dünya diplomatiyasına bir daha bəyan etdi: regionda yeni reallıq yaranıb və bu reallığın mərkəzində Azərbaycan dayanır.

Xankəndidə keçirilən İƏT-in 17-ci Zirvə görüşündə Pakistan, İran və Türkiyə kimi regionun əsas güc mərkəzlərini təmsil edən ölkələrin liderlərinin çıxışları siyasi və strateji baxışlar baxımından diqqətəlayiq idi. Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin çıxışı Azərbaycanın diplomatik ev sahibliyinə verilən yüksək dəyərlə seçildi. Onun "əziz qardaşım, Prezident İlham Əliyevi təbrik edirəm" sözləri Azərbaycanla Pakistan arasında qardaşlıq münasibətlərinin diplomatik müstəvidə təsdiqidir. Pakistan Prezidenti Azərbaycanın İƏT-ə sədrliyi və Xankəndidə tədbirin yüksək səviyyədə təşkili ilə yeni bir mərhələ yaratdığını vurğulamaqla yanaşı, iqtisadi əməkdaşlığın dərinləşməsi üçün regional dialoqun vacibliyinə işarə etdi.

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian isə çıxışında xüsusilə Azad Ticarət Zonası ideyasını önə çəkərək, iqtisadi inteqrasiyanın yeni mərhələyə qədəm qoymasının vacibliyini qeyd etdi. Onun sözləri İranın ECO vasitəsilə regiondakı təcridini yumşaltmaq, həm də qonşularla iqtisadi dərinlik yaratmaq istəyi ilə səsləşir. Pezeşkian öz çıxışı ilə Azərbaycana minnətdarlıqla yanaşı, İranın bu platforma vasitəsilə regional sabitlik və iqtisadiyyatın sabahı üçün töhfə verməyə hazır olduğunu göstərdi.

Zirvənin ən yaddaqalan çıxışlarından biri, şübhəsiz ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məxsus idi. R.T.Ərdoğan çıxışını strateji rəmzlər və simvolik mesajlarla zənginləşdirdi. O, Xankəndidə keçirilən tədbirin "işğaldan azad edilmiş şəhərdə baş tutmasının" əhəmiyyətini vurğulamaqla, bu məkanı siyasi və tarixi məna ilə də yüklədi. Ərdoğanın ifadə etdiyi "bu qədim şəhərin Qafqazın yeni inkişaf və sülh mərkəzinə çevriləcəyinə ürəkdən inanıram" fikri, Türkiyənin Azərbaycanla birlikdə post-münaqişə dövründə regional sabitliyi təşviq edən siyasətinin diplomatik kodu idi. Onun çıxışı Türkiyənin Cənubi Qafqazda öz təsir dairəsini Azərbaycanla sıx inteqrasiya vasitəsilə qurmağa davam etdiyini nümayiş etdirdi. Ərdoğanın çıxışında diqqətçəkən başqa bir məqam isə iqlim dəyişikliyi və təmiz enerji mövzusunda Azərbaycana verilən dəstək idi. Onun Şuşanın 2026-cı il üçün ECO-nun turizm paytaxtı seçilməsi münasibətilə Azərbaycanı təbrik etməsi isə Azərbaycanın mədəni irsi ilə iqtisadi diplomatiyanın vəhdətinə verdiyi önəmi nümayiş etdirdi.

Hər üç liderin çıxışında ortaq elementlər açıq şəkildə sezilirdi: Azərbaycanın diplomatik uğurlarına hörmət, ECO çərçivəsində əməkdaşlığın dərinləşməsinə dəstək və geosiyasi sabitlik üçün kollektiv məsuliyyətin paylaşılması.. Xüsusilə, İran və Pakistanın bir-biri ilə fərqli münasibətlərinə baxmayaraq, burada Azərbaycanın təşəbbüskar və balanslaşdırıcı diplomatiyası sayəsində ortaq mövqelərin formalaşdığı aydın sezilir.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Xankəndidəki çıxışı yalnız diplomatik etiketin ifadəsi deyildi. Onun "qədim Qarabağ torpağında, Xankəndidə sizinlə görüşməkdən olduqca məmnunam" sözləri Azərbaycanın ərazi bütövlüyünə verilən qardaş dəstəyin siyasi məzmunlu ifadəsi idi. Mirziyoyevin bu məkanın "sülh və inkişaf məkanına çevrilməsi" barədə bəyanatı post-münaqişə dövründə Azərbaycanın həyata keçirdiyi bərpa və reinteqrasiya siyasətinin beynəlxalq səviyyədə tanınmasının göstəricisidir. Mirziyoyevin təqdim etdiyi "Strateji Məqsədlər – 2035" vizyonu isə İƏT-in gələcək baxış bucağını formalaşdırmaq niyyətində olan "yol xəritəsi" kimi təqdim edildi. O, klassik sahələrlə yanaşı, süni intellekt, rəqəmsal texnologiyalar və innovasiyalar üzrə əməkdaşlığın gücləndirilməsini təklif etdi.

Özbəkistan liderinin çıxışında qlobal təchizat zəncirlərinin dayanıqlılığı məsələsi xüsusi yer tutdu. Çin–-Qırğızıstan–Özbəkistan dəmir yolunun və Trans-əfqan dəhlizinin strateji əhəmiyyəti vurğulanaraq, bu təşəbbüslərin yalnız ticarət axınlarını deyil, həm də geosiyasi sabitliyi təmin etməyə yönəldiyi aydın mesaj kimi təqdim olundu.

Türkmənistan, Tacikistan, Qazaxıstan, Əfqanıstan, Şimali Kipr və Nigeriya nümayəndələrinin çıxışlarında Azərbaycan diplomatiyasına və liderliyinə verilən qiymətləndirmə, regional siyasətdə Azərbaycanın yüksələn nüfuzunun və İƏT çərçivəsində qurduğu əməkdaşlıq modelinin qəbul olunduğunu göstərdi.

Bütövlükdə, İƏT-in 17-ci Zirvə toplantısı yeni diplomatik arxitekturanın inşa olunduğu bir platforma idi. Azərbaycanın təşəbbüsü ilə baş tutan bu tədbir həm beynəlxalq hüquq müstəvisində status-kvonun dəyişdiyini, həm də regionun gələcəyinə dair söz sahibi olmağın real geosiyasi imkanlara söykəndiyini sübut etdi.

***Z.ŞƏBNƏM,***
***XQ-nin siyasi analitiki***

# İrakli Kobaxidze: Brüsselin təzyiqləri inteqrasiya prosesini sual altına alır

## ATƏT Parlament Assambleyası Gürcüstanla bağlı kəskin qətnamə qəbul edib

**ATƏT-in Parlament Assambleyası Gürcüstanla bağlı qətnamə qəbul edib. "Gürcüstanda demokratiyanın və ATƏT dəyərlərinin dəstəklənməsi haqqında qətnamə"də Gürcüstanda 2024-cü ilin oktyabrında keçirilmiş parlament seçkiləri, vətəndaş cəmiyyətinə qarşı artan təzyiqlər və Avropa İttifaqı (Aİ) ilə münasibətlərin pisləşməsi ilə bağlı ciddi narahatlıqlar əks olunub. Bilıdirilir ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) müşahidələrinə əsasən, 26 oktybr 2024-cü il seçkilərində ciddi qanun pozuntuları qeydə alınıb.**




Qətnamədə, həmçinin administrativ resurslardan sui-istifadə və seçki prosesinə təsir imkanlarının geniş miqyasda istifadəsi seçkilərin azad və ədalətli keçirilməsinə xələl gətirdiyi vurğulanıb. Assambleya Gürcüstanda son aylarda baş verən hadisələrlə bağlı aşağıdakı məqamları qeyd edib: Dinc etiraz aksiyalarına qarşı güc tətbiqinin yolverilməzliyi, jurnalistlərə, fəallara və müxalifət nümayəndələrinə qarşı siyasi motivli təqiblərin artması, "xarici agentlər", "radio və televiziya" və "qrantlarla" bağlı yeni qanunların hökumətin hakimiyyətini gücləndirmək məqsədi daşıması, Aİ-yə qarşı artan neqativ ritorika və Rusiya və Çinlə yaxınlaşmanın Gürcüstanın Avrointeqrasiya siyasətinə zidd olması.

ATƏT PA-nın qəbul etdiyi qətnamədə Gürcüstanla bağlı bir sıra vacib məsələlərə də diqqət yetirilib. Sənəddə rəsmi Tbilisiyə və bütün ictimai-siyasi aktorlara çağırış edilib: milli dialoqa üstünlük verilsin, vətəndaşların toplaşma və ifadə azadlığı hüquqlarına hörmət göstərilsin və hər cür zorakılıqdan çəkinilsin. Qətnamədə, eyni zamanda, Gürcüstanın Aİ ilə inteqrasiya yoluna qayıtması vurğulanıb, bu istiqamətdə atılan addımların davam etdirilməsinin zəruriliyi qeyd olunub.

Assambleya Gürcüstan xalqının Avropa yönümlü istəklərini açıq şəkildə dəstəklədiyini bəyan edib. Sənəddə ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə olunub. Xüsusi olaraq Rusiya Federasiyasına müraciət yer alıb: Moskva Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrini "müstəqil dövlətlər" kimi tanımaq qərarını ləğv etməyə, 2008-ci il tarixli atəşkəs razılaşmasını yerinə yetirməyə və bu bölgələrin hərbiləşdirilməsinə son qoymağa çağırılıb.

Qətnamədə həmçinin vurğulanıb ki, Gürcüstan hakimiyyəti Avropa İttifaqı ilə münasibətlərin normallaşmasını gözləyir. ATƏT Parlament Assambleyası Gürcüstanla bağlı tənqidi qətnaməsinə cavab gecikməyib. Gürcüstan baş naziri İrakli Kobaxidze "İmedi" telekanalının efirində deyib: "Gürcüstan hakimiyyəti Aİ ilə münasibətlərin yaxşılaşmasını gözləyir, Brüssel isə təzyiq göstərməyə davam edir. Bu isə ölkədə siyasi gərginliyi artırır və gələcək inteqrasiya proseslərini sual altına alır". Onun sözlərinə görə, Avropa bürokratlarının xalq tərəfindən seçilmiş hakimiyyətə bugünkü münasibəti Gürcüstana təzyiqlərin davamıdır: "Radikal müxalifətin liderləri Avropa bürokratlarının agentləridir. Məhz bu bürokratlar radikallara seçkilərdə qazandıqları deputat mandatlarını götürməyi qadağan ediblər".

Hökumət başçısı qeyd edib ki, buna baxmayaraq, Gürcüstan hakimiyyəti Aİ ilə münasibətlərin yaxşılaşması üçün "strateji gözləmə" rejimində qalır: "Ümid edirik ki, perspektivdə Aİ-də Gürcüstana münasibətdə müəyyən dəyişiklik baş verəcək".

Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili isə bildirib ki, ölkədə parlament seçkiləri demokratik keçirilib: "ATƏT-in baş katibi Feridun Sinirlioğlunun bəyanatı, nəhayət, Gürcüstanda parlament seçkiləri ilə bağlı bütün fərziyyələri dağıtdı və Brüsselin gürcü demokratiyasının əsaslarını sarsıtmaq cəhdlərinə son qoydu".

Yada salaq ki, Sinirlioğlu ATƏT PA-nın illik sessiyasındakı çıxışında bildirib ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) hesabatında müəyyən nöqsanlar göstərilsə də, bu çatışmazlıqlar seçki nəticələrinin xalqın iradəsini əks etdirməsi faktını dəyişmir. Onun sözlərinə görə, Gürcüstanda keçirilən seçkilər, ümumilikdə, demokratik və legitim şəkildə baş tutub. Bu isə beynəlxalq müşahidəçilərin yekun mövqeyi kimi qəbul olunmalıdır.

Şalva Papuaşvili ATƏT-in bu rəsmi mövqeyini xüsusi vurğulayaraq qeyd edib ki, seçkilərdən əvvəl Aİ və Brüssel strukturlarının nümayəndələri Gürcüstandakı seçkiləri məhz ATƏT/DTİHB-nin qiymətləndirməsi əsasında dəyərləndirəcəklərini bildirirdilər. Lakin nəticələrin legitimliyini təsdiqlədikdən sonra, həmin dairələr bu rəyə arxa çevirərək seçkilərlə bağlı öz versiyalarını yaymağa çalışıblar. Onun fikrincə, bu, Gürcüstanın daxili siyasi proseslərinə təsir göstərmək məqsədi güdən, siyasi manipulyasiya xarakteri daşıyan bir yanaşmadır.

Papuaşvili əlavə edib ki, yaranmış vəziyyət fonunda ATƏT baş katibinin açıq və qəti bəyanatı yalnız bir texniki şərh deyil, həm də siyasi balansı bərpa edən mühüm beynəlxalq siqnaldır: "ATƏT-in bu mövqeyi Gürcüstanın beynəlxalq səviyyədə legitim seçki prosesləri təşkil etməyə qadir olduğunu bir daha nümayiş etdirdi". Papuaşvili Gürcüstan hakimiyyətinin demokratik institutların gücləndirilməsi və seçkilərin şəffaf keçirilməsi istiqamətində gördüyü işlərin beynəlxalq səviyyədə tanındığını vurğulayıb. O qeyd edib ki, ölkədə keçirilən seçkilərin nəticələri xalqın iradəsini əks etdirir və bu gerçəklik artıq mübahisə predmeti deyil. Papuaşvilinin sözlərinə görə, ATƏT-in baş katibinin bəyanatı faktiki olaraq Avropa Parlamentinin Gürcüstandakı seçkilərlə bağlı qətnaməsinin, eləcə də Aİ-yə üzv ölkələrin parlamentarilərinin bəyanatlarının siyasi motivli olduğunu təsdiqləyir.

Xatırladaq ki, Gürcüstanın Qərblə münasibətləri son aylar ciddi şəkildə gərginləşib. Bu gərginliyin əsas səbəbləri arasında ölkədə qəbul edilən "Xarici təsirin şəffaflığı haqqında" və "Ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında" qanunlar dayanır. Qərb dairələri bu qanunları demokratik prinsiplərə və ifadə azadlığına zidd hesab edərək Gürcüstan hakimiyyətini avtoritar meyillərdə və Qərbə qarşı ritorikanı gücləndirməkdə ittiham edir. Gürcüstan hökuməti isə bu addımları ölkənin suverenliyini və milli maraqlarını qorumaq niyyəti ilə əsaslandırır, eyni zamanda, Qərbin Ukrayna münaqişəsi ilə bağlı ölkədən daha açıq mövqe gözləməsindən narahatlığını bildirir.

Aİ Gürcüstanla danışıqların davam etməsi üçün demokratik islahatların həyata keçirilməsini və bu qanunların ləğvini tələb edib. Bu tələblər yerinə yetirilmədiyi üçün Brüssel Tbilisi ilə münasibətləri faktiki olaraq dondurub, yüksək səviyyəli görüşlərdən imtina edib, maliyyə yardımlarını dayandırıb və ölkənin Aİ-yə inteqrasiyasını qeyri-müəyyən vaxta qədər təxirə salıb.

ABŞ da Gürcüstan hökumətinə qarşı sərt addımlar atıb. Ölkənin əsas hakim partiyası olan "Gürcü arzusu"nun fəxri sədri, oliqarx Bidzina İvanişviliyə qarşı maliyyə sanksiyaları tətbiq olunub. Vaşinqton bəzi strateji əməkdaşlıq layihələrini və maliyyə dəstəyini dayandırmaq qərarına gəlib.

**P.S.** Prezident Mixeil Kavelaşvili məhkum olunmuş siyasətçilərə təklif edib ki, əfv olunmaları ilə bağlı müraciət etsinlər və yerli seçkilərdə iştirak etmək istəklərini təsdiqləsinlər. O, belə bir müraciət daxil olduğu təqdirdə dərhal əfv aktını imzalayacağını bildirib. Amma müxalifət prezidentlə əməkdaşlıqdan və seçkilərdə iştirakdan imtina edib.

***Ə.PÜNHAN***
***XQ***

# Ermənistanda yeni konstitusiya müzakirəsi

## *Hər şey var, heç nə yoxdur*

**Ermənistan hakimiyyəti ölkədə Konstitusiya günü ərəfəsində yeni konstitusiyanın konseptual hissəsi üzərində işi başa çatdırır. Bunu ölkənin ədliyyə naziri Srbuhi Qalyan hökumətin iclasında bildirib. Onun sözlərinə görə, növbəti iki həftə ərzində yekun müddəaların müzakirəsi aparılacaq və sonra əsas qanunun tam mətninin yekunlaşdırılmasına başlanılacaq.**




Nazir jurnalistlərlə söhbətində məsələyə nisbətən əhatəli toxunub və bildirib ki, yeni konstitusiya layihəsinin əsas ideyalarının müzakirəsi həlledici mərhələyə qədəm qoyur. "İki həftə ərzində Konstitusiya Şurasının üzvləri razılaşdırılmış yanaşmaları təqdim edəcəklər və bu yanaşmalar daha sonra yekun mətnin əsasını təşkil edəcək", - deyən Qalyan əlavə edib ki, əsas qanun üzrə bəzi başlıca müddəalar artıq formalaşıb, lakin bir sıra mövzular üzrə müzakirələr gedir və qarşıdakı müddətdə bütün nüanslara tam aydınlıq gələcək.

Qeyd edək ki, erməni nazir konstitusiya mətni üzərində işin nə dərəcədə tamamlandığını qiymətləndirməkdən çəkinərək, "müzakirələr zamanı mühüm dəyişikliklərin mümkünlüyünü" vurğulayıb. Qalyanın bu fikri əlavə suallara yol açır. Suallar ona görə formalaşır ki, konstitusiya dəyişikliyi məsələsinin Azərbaycanın tələbi seqmenti aktuallığını qorumaqdadır. Hərçənd, erməni iqtidarı mövcud məqamı istisna edir, daha çox ümumən dəyişikliyin labüdlüyü üzərində dayanır. Nəzərə alaq ki, məsələ 2018-ci ildən gündəmə gəlib.

Bəli, Ermənistan konstitusiyası ilə bağlı məsələnin ölkənin Azərbaycanla sülh prosesinə birbaşa aidiyyatı var. Ölkəmizin bütün bəndləri razılaşdırılmış barış sazişinin imzalanması üçün irəli sürdüyü iki şərtdən biri erməni əsas qanununa dəyişikliyin aparılmasıdır. Rəsmi Bakı sənədin Ermənistanın 1990-ci il İstiqlaliyyət Bəyannaməsinə istinadının aradan qaldırılmasını tələb edir. Çünki bəyannamədə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin adı çəkilir. Daha doğrusu, Ermənistan Respublikasının yaranmasının bazası kimi Azərbaycan ərazisindəki sabiq inzibati ərazi vahidinin Ermənistana birləşmə qərarı əsas götürülür. Ölkəmiz durumu ərazi iddiası olaraq qiymətləndirir və mövqeyində haqlıdır. Həm də ona görə haqlıdır ki, rəsmi İrəvan 1991-ci ildən başlayaraq təcavüzkarlıq yolu tutdu, torpaqlarımızın 20 fazini işğal etdi və işğal otuz ilə yaxın müddətdə davam etdi.

Azərbaycan dövləti əsaslı və dayanıqlı sülh naminə Ermənistanın bütün iddialarının və avantürist niyyətlərinin yenidən təkrarlanmayacağına dair ciddi təminat istəyir. Ölkəmizin şərti də məhz həmin təminatı əldə etmək məramından qaynaqlanır. Bunun yolu isə referendumdan keçir. Lakin hazırda ölkənin siyasi cameəsinin təmsilçilərini, xüsusən müxalif kəsimin nümayəndələrini düşündürən başlıca sual əsas qanun layihəsində İstiqlaliyyət Bəyannaməsinə istinadın olub-olmamasıdır. Ermənistanda mövcud istiqamətdəki müzakirələrdə məsələyə təkcə hüquqi deyil, həm də geosiyasi baxımdan yanaşılır və rəsmi Bakının şərti ön ölana çıxarılır. Erməni revanşist-şovinist kəsim Azərbaycanın tələbinin yerinə yetirilməsini növbəti rüsvayçılıq kimi qiymətləndirir.

Qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyan da mütəmadi olaraq konstitusiya islahatlarından söz açır və mövcud xüsusda ölkəmizin irəli sürdüyü şərtin üzərinə gəlir. Sonuncu dəfə o, bu ilin mayında keçirilmiş "İrəvan dialoqu -2025" forumundakı çıxışında bildirmişdi ki, "mən konstitusiya islahatlarına təşəbbüs edəcəyəm, çünki sülh prosesi və barış sazişi əldən verilməməlidir. Cəmiyyəti uzunmüddətli sülh naminə dəyişikliklərə razı salmalıyıq". Nikol yalnız bunu bildirib mövzuya dair başqa nə isə deməsəydi, onun söylədiklərini konstruktiv qiymətləndirmək olardı. Amma baş nazir çıxışında digər mətləblərə də toxundu. O ərazi iddiası xüsusunda söz açaraq belə bir ritorik sual səsləndirdi: "Gəlin anlayaq, Ermənistan konstitusiyasında belə bir iddia varmı?

Nikol fikrimi əsaslandırarkən demişdi ki, Ermənistan konstitusiyasında ərazi iddiasının yer alıb-almadığını müəyyənləşdirmək səlahiyyəti ölkənin Konstitusiya Məhkəməsinə aiddir. Bu yanaşma isə yanlışdır. Çünki konstitusiya mənbəyini İstiqlaliyyət Bəyannaməsindən götürürsə, əsas qanun ümumixalq səsverməsində – referendumda qəbul olunubsa, deməli, qərar verən erməni xalqıdır, Konstitusiya Məhkəməsi yox. Yəni, məhkəmənin xalqın adından qərar çıxarması mümkünsüzdür. O cümlədən, qurumun Ermənistan və Azərbaycanın sərhədlərinin delimitasiya və demarkasiyası üzrə komissiyalarının reqlamentinin əsas qanuna uyğunluğunu bildirib müsbət rəy verməsi, hələ o demək deyil ki, rəsmi İrəvanın ölkəmizə qarşı ərazi iddiası yoxdur. Halbuki, təkcə Paşinyanın yox, ümumən erməni rəsmilərinin Azərbaycana cavab xüsusunda ortaya atdıqları başlıca arqument məhz budur. Əlbəttə, yanaşma rəsmi Bakı tərəfindən qəbul edilmir və edilə də bilməz. Səbəbini vurğuladıq.

Onu da bildirək ki, Paşinyanın "İrəvan dialoqu-2025" forumunda mövzuya dair əsaslandırması qəribə təsir bağışlamışdı. O bildirmişdi ki, həm Ermənistan Konstitusiya Məhkəməsinin haqqında söz açdığımız qərarı, həm də qurumun 1991-ci ilin Alma-Ata Bəyannaməsinin ölkənin əsas qanununa uyğunluğunu təsdiqləməsi Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının olmadığını sübuta yetirir. O zaman sual yaranır: Ermənistan nə üçün Azərbaycanın torpaqlarını işğal etmişdi? Deməli, Ermənistan heç bir sənədə məhəl qoymayıb. Əsl mahiyyət də elə budur və bu səbəbdən Ermənistan referenduma getməli, Azərbaycanın tələbini yerinə yetirməli, böyük ölçüdə avantürizmə "yox" deməlidir.

Bəli, Ermənistan konstitusiyasının işğalçı İstiqlaliyyət Bəyannaməsindən imtinası erməni xalqının məkrli niyyətlərə düşməyəcəyinə, sülhə sadiq qalacağına dair böyük səmimiyyət jestinə çevrilməlidir. Bu məqam erməni cəmiyyəti və dövləti tərəfindən dərk edilməlidir. Ancaq Nikolun sözügedən forumda dedikləri Ermənistanın bundan uzaqlığını göstərmişdi. O vurğulamışdı ki, Azərbaycanın Konstitusiyasında, guya, Ermənistana qarşı müəyyən ərazi iddiaları var. "Amma biz bu məsələni gündəmə gətirməmişik. Çünki hesab etmişik ki, müqavilə (sülh sazişi nəzərdə tutulur – red.) imzalandıqdan sonra məsələ həll olunacaq", - deyən Paşinyanın sözlərindən gəlinən daha bir qənaət budur ki, barış sazişi ölkələr arasındakı bütün problemlərin həlli deməkdir: "Müqavilənin imzalanması həm Ermənistan, həm də Azərbaycan üçün mümkün bütün problemləri həll edir. Diqqəti imzalanmaya yönəltmək lazımdır. Mən, hökumətimiz və siyasi komandamız irəliləməyə və regionda uzunmüddətli sülhə nail olmaq üçün məsuliyyəti üzərimizə götürməyə hazırıq".

Sonda belə qənaətə gələk ki, Ermənistanın ədliyyə naziri S.Qalyanın açıqlaması və hökumətin iclasındakı çıxışı zamanı bildirdikləri fikirlər ölkədə konstitusiya dəyişikliyinin hansı məzmun və xarakter daşıması barədə dolğun rəy formalaşdırmasa da, ümumən prosesin diqqətdə saxlanılmasını müsbət hal kimi qiymətləndirmək mümkündür. Hərçənd, görünən budur ki, erməni iqtidarı təfərrüatları açıqlamaqda, konkret suallara cavab verməkdə çətinlik çəkir. Həm də ona görə ki, ölkədə revanşist və şovinist kəsimin aktivləşməsi müşahidə edilməkdədir. Belə bir şəraitdə rəsmi İrəvanın özündə qətiyyət tapacağını söyləmək çətinləşir. Necə deyərlər, yaşayarıq, görərik.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İrəvan Rusiyanın TV məkanını hədəfə aldı

**(əvvəli 1-ci səhifədə)**

"Multileks xarici ölkənin siyasi gündəminə xidmət etməməlidir". Ermənistan hökuməti indi xəbər tutub ki, ölkə ərazisində müntəzəm yayımlanan Rusiya telekanalları cəmiyyətdə "nifrət və dözümsüzlük fonu" yaratmaqla məşğuldur.

"Armenpress"in yaydığı məlumata görə, bu barədə Ermənistan Televiziya və Radio Yayımları Komissiyasının (TRYK) növbədənkənar iclasında qəbul etdiyi bəyanatda deyilir. Sənəddə qeyd olunur ki, 2020-ci ildə bağlanmış "Ermənistan və Rusiya hökumətləri arasında kütləvi telekommunikasiya sahəsində əməkdaşlıq haqqında" Sazişin məqsədi bu sahədə iki ölkə arasında "dostluq münasibətlərini və əməkdaşlığı inkişaf etdirmək" olub.

Hökumətlərarası müqavilənin şərtlərinə əsasən, "Birinci Kanal", "World Wide Web" və "RTR-Culture" Ermənistanın ictimai multipleksində yayımlanır. Eyni zamanda, komissiya bu kanalların bəzi verilişlərində həm sazişin bəndlərinin, həm də Ermənistan qanunvericiliyinin vaxtaşırı pozulduğunu ardıcıl olaraq qeyd edib.

Beləliklə, Ermənistan TRYK-nın siyasi xarakter daşıdığı aydın görünən özünün gecikmiş bəyanatında Rusiya telekanallarını birbaşa hədəfə alıb. Haylara indi məlum olub ki, bu proqramlar həm də iki ölkə arasındakı ənənəvi, hörmətli və müttəfiqlik münasibətlərinə "xələl gətirirmiş". Komissiyanın bəyanatında xüsusi olaraq qeyd edilir ki, ikitərəfli sazişin 4-cü maddəsində Rusiya tərəfinin Ermənistan İctimai Televiziya Şirkətini Rusiya Federasiyası ərazisində yayım üçün universal lisenziyası ilə təmin etməyi öhdəsinə götürdüyü nəzərdə tutulsa da, üstündən 5 il keçməsinə baxmayaraq PTA Rusiyada İTV-ni yayımlanmır. Deməli, bu müddət ərzində Sazişin şərtinə əməl etmədiyi bir yana, Moskva Paşinyan hakimiyyətinə qarşı dezinformasiya siyasəti, ictimai rəyin manipulyasiyası ilə məşğul olurmuş.

Bundan başqa, TRYK-nın bəyanatında o da vurğulanır ki, sonrakı müzakirələrin gedişində erməni tərəfi Rusiya qanunvericiliyində "universal yayım lisenziyası" anlayışının olmadığından xəbər tutub. Yəni, ikitərəfli sazişin konkret maddəsində Rusiya qanunvericiliyində nəzərdə tutulmayan öhdəlik öz əksini tapıb. Buna isə hüquqi nonsens deyilir.






***

Hayastanın efir məkanının tənzimləyicisi bəyanatında onu da diqqətə çatdırır ki, hökumətlərarası sazişin 5-ci bəndinə əsasən, Rusiya telekanalları Ermənistan qanunvericiliyinə əməl etməyi, məzmununda erməni xalqını və onun dəyərlərini aşağılayan, həmçinin ölkənin daxili siyasi həyatına müdaxilə elementlərini ehtiva edən verilişləri yayımlamamağı öz öhdəsinə götürür. "Amma təəssüflə qeyd edirik ki, yuxarıda adı çəkilən telekanallar dəfələrlə Ermənistanın dövlət qurumlarına və vətəndaşlarına qarşı təhqiramiz ifadələrdən ibarət verilişlər yayınlayıblar, burada faktlar lakonik deyil, emosional və aqressiv xüsusiyyətlərlə əvəzlənib", – bəyanatda deyilir.

Bəyanatda daha sonra oxuyuruq: "Ermənistan Televiziya və Radio Yayımları Komissiyasına çoxsaylı şikayət və təkliflər daxil olmaqda davam edir. Tənzimləyicidən tələb olunur ki, erməni media məkanının təhqir və dezinformasiyanın, zorakılığa bəraət qazandırılması və insan hüquqlarının pozulmasının normaya çevrilməsinin, ictimai şüur və davranışa mənfi təsir göstərən verilişlərin qarşısı qəti çəkildə alınsın".

Sonda TRYK öz mövqeyini bir daha ictimaiyyətinn nəzərinə çatdırıb: "İctimai multipleks xarici siyasi gündəminə xidmət etmək üçün istifadə edilməməlidir. Ermənistanın informasiya məkanı hər hansı digər ölkənin manipulyasiya, təbliğat və təxribat xarakterli müdaxilə cəhdlərindən azad olmalıdır".

Yeri gəlmişkən, oxuculara xatırladaq ki, Moskva əleyhinə sanksiyaların altıncı paketi çərçivəsində Avropa İttifaqı Rusiyanın üç dövlət telekanalının yayımını üzv ölkələrin ərazisndə qadağan edib.

**P.S.** Yekaterinbur şəhərində azərbaycanlıların başına gətirilən vəhşi olaydan sonra Rusiyanın əksər telekanalları Azərbaycan dövləti və xalqının əleyhinə qərəzli, çirkin informasiya kapmaniyasına start veriblər. Şimal qonşumuzun təkcə özəl media qurumlarında deyil, hökumətə bağlı telekanallarda belə Azərbaycan hakimiyyətinə, xalqına hədə-qorxu notlarına köklənmiş verilişlər son günlər geniş auditoriyaya tirajlanmaqdadır. Bu verilişlərdə, bir qayda olaraq, azərbaycanlılar "vəhşi, kriminal ünsür, barbar" obrazlarında təsvir olunur. Yəni, yuxarının göstərişi ilə proqramları peşə etikasından kənar, etnik, dini ayrıseçkilik tezislərindən ibarət "efir zibilləri" ilə doldurulan həmin telekanallar Rusiya ictimaiyyəti arasında azərbaycanlılara qarşı nifrət toxumu səpməyə xidmət edirlər. İndiki vəziyyətdə iki ölkə arasında məhz düşmənçilik ab-havası yaratmağa fokuslanan Rusiyanın bir çox televiziya kanallarının yayımı Azərbaycanda da dayandırıla bilərmi? Mövzu ilə bağlı yerli mediaya açıqlama verən Milli Məclisin deputatı Ceyhun Məmmədov hesab edir ki, bu kimi məsələlərdə tələskənliyə yol vermək olmaz: "Bu gün əsas müzakirə mövzusu vətəndaşlarımızın pozulmuş hüquqlarının bərpasıdır. Bu istiqamətdə dövlətimiz lazım olan addımları atır. Dövlət özü bundan sonra hansı qərarların verilməsi, addımların atılması lazımdırsa, onu da atacaq. Biz bunu açıq-aydın görəcəyik. Düşünürəm ki, bu gün belə radikal addımlara getməkdə tələsməməli, bir qədər səbirli olmalı, gözləməliyik. Əgər buna zərurət yaranarsa, daha fərqli addımlar atıla bilər. Amma indiki halda bu cür məsələlərin həll variantını dövlətin öhdəsinə buraxmaq lazımdır".

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan–Özbəkistan strateji tərəfdaşlığı: ortaq tarixdən ortaq gələcəyə

**Azərbaycan bu gün Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və inkişafın əsas dayağına çevrilib. Uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz yalnız regionda deyil, qlobal miqyasda da etibarlı tərəfdaş kimi qəbul olunur. Bu reallıqlar fonunda Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əlaqələrin möhkəmləndirilməsinə xüsusi önəm verir. Bu sırada Özbəkistanla münasibətlər strateji mahiyyət daşıyır.**



Azərbaycanla Özbəkistanı yalnız siyasi və iqtisadi maraqlar deyil, həm də tarixi köklər, mədəni və dini ortaq dəyərlər birləşdirir. Hər iki xalq əsrlər boyu bir-birinə dayaq olub. Əlişir Nəvainin Nizami Gəncəvidən ilham alması, Bakıda inşa edilmiş Buxara karvansarası, Qarabağdan çıxmış Yusif ibn Məhəmmədcan Qarabağinin Səmərqənddə dəfn olunması kimi faktlar ortaq yaddaşın göstəriciləridir.

Sovet dövründə də bu əlaqələr davam edib. 1930-cu illərin repressiyalarından qurtulan minlərlə azərbaycanlı Özbəkistanda sığınacaq tapıb. 1966-cı il Daşkənd zəlzələsinin bərpasında azərbaycanlı mütəxəssislərin iştirakı isə xalqlarımız arasında humanitar həmrəyliyin daha bir nümunəsidir.

Müstəqillik illərində bu münasibətlər yeni mərhələyə qədəm qoyub. Ümummilli lider Heydər Əliyevlə Prezident İslam Kərimov arasında qurulan dostluq bu əlaqələrin əsasını təşkil edib. 1997-ci ildə Ulu öndərin Özbəkistana səfəri strateji tərəfdaşlıq yolunda mühüm addım olub. Bu siyasət Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyevin birgə səyləri ilə daha da güclənib.

İki ölkə daim bir-birinin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyib. Özbəkistan 2008-ci ildə Azərbaycanın işğal altındakı torpaqları ilə bağlı BMT qətnaməsinin lehinə səs verən yeganə Mərkəzi Asiya dövləti olub. 2021-ci ildə TDT Zirvəsində Prezident Mirziyoyev Azərbaycanı Qarabağın azad olunması münasibətilə təbrik edib. Füzulidə inşa edilən və 2023-cü ildə açılışı olan Mirzə Uluqbəy adına məktəb bu qardaşlığın əyani ifadəsidir.

Bütün bunlar onu deməyə əsas verir ki, hazırkı Azərbaycan–Özbəkistan əlaqələrinin yüksək səviyyəyə çatmasında Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin şəxsi münasibətləri həlledici rol oynayır. Təsadüfi deyil ki, hər iki prezident dövlət səfərləri və rəsmi səfərlərdən əlavə müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də tez-tez görüşürlər.

Son illər ikitərəfli səfərlər intensiv xarakter alıb. Təkcə 2022-ci ildə Prezident İlham Əliyev Özbəkistana üç dəfə səfər edib. Tərəflər arasında nəqliyyat, energetika, ticarət, logistika və humanitar sahələrdə əməkdaşlıq güclənib. "Azərbaycan və Özbəkistan hökumətləri arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş" bu baxımdan mühüm sənəddir.

Bundan əlavə, COP29 çərçivəsində Bakı şəhərində Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin üçtərəfli görüşü baş tutdu. Görüş zamanı yaşıl enerji sahəsində strateji əməkdaşlığa dair saziş imzalandı. Bu sənəd gələcək texnoloji və ekoloji əməkdaşlıq üçün mühüm yol xəritəsidir.

2024-cü ildə Prezident Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri əlaqələrin tarixində yeni səhifə açdı. Onun Füzuli və Şuşaya səfəri, bugünlərdə qardaş ölkənin başçısının yenidən Bakıya gəlməsi, "Özbəkistan" parkının təməlinin qoyulması, səfirliyin yeni binasının açılışı və imzalanan sənədlər, Xankəndidə İƏT zirvəsində keçirilən görüşlər strateji tərəfdaşlığın çoxşaxəli inkişafını təsdiqlədi.

Hazırda Azərbaycan və Özbəkistan arasında 170-dən çox sənəd imzalanıb. Bu hüquqi baza, eləcə də liderlər arasında olan yüksək səviyyəli etimad münasibətləri gələcək əməkdaşlığın daha da möhkəmlənəcəyinə zəmanət verir. Eyni soy-kök və ortaq tarixə söykənən Azərbaycan–Özbəkistan əlaqələri bu gün Türk dünyasının həmrəyliyinə də real töhfə verir.

Şübhə yoxdur ki, bu qardaşlıq münasibətləri gələcəkdə də davam edəcək, xalqlarımızın rifahına və regionda dayanıqlı əməkdaşlığa xidmət göstərəcək.

***XQ***

# Fransada müsəlmanlara qarşı hücumlar artır

## Rəsmi Paris isə susmağa üstünlük verir

**Özünü dünyaya "demokratiyanın beşiyi" kimi təqdim edən, milli şüarı "Azadlıq, bərabərlik, qardaşlıq" olan Fransada bunun əksinin müşahidə edildiyi heç kimə sirr deyil. Bugünlərdə Beşinci Respublikada müsəlmanlara qarşı yönəlmiş hərəkətlərin sayının artdığı məlum olub. Ölkənin Daxili İşlər Nazirliyinin məlumatında bildirilib ki, 2025-ci ilin yanvar-may ayları ərzində belə addımların sayı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 75 faiz artıb.**



Bildirilib ki, bu ilin ilk beş ayında müsəlmanlara qarşı 145 hərəkət qeydə alınıb. Ötən ilin müvafiq dövründə isə bu göstərici 83 olub. Müsəlmanlara qarşı edilən hərəkətlərin 99-u hücum xarakterli olub. Ötən ilin müvafiq dövründə isə bu göstərici 32-ni keçməyib. Nazirlik, həmçinin qeyd edib ki, Fransada antisemitizm yüksək səviyyədə qalır. Yanvar-may aylarında 504 antisemitizm aktı qeydə alınıb.

Qeyd edək ki, Fransa dünyəvi dövlətdir. Vicdan azadlığının konstitusiya qanunu ilə təmin edilməsi nəzərdə tutulub. Sekulyarizm doktrinası da burada yaranıb və inkişaf edib. 1905-ci ildə qəbul edilmiş qanun dövləti bütün dini təşkilatlardan ciddi şəkildə ayırıb. Fransa 1872-ci ildə keçirilmiş milli siyahıyaalmadan sonra rəsmi olaraq dini mənsubiyyətlə bağlı məlumat toplamır və bu, ölkə əhalisinin dini tərkibini qiymətləndirməyi çətinləşdirir. Respublikanın dünyəvi xarakteri identiklik kimi qəbul edilir. Bununla belə, vaxtaşırı keçirilən sorğular əhalinin dini mənsubiyyəti ilə bağlı müəyyən qənaətə gəlməyə imkan verir. Fransa Statistika İnstitutunun 2015-ci ildə apardığı araşdırmaya görə, heç bir dinə mənsub olmayanlar əhalinin 44, katoliklər 43, müsəlmanlar 8, protestantlar 2, pravoslavlar, yəhudilər və buddistlər isə hər biri 1 faizini təşkil ediblər.

Göründüyü kimi, İslam dini Fransada tərəfdarlarının sayı və əhəmiyyəti baxımından ikincidir. Lakin böyümə baxımından birincidir. Yeri gəlmişkən, qeyd edək ki, Fransada müsəlmanlar üçün ən mühüm dini məkan 1926-cı ildə əsası qoyulmuş və hazırda Əlcəzair hakimiyyəti tərəfindən idarə edilən Paris Cümə məscididir. Ümumiyyətlə, müasir Fransada müsəlmanların əksəriyyəti İslam dininin üstünlük təşkil etdiyi keçmiş fransız müstəmləkələrindən (Mərakeş, Əlcəzair və Tunis) olan birinci, ikinci və üçüncü nəsil mühacirlərdir. Müsəlmanlar əsrlər boyu müstəmləkələrdə yaşasalar da, XX əsrin ortalarından onların kütləvi şəkildə metropoliyaya köçməsi başlayıb. Bu gün Fransadakı müsəlman icması Avropanın ən böyük icmalarından biridir. Müsəlmanların əksəriyyəti Məğrib ölkələrindən (Mavritaniya, Mərakeş, Əlcəzair, Tunis və Liviya) olan ərəb və ya bərbər mənşəlidir. Lakin türklər, qaradərili müsəlmanlar və İslamı qəbul edən fransızlar da var. İqtisadi miqrantlarla yanaşı, İslam ölkələrindən və regionlarından, habelə dekolonizasiya dövründə Fransa rejiminə rəğbət bəsləyən xeyli sayda siyasi qaçqın (məsələn, Əlcəzairindən olan harkilər) da Fransada məskunlaşıb. Müsəlmanların əksəriyyəti böyük şəhərlərdə, daha çox Paris və Marseldə yaşayırlar.

Bəlkə də İslam dininin sürətlə yayılması səbəbindəndir ki, Fransada xüsusilə son illərdə islamofobiya həm siyasi ritorikada, həm də ictimai münasibətlərdə daha açıq şəkildə özünü göstərməyə başlayıb. Ölkədə müsəlmanlara qarşı törədilən hərəkətlərin cəmi beş ayda 75 faiz artması təkcə statistika deyil, həm də dərinləşən sosial böhranın göstəricisidir. Ölkə daxilində belə qısa müddətdə 145 islamofobiya aktının qeydə alınması Fransanın insan haqları və dini tolerantlıq sahəsində ciddi problemlə üzləşdiyini sübut edir. Ən narahatedici məqam odur ki, bu aktların 99-u bilavasitə hücum xarakterli olub. Yəni, təkcə nifrət ritorikası yox, fiziki təhlükə də artıq normaya çevrilir. Əgər 2024-cü ildə cəmi 32 belə hücum qeydə alınmışdısa, 2025-ci ildə bu sayın üç dəfə artması prosesin sürətlə radikallaşdığını göstərir. Rəqəmlər həm də onu göstərir ki, Fransa dövləti bu gərginliyi nə tənzimləyə bilir, nə də onu dayandıran siyasi iradə ortaya qoyur. Rəsmi Paris özünün məşhur "sekulyarizm modelini" dini azlıqları hədəfə almaq üçün istifadə edir. Bu isə əslində, dini neytrallıq yox, selektiv basqıdır.

Fransa Daxili İşlər Nazirliyinin antisemitizmin də yüksək səviyyədə qaldığını etiraf etməsi göstərir ki, ölkədə dini tolerantlıq təhlükə altındadır. İslamofobiya və antisemitizmin paralel artması cəmiyyətdə dərin bölünmənin və radikallaşmanın xəbərçisidir. Maraqlıdır ki, Fransa hakimiyyəti bu halda da "respublika dəyərləri"ni dünyaya nümunə göstərməkdə davam edir. Müvafiq sahə üzrə ekspertlərin bildirdikləri kimi, əslində, Fransa hakimiyyətinin ölkədəki bütün etnik və dini icmalar arasında özlərinin formalaşdırdıqları milli kimlik çərçivəsində ortaq nöqtə tapmaq istəyi təkcə müsəlmanlara qarşı yönələn addım deyil. Digər irqlərə, eləcə də azlıqlara mənfi təsir göstərən bu proses Fransanı çox təhlükəli istiqamətə sürükləyir.

Fransa daha özünü dünyaya "azadlıq, bərabərlik və qardaşlıq" respublikası kimi təqdim edə bilməz. Çünki bu üç əsas prinsipin heç biri ölkənin müsəlman əhalisinə verilmir. Müsəlmanlar Fransanın yüksək səviyyəli rəsmiləri, mediası və bəzi alimləri tərəfindən "solçu islamçılar", "islamofaşistlər", "dövlətin düşmənləri" kimi damğalanır, şərlənir və böhtanlara məruz qalırlar. Dini və digər azadlıqların məhdudlaşdırılması və sıxışdırılma müsəlmanların şəxsi həyatına getdikcə daha dərindən müdaxilə etmək deməkdir. Bəzi ekspertlərin qeyd etdiyi kimi, Fransa hakimiyyəti dövlətlə İslam arasındakı münasibətlərdə düşüncə və dini inancın kriminallaşdırılmasının qırmızı xəttini keçib. Vaxtilə qul ticarəti ilə məşğul olan, işğalçılıq və müstəmləkəçilik siyasəti yürüdən, soyqırımları törədən, indi isə özünü insan hüquqlarının keşiyində duran "demokratik ölkə" qismində təqdim edən Fransada hazırda islamofobiya bir növ dövlət siyasətinə çevrilib. Bu ölkədə dünyəvi dəyərlərin müdafiəsi adı altında müsəlmanların hüquqlarını və etiqad azadlığını məhdudlaşdıran qanunlar qəbul edilir, onların təhsil almaq, mənzilə sahib olmaq, işlə təmin olunmaq və digər hüquqları tapdalanır.

Bu kontekstdə İslam dininin və inancının istənilən əlaməti, o cümlədən, sadəcə, namaz qılmaq, Ramazan ayında oruc tutmaq və ya hicab taxmaq, müsəlmanların hər hansı vətəndaş fəaliyyəti dövlət orqanları tərəfindən dərhal ekzistensial təhlükə kimi qəbul edilir. 2017-ci ildən ölkəyə rəhbərlik edən Emmanuel Makronun dövründə Fransada müsəlmanlar bilavasitə dövlətin özü tərəfindən fəal və metodik şəkildə təqib edilirlər. İslamı "bütün dünyada böhran içində olan" bir din kimi xarakterizə edən Makron vaxtilə "maarifçi İslam" yaratmaq istədiklərini söyləmişdi ki, bu da müsəlman dünyasında etirazlara səbəb olmuşdu.

Fransada islamofobiya kimi ümumbəşəri bəlaya və təhlükəyə qarşı nəinki mübarizə aparılmadığı, hətta onun yayılmasının təşviq edilməsi məyusedici haldır. İslam dinini və müsəlmanları Qərb identikliyinə və dəyərlərinə təhdid kimi göstərərək insanların hisslərini və düşüncələrini yönəltməyə çalışan radikal cərəyanların və ifrat sağçı partiyaların pərəstişkarlarının sayı Avropada getdikcə artır, onların nümayəndələri parlamentlərdə daha çox yer qazanmağa başlayırlar. Eyni zamanda, Avropa Parlamenti və AŞPA kimi təsisatlar qərəz və ikili standartlara üstünlük verərək anti-müsəlman əhvali-ruhiyyəsini təlqin edirlər.

Bu cür xoşagəlməz halların artımı fonunda müsəlman cəmiyyətləri arasında yaranan narahatlıq haqlıdır. Çünki Fransa dövlətinin reaksiyası ya gecikir, ya da təəssüf ki, susqunluqla müşahidə olunur. Sosial şəbəkələrdə və mediada müsəlmanlara qarşı düşmənçilik yayan qruplar cəzasız qalır. Hökumətin bəyanatları isə çox zaman konkret tədbirlərdən daha çox ictimaiyyəti sakitləşdirməyə yönəlir. Şübhəsiz ki, əgər bu tendensiya davam edərsə, Fransa cəmiyyəti daxilində parçalanma daha da dərinləşəcək. Həm müsəlmanların, həm də digər dini azlıqların hüquqlarını qorumaq Fransanın konstitusion öhdəliyidir. Lakin bu öhdəliklər real həyatda kağız üzərində qalır. Beynəlxalq ictimaiyyət isə daha "sekulyarizm pərdəsi" altında baş verən ayrı-seçkiliyi görməzdən gəlməməlidir.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan “yaşıl” enerji istehsalını 10 ildə 43 faizə çatdıracaq



(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, son illərdə iqlim dəyişiklikləri ilə mübarizə, enerji təhlükəsizliyinin təmin olunması və davamlı iqtisadi inkişaf istiqamətində qlobal çağırışlar ölkələrin enerji siyasətlərində ciddi dəyişikliklərə yol açıb. Azərbaycanın bu prosesdə oynadığı rol isə getdikcə daha da ön plana çıxır. “Yaşıl gündəm”ə uyğun olaraq ölkəmizin enerji siyasəti təkcə daxili tələbatı qarşılamaqla kifayətlənmir, həm də bərpa olunan enerji mənbələrinin ixrac potensialını reallaşdırmaq məqsədi daşıyır. Bu istiqamətdə mühüm addımlardan biri, Azərbaycan hökuməti ilə Dünya Bankı arasında imzalanmış “Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi layihəsi” üzrə kredit sazişidir.

Maliyyə naziri Sahil Babayevin yuxarıda adıçəkilən əhəmiyyətli mərasimdə verdiyi bəyanatlar Azərbaycan dövlətinin strateji hədəflərinin bir daha aydın ifadəsi kimi qiymətləndirilə bilər. S.Babayev qeyd edib ki, ölkəmizin qarşısında duran əsas məqsədlərdən biri Azərbaycanın yaxın gələcəkdə etibarlı və miqyaslı “yaşıl” enerji ixracatçısına çevrilməsidir. O vurğulayıb ki, bu məqsədə çatmaq üçün Azərbaycanın həm texniki, həm təbii resurslara əsaslanan, eyni zamanda, institusional potensialı mövcuddur.

Əslində, Azərbaycanın “yaşıl” enerji siyasəti ötən illər ərzində planlı şəkildə həyata keçirilən islahatlar və strateji yanaşmaların nəticəsidir. Prezident İlham Əliyev tərəfindən elan edilən “Yaşıl enerji zonası” konsepsiyası, xüsusilə də azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa olunan enerji potensialının reallaşdırılması bu baxımdan müstəsna əhəmiyyət daşıyır. Təkcə Kəlbəcər, Laçın və Cəbrayıl rayonlarında minlərlə meqavatlıq günəş və su elektrik potensialının mövcudluğu Azərbaycanın enerji strategiyasında yeni səhifənin açılmasının parlaq ifadəsidir.

Sahil Babayev, mərasimdəki çıxışında Dünya Bankı Qrupunun Azərbaycanla əməkdaşlığını da xüsusi qeyd edib. O, bankın ölkəmizdə həyata keçirilən inkişaf proqramlarına verdiyi davamlı dəstəyi yüksək qiymətləndirərək bildirib ki, bu əməkdaşlıq enerji sektorunda bərpa olunan mənbələrə keçidin sürətləndirilməsində, enerji təhlükəsizliyinin təmin olunmasında və iqlim dəyişikliklərinə qarşı mübarizədə əvəzsiz rol oynayır.

Qeyd edək ki, Dünya Bankı ilə əməkdaşlıq təkcə maliyyə dəstəyi ilə məhdudlaşmır. Bu, texniki yardım, strateji məsləhətlər və institusional potensialın artırılması sahəsində də özünü qabarıq göstərir. Azərbaycan üçün bu əməkdaşlıq, xüsusilə də beynəlxalq investisiya mühitinin cəlbedici saxlanılması və enerji bazarına yeni oyunçuların daxil olması baxımından da olduqca önəmlidir.

Azərbaycanın bərpa olunan enerji sahəsində inkişaf hədəfləri təkcə daxili ehtiyaclarla bağlı deyil. Avropa İttifaqı ilə imzalanmış strateji enerji sazişləri çərçivəsində Azərbaycan Xəzər dənizi vasitəsilə Avropaya “yaşıl” enerji ixracını da planlaşdırır. Bu kontekstdə Gürcüstan və Rumıniya ilə birgə həyata keçirilən Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi, həmçinin Avropaya uzanan “yaşıl” enerji dəhlizinin yaradılması strateji baxımdan əhəmiyyətli təşəbbüslərdir.

Belə bir zamanda Dünya Bankı ilə əməkdaşlığın genişləndirilməsi Azərbaycanın bərpa olunan enerji sektorunda beynəlxalq etimadını daha da möhkəmləndirir. Kredit sazişləri təkcə maliyyə resurslarının cəlb edilməsi deyil, həm də enerji infrastrukturunun modernləşdirilməsi və dayanıqlı inkişafın gerçəkləşdirilməsi baxımından strateji önəm daşıyır.

Burada onu da qeyd edək ki, sözügedən istiqamətdə gerçəkləşdirilən layihələrin perspektivdə mühüm uğurlarla nəticələnəcəyi proqnozlaşdırılır. Məsələn, energetika naziri Pərviz Şahbazov Çinin Ninqbo şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) energetika nazirlərinin iclasının açılış mərasimində və “Sənaye innovasiyası dayanıqlı enerji inkişafının hərəkətverici qüvvəsidir” adlı forumda bildirib ki, Azərbaycanda növbəti 5 ildə quraşdırılan gücdə bərpa olunan enerji payının 38 faizə, 2035-ci ildə isə, təxminən, 43 faizə çatdırmaq üçün külək və günəş stansiyalarının tikintisi nəzərdə tutulur.

Nazir daha sonra əminliklə bildirib ki, Çinlə tərəfdaşlıq Xəzər dənizinin 157 QVt-lıq külək enerjisi potensialının hərəkətə gətirilməsində və Mərkəzi Asiyanın “yaşıl” enerji resurslarına əsaslanan “yaşıl enerji dəhlizləri”nin reallaşdırılmasında mühüm rol oynayacaq. Azərbaycan, Qazaxıstan və Özbəkistanın birgə layihəsi – “Transxəzər Yaşıl Enerji Dəhlizi”, “Xəzər – Qara dəniz – Avropa” və “Azərbaycan –Türkiyə – Avropa” “yaşıl” enerji dəhlizləri və interkonnektorları ilə inteqrasiya edilməklə, Asiya ilə Avropa arasında yerləşən Orta Dəhliz boyunca bərpa olunan enerjinin genişmiqyaslı və fasiləsiz ötürülməsinə imkan yaradacaq.

“Yaşıl” enerji interkonnektorları coğrafi baxımdan qeyri-bərabər paylanılan və təbiəti etibarilə dəyişkən olan günəş və külək enerjisinin ehtiyac olan regionlara çatdırılmasına, bərpa olunan enerjinin səmərəli istifadəsinə və enerji sistemləri arasında qarşılıqlı dayanıqlığın təmininə xidmət edən kritik infrastruktur elementləridir. Bu kontekstdə regionlararası inteqrasiya ŞƏT ölkələrindən Azərbaycana, buradan isə Türkiyə və Avropa bazarlarına “yaşıl” enerjinin ötürülməsi üçün əsas vasitəyə çevriləcək. Bu əməkdaşlıq Çin üçün texnologiya transferi və investisiya imkanlarının genişlənməsi ilə yanaşı, “Yaşıl İpək yolu” təşəbbüsünü və ŞƏT-in enerji gündəliyini praktik nəticələrlə dəstəkləyən platforma olacaq.

Nazir, həmçinin enerji təhlükəsizliyi, iqlim öhdəlikləri və iqtisadi davamlılıq kimi çağırışlarla dərin transformasiya mərhələsində olan qlobal enerji sektorunda innovasiyaların roluna dair fikirlərini bölüşüb. Azərbaycanın “yaşıl enerji zonaları” modeli növbəti 5 ildə quraşdırılmış gücdə bərpa olunan enerjinin payını 38 faizə, 2035-ci ildə isə təxminən 43 faizə çatdırmaq üçün külək və günəş stansiyalarının tikintisi, dənizdə külək enerjisinin istifadəsi, həmçinin interkonnektorlar layihələrinin məhz innovasiyalara əsaslandığı diqqətə çatdırılıb.

Ümumilikdə, “yaşıl” enerjiyə keçid təkcə iqtisadi və ekoloji deyil, həm də geosiyasi əhəmiyyət daşıyan məsələdir. Bu sahədə əldə olunan uğurlar Azərbaycanın beynəlxalq nüfuzunu artırır, regionda enerji xəritəsinin yenidən formalaşmasında ölkəmizi öncül mövqeyə çıxarır.

Azərbaycan hökumətinin bərpa olunan enerji sahəsində israrlı və məqsədyönlü siyasəti Dünya Bankı kimi qlobal tərəfdaşların dəstəyi ilə birləşərək ölkəmizin “yaşıl” enerji ixracatçısına çevrilməsi istiqamətində yeni imkanlar açır. Bu, təkcə enerji strategiyası deyil, həm də davamlı gələcəyin qurulması yolunda atılan uğurlu addımdır.

# İƏT ölkələrinin iş adamları Ağdam Sənaye Parkında

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq təşkil edilən “İƏT Həftəsi” çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin biznes nümayəndələrinin Ağdam Sənaye Parkına səfəri təşkil edilib.**



İqtisadiyyat Nazirliyinin məlumatına görə, İƏT ölkələrini təmsil edən iş adamlarına işğaldan azad olunmuş ərazilərimizin ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində görülən işlər barədə məlumat verilib. Qeyd olunub ki, bu ərazilərin iqtisadi potensialının reallaşdırılması Azərbaycanın əsas hədəflərindəndir. Bu məqsədlə dövlət başçısının rəhbərliyi ilə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir.

Qarabağ və Şərqi Zəngəzurda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün müxtəlif güzəşt və imtiyazlar tətbiq olunur. Bu baxımdan işğaldan azad olunmuş ərazilərdə yaradılmış sənaye zonaları sahibkarlara böyük iqtisadi fürsətlər təqdim edir. Dövlət sənaye parklarını hazır infrastrukturla təmin edir. Rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumundan tam azad olunurlar. Həmçinin işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin kreditlərinə dövlət zəmanəti verilir və faizlərin bir hissəsi subsidiyalaşdırılır. Bu ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara hər ay istehlak olunan kommunal xidmətlərə görə ödədikləri vəsaitin 20 faizi məbləğində dövlət büdcəsi hesabına maliyyə yardımı ödənilir.

İş adamları Ağdam Sənaye Parkındakı müəssisələrin fəaliyyəti ilə tanış olublar. Burada qonaqlara məlumat verilib ki, əlverişli coğrafi mövqedə yerləşən və 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkının hazırda 70 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. Parkın prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı və qida məhsullarının istehsalı və emalı, yem, gübrə istehsalı, eyni zamanda, xidmət sahələrinin təşkilidir. Sahibkarların artan marağının göstəricisidir ki, bu sənaye parkı rezidentlərin sayına görə ölkədə fəaliyyət göstərən 9 sənaye parkı arasında ikincidir. Burada istehsal olunan məhsullar daxili bazara yönləndirilməklə yanaşı, ixrac edilir.

# 5 ildə 4 milyard dollarlıq kənd məhsulu ixrac edilib



**Azərbaycanın kənd təsərrüfatı sektoru son illər ərzində sürətlə inkişaf edərək ixrac potensialını artırır. Dövlət dəstəyi sayəsində yerli məhsullar dünya bazarlarında daha çox tanınır. Bu, statistik göstəricilərdən də aydın nəzərə çarpır.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə respublikada, ümumilikdə, 13 milyard manat (2023-cü illə müqayisədə 1,5 faiz çox) dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunub. Hesabat ilində 936 milyon ABŞ dolları (əvvəlki illə müqayisədə 6,7 faiz çox) dəyərində isə kənd təsərrüfatı məhsulu xarici bazarlara göndərilib. İxrac strukturunda ən böyük pay sahibi (75,6 faiz) meyvə-tərəvəz məhsulları olub.

Kənd təsərrüfatı məhsullarının ixracından bəhs edərkən bir məqamı da xatırladaq. Belə ki, ölkəmiz bəzi məhsullar üzrə beynəlxalq bazarlarda liderliyini qoruyub. Məsələn, Azərbaycan xurma ixracında 2024-cü ildə dünyada yalnız İspaniyadan geri qalaraq ikinci yerdə qərarlaşıb. Meşə fındığının ixracına görə isə Azərbaycan ilk beşlikdə yer alıb. Qeyd edək ki, son 5 ildə (2020 – 2024-cü illər) ilkin kənd təsərrüfatı məhsullarının ixracı 4,3 milyard dollara bərabər olub. Ötən il Azərbaycanın kənd təsərrüfatı məhsulları əsasən Rusiya, Türkiyə, Almaniya, Türkmənistan və İtaliyaya ixrac edilib.

Azərbaycanda kənd təsərrüfatı sahəsində dövlət siyasətinin əsas məqsədlərindən biri yeni texnologiyaların tətbiqi və rəqabətqabiliyyətli məhsulların keyfiyyətinin artırılmasıdır. Eyni zamanda, istehsalın və ixracın genişləndirilməsi, müasir aqrar müəssisələrin yaradılması da prioritetlər sırasındadır. Hazırda “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na uyğun olaraq, kənd təsərrüfatının dayanıqlı və rəqabətli inkişafı üçün istehsal və biznes sahəsində fiziki və rəqəmsal təhsil imkanları genişləndirilir. Aqrobiznesin inkişafı məqsədilə sahibkarlığın dəyər zənciri üzrə gücləndirilməsi və səmərəli fəaliyyət göstərən institutların yaradılması istiqamətində də işlər aparılır.

# Beynəlxalq agentlik Azərbaycanda davamlı inkişaf proqnozlaşdırır

**“Fitch Ratings” beynəlxalq reytinq agentliyinin hesabatına əsasən, Azərbaycan iqtisadiyyatının 2025 – 2030-cu illərdə orta illik artımı 2,66 faiz təşkil edəcək. Proqnozlara görə, 2025-ci ildə ölkə iqtisadiyyatı 3,5 faiz, 2026-cı ildə isə 2,5 faiz artacaq. Növbəti illərdə (2027 – 2030-cu illər) respublikada ÜDM-in artım tempi ildə orta hesabla 2,5 faiz olacaq.**




Qeyd edək ki, İqtisadiyyat Nazirliyi 2025-ci ildə ÜDM-in artım tempini 3,7 faiz, 2026-cı ildə 3,2 faiz, 2027-ci ildə isə 3,6 faiz səviyyəsində proqnozlaşdırır. Beynəlxalq reytinq agentliklərinin proqnozları isə fərqlənir. Belə ki, “S&P Global” 2025 – 2026-cı illərdə illik 2 faiz, “Moody's” isə ildə 2,5 faiz artım gözləyir.

Beynəlxalq Valyuta Fondu 2025 – 2026-cı illər üçün müvafiq olaraq 3,5 faiz və 2,5 faiz, Avropa Yenidənqurma və İnkişaf Bankı 3 faiz və 2,5 faiz, Asiya İnkişaf Bankı 3,4 faiz və 3,3 faiz, Niderlandın “ING Group”u 2 faiz və 2,5 faiz, Dünya Bankı isə 2025-ci ildə 2,6 faiz, 2026-cı ildə 2,4 faiz, 2027-ci ildə 2,3 faiz səviyyəsində artım proqnozlaşdırır.

# Vergi ödəyicilərinin sayı 4,8 faiz artıb



**Dövlət Vergi Xidmətindən XQ-yə bildirilib ki, 2025-ci il iyul ayının 1-nə respublika üzrə uçotda olan 1 milyon 630 min 743 vergi ödəyicisinin 86,9 faizi fiziki şəxslər, 13,1 faizi hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 4,8 faiz, o cümlədən fiziki şəxslərin sayı 4,4 faiz, hüquqi şəxslərin sayı isə 7,7 faiz çoxalıb.**

Dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 91,7 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,1 faizi səhmdar cəmiyyət, 1,1 faizi kooperativ və digər formalarda yaradılıb. İyul ayının 1-nə qeydə alınan kommersiya qurumlarının sayı ötən ilin eyni dövrünə nisbətən 8,1 faiz artaraq 197 min 38 vahid olub.

Məlumata görə, cari ilin ilk yarısında 88,9 faizi yerli investisiyalı, 11,1 faizi isə xarici investisiyalı olmaqla 6814 kommersiya qurumu dövlət qeydiyyatından keçib. Kommersiya qurumlarının 85,3 faizi elektron qaydada qeydiyyata alınıb. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi isə 96,6 faizə yüksəlib.

# Neft Fondunun büdcəyə töhfəsi 13 faiz çoxalıb



**Maliyyə Nazirliyinin məlumatına görə, cari ilin ilk yarısında dövlət büdcəsinin gəlirləri 19 milyard 804 milyon manata yüksəlib. Gəlirlərdə Dövlət Neft Fondundan (DNF) transfert isə 7 milyard 240 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 850 milyon manat və ya 13,3 faiz çox) olub. Beləliklə, hesabat dövründə DNF tərəfindən transfert tam icra edilib.**

Xatırladaq ki, 2024-cü ilin birinci yarısında Dövlət Neft Fondundan büdcəyə transfert 6 milyard 390 milyon manat idi.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Günün söz güzgüsü, gələcəyin mənəvi mayakı

**İyulun 22-də xalqlmızın milli-mənəvi dəyərlər sistemində və ictimai fikir tarixində önəmli yeri olan Azərbaycan milli mətbuatının 150 yaşı tamam olacaq. Ötən əsryarımda milli oyanış və istiqlal hərəkatının önündə getmiş, XX yüzillik boyunca sivil inkişaf ideyalarının gerçəkləşdirilməsinin informasiya dəstəkçisi olmuş, əsrin sonunda ərazi bütövlüyümüzün qorunması və müstəqilliyimizin bərpası uğrunda ümumxalq hərəkatının kütləvi tribunasına çevrilmiş milli jurnalistikamızın növbəti yubileyi keçilmiş yolun öyünclü tarixini yenidən iri planda gündəmə gətirir.**



Dövlət başçısının sərəncamı ilə ümumxalq təntənəsi miqyasında start verilmiş yubiley tədbirlərində milli mediamızın ümumi tərəqqiyə verdiyi tarixi töhfələr, demokratik ənənələrə sadiqliyi, azad media prinsiplərini dirçəldib inkişaf etdirməsi, cəmiyyətin ləkəsiz aynası olmaq məramı qədirbilənliklə qeyd edilir. Media qurumlarının yubiley hazırlıqlarında Azərbaycan dövlətinin milli jurnalistikanın çağdaş çağırışları yüksək səviyyədə cavablandırması üçün yaratdığı şərait, müstəqilliyin ilk illərində redaksiyaların maddi-texniki bazasının gücləndirilməsi, problemlərinin həlli ilə bağlı ümummilli lider Heydər Əliyevin göstərdiyi diqqət və qayğı minnətdarlıqla yad edilir.

Sonrakı dövrdə bu siyasəti Prezident İlham Əliyevin daha geniş və ardıcıllıqla davam etdirməsi, xüsusən, jurnalistlərin sosial durumunun yaxşılaşdırılması üçün həyata keçirilmiş sistemli tədbirlər isə, haqlı olaraq, müstəqil dövlətimizin dünyada analoqu olmayan media siyasəti kimi qiymətləndirilir. Dövlət başçısının yubiley sərəncamında bu siyasətin hədəfi və gözləntisi ayəks olunub: "Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir."

Buməqamda ötən əsrin 70-80-ci illərini xatırlamamaq olmur. O zaman şəhər ziyalıları, dövlət qulluqçuları, xüsusən də gənclər paytaxtın küçə və meydançalarında quraşdırılmış qəzet vitrinlərinin qarşısında mütləq ayaq saxlayar, Moskvada və Bakıda nəşr olunmuş nüfuzlu mətbu nəşrlərin aktual mövzuda yazılarını elə ayaqüstəcə oxuyardılar. Təbii ki, o vaxt abunə yazılışı da həyata keçirilirdi və hər kəs istədiyi, arzuladığı qəzet-jurnalı axşamlar evlərində mütaliə edərdi. Rəsmi dövlət qəzetlərində, eləcə də sahə nəşrlərində hər bir oxucunun ürəyincə olan, maraq dünyasına uyğun yazılar tapmaq mümkün idi.

Əlbəttə, bu gün də ölkəmizdə nəşr olunan qəzet və jurnallarda, saytlarda və xəbər portallarında günümüzlə səsləşən, qəlbimizdən keçən mövzular çoxdur və yüksək professionallıqla qələmə alınan yazılar qədərincədir. Bu mənada, keçmiş zamanların ənənələrini yaşatmağın yalnız fayda verəcəyini unutmaq olmaz. Çin filosofu Konfutsi demişkən, ən yaxşı yenilik çoxdan unudulmuş köhnəlikdir. Təbii ki, hər bir ictimai quruluş, zamanın gərdişi özü ilə bir sıra zərurui yeniliklər də gətirir və bu tendensiyadan uzaq qaçmaq mümkün deyil. Amma zamanında meydana gələn və bu gün də gərəyimiz olan forma və metdolardan, yanaşma tərzindən niyə də istifadə etməyək?

Şübhəsiz, dövrümüzün mühüm atributları sırasında vaxtilə əlimizdən tutan, dividend gətirən dəyərlərdən də istifadə etməliyik. Doğrudur, indi bir sıramedia qurumlarında, xüsusən internet yayımlarında çox vaxt "qışqıran", səs-küylü mövzulara üz tutulur, bununla da sanki oxucu toplamağa səy göstərilir. Amma belə mövzuların əvəzinə insan taleyi, elmimizin bu günü, uşaqlarımızın gələcəyi, təhsilimizdəki vəziyyət, lap elə mətbuatımızın indiki durumu ilə bağlı saysız-hesabsız mövzular var ki, qəzet səhifələrində, saytlarda görünsə, yəqin ki, həm oxucular, həm də bütövlükdə cəmiyyətimiz üçün olduqca faydalı olar, böyük maraqla qarşılanardı.

Elə buradaca deyək ki, unudulmuş qəzet janrlarına – oçerk və reportajlara, müsahibə və zarisovkalara, xatirə yazılarına, memuarlara yeni nəfəs, həyat verilsə, təbii ki, bu, indiki yazarlara nüfuz qazandırardı. Bir vaxtlar paytaxtın küçə və meydanlarında saysız-hesabsız qəzet köşkləri qoyulmuşdu. Bəli, məhz qəzet köşkləri. İlk vaxtlar xeyirxah missiya daşıyıcıları olan bu obyektlər normal işləyir, qəzet-jurnal xiridarlarını razı salırdılar. Amma sonralar bu köşklər gündəlik istehlak məhsulları, oyuncaqlar, çeşidli xırdavat malları ilə zənginləşdirildi. Başa düşüləndir. Adam qazanmaq, həm də işığın, suyun pulunu, kirayə haqqını vaxtında vermək istəyir.

Qəzet köşkünün dükan, yaxud mini kafe olduğunu unudan bəzi köşk satıcıları çap məhsullarının təqdim edilməsini arxa plana keçiriblər. Beləliklə, az-çox itirən, bu satlıq malların içində itib-batan da qəzet və jurnallar olub. Onsuz da çap mediasına marağın getdikcə azalması, abunənin çətinləşməsi fonunda redaksiyalar maliyyə çətinliklərilə üzləşməli olublar. Elektron KİV-in sürətli inkişafı, qəzet, jurnal redaksiyalarının professional kadr qıtlığını, insanların daha operativ və xərcsiz-filansız informasiya əldə etmək istəyini də unutmaq olmaz.

Son vaxtlar mətbuatımızda sağlam atmosferin bərqərar olunması ilə bağlı atılan addımlar media mənsublarının ürəyincədir. İndi gənclər daha həvəslə yazmağa, neqativ məsələlərin çözülməsinə yaxından kömək etməyə cəhd göstərirlər. Onların qarşısında yaşıl işıq yandırmaq müvafiq orqanların əsas vəzifəsinə çevrilməlidir. Ömrünü-gününü jurnalistikaya, qəzetçiliyə həsr etmiş fədakar jurnalistlərimizin taleyi, sağlamlığı, məişət qayğıları da yaddan çıxarılmamalıdır. Onların yubileylərinin keçirilməsi, kitablarının təqdimatı, sosial problemlərinin həlli bu insanları mənəvi cəhətdən həvəsləndirər, yenidən cəmiyyətə, media aləminə dönüşünə rəvac verərdi.

Yaşlı və artıq işləməyən jurnalistlərin təcrübəsindən öyrənmək üçün yollar axtarılmalıdır. Bu adamların iştirakı ilə gənc yazarlar üçün "ustad dərsləri" keçirilməsi və onların təcrübəsini əks etdirən xüsusi nəşrin hazırlanması faydalı olardı. Mətbuat Şurası nəzdindəki Ahıl Jurnalistlər Birliyinin veteran yazarların arzularını reallaşdırmaq niyyətini alqışlamaq gərəkdir. Yeri gəlmişkən, yaşlı peşəkarlar arasında da yazı müsabiqəsi keçirmək, onları mətbuatla bağlı kütləvi tədbirlərə daha geniş şəkildə cəlb etmək faydalı olar.




Belə təcrübə dünya ölkələrində tətbiq olunur. 2002-ci ildə bir qrup həmkarımla ABŞ-a səfər zamanı "Vaşinqton-Post", "Nyu-York Tayms" kimi nəşrlərdə 70-80 yaşlı jurnalistlərin gənclərlə bir sırada çalışdıqlarının şahidi olmuşuq. Redaksiyalar sadaladığım istiqamətlərdə fəaliyyətlərini gücləndirsələr, zənnimcə, yaxşı səmərə verərdi.

Yeri gəlmişkən, jurnalistlər də işə müəllimlər, həkimlər, dövlət qulluqçuları kimi imtahandan keçməklə müsabiqə yolu ilə götürülərsə, gənc həmkarlarımız mediada fəaliyyətə daha məsuliyyətlə yanaşarlar. Belə olarsa, qəzet redaksiyaları da qazanar, redaksiyalara yalnız professionallar gələr, jurnalist olmaq eşqinə düşən bəzi işbazlar da bacardıqları işin qulpundan yapışarlar.

Medianın daha yüksək nüfuz qazanması üçün tənqidi yazılara, cəmiyyətin problemlərinin həllinə kömək olası materiallara yer verilməli, zəifləmiş reklam bazarı gücləndirilməlidir. Bütün bunlar isə media redaksiyalarının, Mətbuat Şurasının, Medianın İnkişafı Agentliyinin öz potensial imkanlarından daha səmərəli istifadəsini, radikal islahatların genişləndirilməsini zəruri edir.

Çap mediasının inkişafına vaxtaşırı dövlət dəstəyi göstərilirsə qəzet redaksiyalarının yaradıcı kollektivləri də təbii ki, öz işlərini dövrün tələblərinə uyğunlaşdırmağa səy göstərməli, oxucuları maraqlandıran, cəlb edən yazıların sayını artırmalıdırlar. Analitik təfəkkürlü, müasir texnologiyalardan yaxşı baş çıxaran jurnalistlərin normal fəaliyyət göstərməsi, heç bir maddi və mənəvi çətinliklə üzləşməməsi üçün müvafiq qurumlar radikal islahatlara meydan verməlidir.

Şimallı – cənublu vətənimizin parlaq söz aynasına çevrilməkdə olan "Bütöv Azərbaycan" qəzetinin maddi və mənəvi cəhətdən dəstəklənməsinə ciddi ehtiyac duyulduğu da yaddan çıxarılmamalıdır.

Sonda ölkə Prezidentinin yubiley sərəncamında müstəqil dövlətimizin milli mediamızdan gözləntisini bir daha həmkarlarımızın nəzərinə çatdırmaq istəyirəm: "Media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır".

Bu dövlət çağırışı həm də jurnalistikamızın çağdaş davamçılarının Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli və digər media klassiklərimizin ənənələrini uğurla davam etdirmələri yönündə mötəbər siyasi dəstək, rəsmi etimad və ümummili sifarişdir. Bu məramın gerçəkləşdirilməsini mediamızın günümüzün güzgüsü, dünənimizdən sabahımıza yol göstərən söz mayakı olmaq missiyası da tələb edir.

*Akif CABBARLI,*
*yazıçı-publisist, Azərbaycan Kinematoqrafçılar İttifaqının redaktoru*

**Azərbaycan mətbuatının zəngin ənənələrini yaşadan, Naxçıvan Muxtar Respublikasının salnaməsini öz səhifələrində tarixə çevirən bir əsrlik "Şərq qapısı" qəzeti media aləmində böyük xidmətləri ilə seçilməkdədir. Müstəqil Azərbaycanın ilk bağımsız qəzeti kimi tanınan bu mətbu orqan ümumilli lider Heydər Əliyevin həyat və fəaliyyətində də xüsusi yer tutmuş, fəaliyyəti qiymətləndirilmişdir.**

# "Şərq qapısı"nın salnamə missiyası

XX əsrin 20-ci illərinin əvvəllərində Sovet hakimiyyəti yerlərdə qəzet mətbu orqanların nəşrinə böyük diqqət göstərmiş, bu istiqamətdə geniş tədbirlər həyata keçirmişdir. Naxçıvan İnqilab Komitəsinin də ilk tədbirlərindən biri mətbu orqanın yaradılması olmuşdur. İnqilabın ilk illərində Naxçıvanda ilk dəfə İnqilab Komitəsinin orqanı olan "Kommunist" qəzeti nəşr edilməyə başlayır.

Bu qəzetin 50-60 nüsxə, 2 səhifə həcmində ərəb əlifbası ilə əlyazma şəklində olması haqqında məlumatlar var. Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, kimya elmləri doktoru, professor Cümşüd Zülfüqarlı və uzun müddət məsul vəzifələrdə çalışmış Nemət Novruzov bu işə böyük zəhmət sərf ediblər. Qəzet hazır olduqdan sonra şəhərin müxtəlif yerlərində divarlardan asılarmış. Qısa müddətdən sonra vərəqələr dövrün tələblərinə cavab vermədiyi üçün nəşri dayandırılır.

"Şərq qapısı"nın 31 mart 1925-ci il tarixli 100-cü nömrəsində bu haqda belə məlumat verilir: "Bu qəzetə həftədə bir dəfə olaraq 50 nüsxə buraxılırdı. Bir neçə vaxt keçəndən həman qəzetə bir taqım səbəblərdən qapanmağa məcbur oldu. Bundan sonra mərkəz ilə əlaqə bir növ düzəlincə Naxçıvana rus hürufatı ilə bir Amerikanka (makina) gətirilməsindən istifadə edərək rus dilində İnqilab Komitəsi tərəfindən "Naxrespublika" namında 2 səhifəlik qəzetənin nəşrinə şüru edilsə də, yenə də göstərilən səbəblərə görə bağlanmağa məcbur oldu".

O zaman "Naxrespublika" və "Cavanlar həyatı" adlanan iki qəzetin nəşrində əsas məqsəd Naxçıvan Vilayət Komsomol Komitəsinin orqanı olaraq, partiyanın qərarlarını çap etmək, dövrün ictimai həyatındakı yenilikləri xalqa çatdırmaq olmuşdur.

"Cavanlar həyatı" ərəb əlifbası ilə kiçik həcmdə vərəqə şəklində çap edilirdi. Qəzetin ilk sətrində başda "1921-ci il 9 noyabr, həm də hicri tarix 1340" qeyd edilmişdir. Səhifənin ortasında qəzetin adı "Cavanlar həyatı" kimi göstərilmişdir. Onun sağ tərəfində "Naşiri-əfkari Naxçıvan Sosialist Şura Cümhuriyyətinin Cavanlar İttifaqının Ölkə Komitəsidir" yazılmışdır. Müxbirlərin və mətbəə avadanlığının çatışmaması, əhalinin savadsızlığı ucbatından tirajı 100-150-dən artıq olmayan qəzetin nəşri tez-tez dayandırılırdı.

1921-ci ilin dekabr ayından qəzet həftədə bir dəfə olmaqla daha geniş həcmdə "Füqəra səsi" ilə əvəz olunur. "Füqəra səsi" "Cavanlar həyatı" qəzetinin inqilabi ənənələrini davam etdirərək dil və üslub xüsusiyyətlərinə, məqalələrinin keyfiyyətinə görə daha təkmil nəşr olunurdu. 1922-ci ilin yanvar ayında Azərbaycanda lazımi qədər mətbəə ləvazimatı alındıqdan sonra "Füqəra səsi" öz mövqeyini "Şərq qapısı"na vermişdir.

Qəzetin mətbəə və avadanlıq məsələsi 1922-ci il dekabr ayının 9-da Naxçıvan Xalq Komissarları Sovetinin iclasında müzakirə olunur və müvafiq qərar qəbul edilir. 1923-cü ildə Naxçıvan hökumətinin Şuralaşması günü munasibətilə Ölkə Firqə Komitəsinin məsul katibi Tahirovun təşəbbüsü ilə yenidən "Şərq qapısı" qəzetinin nəşrinə başlanılır. Arada fasilələr olsa da, bu salnamə qəzet varlığını 1923-cü ilin ortalarından bugünədək qoruyub saxlaya bilib. 1930-cu ilədək ərəb, 1930–1940-cı illərdə latın, 1940-cı ildən 2001-ci ilin iyununadək kiril əlifbası ilə çap olunub. Həmin dövrdən indiyədək isə latın əlifbası ilə nəşr edilir.

Qəzetin ilk redaktoru, Naxçıvan Xalq Maarif Komissarı vəzifəsində işləyən Həmid Mahmudov olmuşdur. Ümumiyyətlə, qəzetin 100 illik tarixində ona rəhbərlik etmiş digər redaktorları da ehtiramla anılırlar.

İkinci Dünya müharibəsi dövründə "Şərq qapısı" cəbhə ilə xalq arasında körpü yaradan mətbuat orqanı kimi regionda hər evin qapısını açmış, döyüş səngərlərinə belə gedib çata bilmişdir. Müharibədən sonra mətbuatda əvvəlki illərlə müqayisədə dönüş nöqtəsi yaranmışdır. Quruculuq dövrü mətbuatın inkişafını stimullaşdırmışdır. Həmin dövrdə "Şərq qapısı" xalq təsərrüfatının ayrı-ayrı sahələrindən və ədəbi mühitdən nümunələr vermişdir. Redaksiyanın əsas heyətini fəhlə-kəndli müxbirlər təşkil etsə də, qəzet öz səviyyəsini və operativliyini qoruyub saxlaya bilmişdir.

"Şərq qapısı" qəzetinin həyatında da 1970-ci ildən sonra yeni mərhələ başlanmışdır. Bu dövrdə respublikamızın hər bir bölgəsi kimi, Naxçıvanda da mətbuata xüsusi diqqət yetirilmişdir. Burada böyük redaksiya-nəşriyyat kompleksi inşa olunmuş, "Şərq qapısı"nın gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Bu dövrdə qəzet muxtar respublikanın ictimai-siyasi, sosial həyatının işıqlandırılmasında, qabaqcıl, yaradıcı və ziyalı adamların portretlərinin yaradılmasında, uğurların tərənnümündə mühüm rol oynamış, millilik prioritetləri önə çəkilmiş, dil, ədəbiyyat, mədəniyyət və tarixə həsr olunmuş, azərbaycançılıq ideologiyasına xidmət edən yazılar da dərc olunmuşdur.

Azərbaycan KP MK-nın 25 sentyabr 1979-cu il tarixli qərarı ilə qəzetə "Sovet Naxçıvanı" adı verilir. Daha sonra yerli qəzetlərin rus dilində dublikatı çıxmağa başlayır. Adı dəyişdirilsə də, qəzeti böyük ənənəyə malik olan "Şərq qapısı"nın yolunu davam etdirir, varislik ənənələrini qoruyub saxlayır. 1989-cu ilin oktyabrın 24-dən əvvəlki tarixi adı – "Şərq qapısı" özünə qaytarılır.

1988-ci ildən Azərbaycanda baş qaldıran azadlıq hərəkatı 1990-cı ilin yanvarında özünün apogeyinə çatdı. Sovet qoşun birləşmələrinin Bakıda törətdiyi qanlı yanvar hadisələri zamanı və sonra hədəfə alınan Naxçıvanın qeyrətli oğullarının canlarını düşmən qarşısında sipər edib ermənilərin yurdumuzu işğalının qarşısını almaları həmin dövrdə blokada şəraitində yaşayan bu kiçik torpağı həm də azadlıq mübarizəsinin mərkəzlərindən birinə çevirdi.

Zülmə və əsarətə, haqsızlığa dözüm səbri tükənən xalqın tələbi ilə Naxçıvan MR Ali Soveti 1990-cı il yanvarın 20-də Naxçıvanın SSRİ tərkibindən çıxması haqqında bəyanat verdi. Bəyanat Naxçıvan televiziyası, eləcə də rabitə işçilərinin yaratdığı imkan vasitəsilə radio ilə orta dalğada 5 dildə dünya ictimaiyyətinə çatdırıldı. Xaosun yaratdığı imkandan faydalanaraq hadisələri obyektiv xalqa çatdırmaq istəyində olan Naxçıvan ziyalıları "Şərq qapısı"nı müstəqil nəşr etdirmək qərarına gəldilər. Qarışıq siyasi vəziyyətdə dövlətin əsas mətbu orqanı sayılan qəzetin məmur rəhbərləri bunu göstəriş olmadan etməyin mümkünsüz olduğunu bildirdilər. Lakin azad yaşamağa can atan bir qrup qələm sahibi bu məsuliyyətli yükü öz çiyinlərində daşımağa hazır oldu.



"Birlik və demokratiya uğrunda" şüarını əsas görürən "Şərq qapısı" qəzeti 1990-cı ilin 19 yanvarından 10 min tirajla oxuculara təqdim olundu. Ən maraqlısı isə odur ki, ömrü çox qısa olmasına baxmayaraq, böyük rezonans doğuran ilk müstəqil mətbu orqan 70 il susmağa məcbur edilən xalqın əsl tribunasına çevrildi.

Daha sonra cərəyan edən siyasi hadisələr nəinki mətbu orqanın nəşrini dayandırdı, eyni zamanda Naxçıvan Respublikasının da qısamüddətli müstəqillik mövcudiyyatına son qoydu. Ta ki, 1990-cı ilin iyulunda dahi öndər Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışınadək.

Çox keçmədən, elə Naxçıvan MR Ali Məclisinin Sədri işləyən Heydər Əliyevin rəhbərlik etdiyi sessiyada 20 yanvar hadisələrinə hüquqi-siyasi qiymət verildi, üçrəngli bayrağımız yenidən qaldırıldı, müstəqil yaşamaq istəyən xalqın arzuları, ümidləri reallaşdı. Ulu öndər Azərbaycana tarixi qayıdışında Naxçıvanı seçdiyi bir dövrdə, muxtar respublikanın blokadada olmasına baxmayaraq, bütün dünyanın nəzərlərini mətbuatın gücü ilə Naxçıvana yönəltməyə nail oldu. 1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri möhtərəm Heydər Əliyevin şəxsiyyəti və fəaliyyəti ətrafında Azərbaycan Respublikasına o zaman rəhbərlik etmiş şəxslərin yaratdıqları sərt informasiya blokadasının yarılmasında "Şərq qapısı" qəzeti xüsusi rol oynadı...

1995-ci ilin axırlarında Azərbaycan Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən parlament seçkilərindən sonra muxtar respublika ali qanunverici orqanının yeni tərkibdə fəaliyyətə başlaması durğunluğa, ətalətə son qoymuş, yeni həyat quruculuğu sahəsində geniş imkanlar açmışdır. Bunun sayəsində qəzetin fəaliyyətində də canlanma yaranmış, onun üzləşdiyi maliyyə problemləri birdəfəlik həllini taparaq həftədə 2 dəfə çıxmağa başlamışdır.

Müstəqillik dövründə "Şərq qapısı" qəzetinin ilk yubileyi 1996-cı ilin dekabr ayında keçirilmişdir. Ümummilli lideri Heydər Əliyev qəzetin 75 illik yubileyi ilə əlaqədar redaksiyaya təbrik məktubu ünvanlamışdır. Ölkə başçısının onun həyat və fəaliyyətində mühüm rol oynamış doğma qəzetə təbrik məktubunda deyilirdi: "Azərbaycan müstəqillik əldə etdikdən sonra "Şərq qapısı" qəzetinin kollektivi öz fəaliyyətində canlı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur. Əminəm ki, "Şərq qapısı" qəzeti Azərbaycanın azad və demokratik mətbuat sistemində layiqli yer tutaraq dövlətçiliyimizin möhkəmlənməsi yolunda bütün qüvvələri səfərbər etmək, hər oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaq üçün var gücünü sərf edəcəkdir".

Müstəqillik illərində "Sərq qapısı" qəzetinin maddi-texniki bazası gücləndirilmiş, ən son texniki avadanlqlarla zəngin mətbəəsi və redaksiya binası tikilib istifadəyə verilmişdir. 2012-ci ildən qəzetin internet saytı fəaliyyətə başlamış, qəzetin 94-cü və 95-ci ildönümləri münasibətilə Amerika Birləşmiş Ştatlarının Milvauki vilayətində hökumət bəyannaməsi qəbul edilmişdir.

Əminik ki, Azərbaycan mətbuat tarixində xüsusi yeri olan, 104 illik sərəfli yol keçən "Şərq qapısı" qəzeti bundan sonra da dövlətçilik, maarifçilik, inkişaf və tərəqqinin simvolu, Naxçıvan tarixinin güzgüsü olaraq qalacaq, yaşayacaq, yaşadacaqdır. Xalq rəssamı Tahir Salahovun dediyi kimi: "Qoy, "Şərq qapısı"nın fəaliyyəti rəssam palitrası kimi əlvan boyalarla, şair ilhamlı nadir sözlərlə, bəstəkar royalı kimi nikbin və coşqun nəğmələrlə zəngin olsun".

*Surə SEYİD,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

İzimiz, tariximiz...

# Səfəvi xanım şahzadənin oğlu – Baburi şahı Övrəngzib

**V YAZI**

“Mən bu dünyaya tək gəldim, tək gedirəm, kim olduğumu, nə etdiyimi bilmədim, boş keçirdiyim günlər yalnız peşmançılıqla qaldı. Nə hökumət yaratdım, nə də rəiyyətin himayəsini təmin etdim, bu qədər dəyərli bir ömür hədər getdi”.

Böyük Moğol imperatoru (Baburilər dövləti) Övrəngzib (Aləmgir) ölüm ayağında oğlanlarına məktubunda belə yazmışdı, ancaq həqiqətənmi o, hökmdarlığı dövründə heç nə etməmişdi.

1658-ci il iyulun 31-dən 1707-ci il martın 3-dək Böyük Moğol İmperiyasının hökmdarı olan Övrəngzibin şahlığı dövründə onun apardığı müharibələr nəticəsində dövlətin sərhədləri xeyli genişlənib, Hindistan yarımadasının cənubunda yerləşən kiçik bölgədən başqa bütün yarımada


Övrəngzibin imzası

Böyük Moğol İmperiyasının sərhədlərinə daxil edilib. Hindistanı demək olar ki, tamamilə Türk dövlətinə çevrilib. İmperiyada fars və indus dilləri üstünlük təşkil etsə də Övrəngzib türk dilinin və ədəbiyyatının inkişafına dəstək verib, onun hakimiyyəti dövründə türk (Çağatay) lüğətləri tərtib olunub, ulu babası Əmir Teymurun məqbərəsinin bərpası üçün xəzinədən vəsait ayırıb.

Övrəngzibin əmri ilə 1667–1675-ci illərdə bir qrup alim tərəfindən hənəfi məzhəbinə uyğun olaraq “Fətava-i-Aləmgiri” adlı çoxcildlik hüquqi hökmlər (fətvalar) toplusu tərtib edilib. Müəlliflər komandasına Burhanpurlu Şeyx Nizam başçılıq edib, Şeyx Vacihəddin, Şeyx Cəlaləddin Məhəmməd, Qadi Məhəmməd Hüseyn və Molla Həmid onun yardımçıları olub. Dörd köməkçinin hər biri on müəllifdən ibarət qrupa rəhbərlik edib. Fətvaların tərtibinə xəzinədən 200 min rupi xərclənib. O dövrdə Övrəngzibin fətvaları müsəlmanlar üçün bələdçi olaraq Hindistanda və İslam dünyasının digər yerlərində sürətlə yayılıb. Sadiq müsəlman olan Övrəngzib Baburilər dövlətində çoxsaylı məscidlərin tikilməsi və ərəb xəttatlığının himayədarı kimi də tanınıb.

Türk və müsəlman dövlətləri ilə yaxşı münasibətlər qurub, imperatorluqda vergilər nəzərə çarpacaq dərəcədə azaldılıb, dövlətdə nizam-intizam və əmin-amanlıq, ədalət təmin olunub. Yəmən imamına, Həbəşistan hökmdarına gümüş və qızıl pulla kömək göstərib.

Baburilər dövlətinin sabit yaşaması və xəzinəyə pul daxil olması naminə ingilislərə və hollandlara Qucarat limanlarında bir sıra imtiyaz verib.

Sadalanan və sadalanmayan çoxsaylı xeyirxah işlər görmüşdü Sultan Övrəngzib...

## Övrəngzib atası Cahan şahı taxtdan salır

O da var ki, Sultan Övrəngzib hakimiyyətə gəlməsi naminə atası Cahan şahı Dehlidəki “Qırmızı Qala” adlı həbsxanaya saldıran qəddar hökmdar kimi də tarixə düşüb. Cahan şah ömrünün ixtiyar çağını xatirələrin girdabında həbsdə keçirib və “Qırmızı Qala”nın kiçik pəncərəsindən görünən, zamanında Övrəngzibin anası, Cahan şahın sevimli arvadının xatirəsinə tikdirdiyi Tac Mahalı izləməklə təskinlik tapıb, Mümtaz Mahalla keçirdiyi xoşbəxt günlərini, övladlarının hər birinin uşaqlıq dövrünü, oğlu Övrəngzibin bu addımı atmasının səbəbini, onun tərbiyəsində hansı qüsura yol verdiyini, həbsxanaya nədən salınmasını bilməyə-bəlməyə dağı arana, aranı dağa daşıyaraq ölüm gününü gözləyib.

Cahan şah həbsxanada dünyasını dəyişdikdən sonra Tac Mahalda, həyat yoldaşı Mümtaz Mahalın yanında dəfn olunub.

Sultan Övrəngzib hakimiyyətinin ilk günlərindən hakimiyyətə iddialı olan rəqiblərini müxtəlif bəhanələrlə öldürtdürüb və hakimiyyətini möhkəmləndirib. Övrəngzib bölgələrdə hakim olan, taxt-tac uğrunda mübarizəyə qalxan qardaşlarını və onların övladlarını da aradan götürüb.

Beləliklə Sultan Övrəngzib 1658-ci il iyulun 31-də Böyük Moğol İmperiyasının (Baburilər dövləti) taxtına çıxıb.

Övrəngzibin hakimiyyətdə olduğu 48 il imperiyanın müstəqil və qismən sabit keçən dövrü hesab olunur.

Əbül Müzəffər Məhiyəddin Məhəmməd Övrəngzib (Taxtın bəzəyi) və ya Aləmgir şah (Kainatın fatehi), 1618-ci il noyabrın 4-də Böyük Moğol İmperiyasının Dahod şəhərində Cahan şah və Səfəvi şahzadəsi Mümtaz Mahalın ailəsində dünyaya gəlib, onların üçüncü övladı olub. Mümtaz Mahal Böyük Moğol İmperiyasının imperatoru Cahangir şahın vəziri, Səfəvilər sülaləsindən olan Əbülhəsən Asəf xanın qızı idi.

Şahzadə Övrəngzib döyüş, hərbi strategiya və idarəetmə istiqamətində yaxşı təhsil alıb. Onun tədris proqramına islamşünaslıq, türk və fars ədəbiyyatı kimi sahələr


17-ci əsrdə Övrəngzib Lahorda tikdirdiyi Padşah məscidi

də daxil idi. O, cığatay türkcəsini, indus dilini də mükəmməl bilib. Bununla belə sələfləri kimi fars dilindən istifadə etməyə üstünlük verib.

Sultan Övrəngzib sələflərinə nisbətən daha sərt xarakterə malik hökmdar olub.

Sultan Övrəngzib qatı dindar idi, Quranı tam olaraq əzbər bilirdi, hədisləri öyrənir və İslamın ayinlərinə ciddi riayət edirdi. İslam xəttatlığı əsərlərini himayə edib, Quran nüsxələrini köçürməsi ilə də tanınıb. Xəttat Seyid Əli Təbrizidən xəttatlıq dərsləri də alıb və istedadlı xəttat kimi də tanınıb.

Övrəngzib hakimiyyəti dövründə atası qədər memarlıq abidələri tikməyib. Bununla belə onun inşa etdirdiyi bir neçə yaddaqalan abidə günümüzə qədər qalıb. Sultan öz şəxsi istifadəsi üçün Dehlidəki “Qırmızı Qala” kompleksində mərmərdən Moti Məscidi (İnci məscidi) tikdirib.

Daha sonra o, Lahorda bu gün Hindistan yarımadasında ən böyük məscidlərdən biri olan Padşah Məscidini inşa edib. Onun Şrinaqarda tikdirdiyi məscid hələ də Kəşmirdə ən böyük tarixi abidələrdən sayılır.

Sultan Övrəngzib öz adına inşa etdirdiyi Övrəngabadda Diras Banu Bəyimin şərəfinə Bibi Ka məqbərəsinin tikintisinə əmr verib və oğlu Əzəm şah tikintini başa çatdırıb. (Diras Banu Bəyim haqqında ayrı material veriləcək). Bibi Ka və ya Rabia-ud-Daurani məqbərəsi Övrəngzibin sevimli arvadının şərəfinə inşa olunan məşhur abidə kimi tarixə düşüb. İndi də hər gün yüzlərlə turist bu abidəni ziyarət edir və abidə məşhur Tac Mahalın heyrətamiz dərəcədə bənzəridir.

* * *

1633-cü ildə Sultan Övrəngzibin 15 yaşı olanda bir döyüş fili Moğol düşərgəsindən qaçır. Övrəngzib atlanıb filin başını bir nizə ilə vurur, sonra atdan yıxılır, lakin ölümdən xilas olur. İgidliyinə görə Övrəngzibin atası ona Bahadur (igid) titulu və hədiyyələr verir, ehtiyatsızlığına görə məzəmmət edir. Onun fillə döyüşdə göstərdiyi şücaət fars və urdu poeziyasında öz əksini tapıb.

Şahzadə Övrəngzib atası Cahan şahın dövründə inzibati və hərbi vəzifələrdə çalışıb və təcrübəli hərbi komandir kimi tanınıb.



Övrəngzibin adı olan sikkə

Sülalənin böyük sərvətə malik olmasına, zəngin ailədə böyüməsinə baxmayaraq Sultan Övrəngzib təvazökar və gözütox adam kimi ad çıxarıb.

## Şahzadə Övrəngzib region hakimi təyin olunur

1634-cü ilin dekabrında Cahan şah Övrəngzibi on min atlı və dörd min əsgərlə ilk vəzifəsinə təyin edir və ona qırmızı çadırın kral imtiyazından istifadə etməyə icazə verilir.

1636-cı ildə atası Cahan şah Övrəngzibi Dekan hakimi təyin edir. O dövrdə Xandeş, Berar, Telangan və Dövlətabad , Dekanın Moğol əyalətləri 64 qala ilə Övrəngzibin nəzarəti altında idi, digər on qala isə hələ fəth olunmamışdı və bu istiqamətdə hazırlıqlar aparılırdı.

Övrəngzib 1636-1644 və 1652-1657-ci illərdə Dekanın, 1645-1647-ci illərdə Qucaratın, 1647-ci ildə Bəlx və Bədəxşanın, 1648-1652-ci illərdə Multanın hakimi olub.

## Övrəngzib özünü imperator elan edir

1657-ci ilin sentyabrında Övrəngzibinn atası Cahan şah xəstələnir və böyük oğlu Dara Şikohu öz varisi elan edir. Bu, Övrəngzibin xoşuna gəlmir, qardaşı Dara Şikohla müharibəyə hazırlaşır və 1658-ci ilin aprelində onun ordusunu məğlub edir.

Övrəngzib 1658-ci ilin fevral ayında, 24 yaşında özünü imperator elan edir,may ayında Samuqarh döyüşündəki qəti qələbəsi onun suverenliyini daha da möhkəmləndirir və Övrəngzibin hökmdarlığı bütün imperiyada tanıyır.

Cahan şah 1658-ci ilin iyulunda xəstəlikdən sağaldıqdan sonra Övrəngzib atasının özünü idarə etmək qabiliyyətində olmadığını elan edir və Cahan şahı Aqra


Övrəngzib Quran oxuyarkən

qalasına atır. Həmin il avqustun 22-də Cahan şah 74 yaşında həbsxanada dünyasını dəyişir.

1686-1687-ci illərdə Övrəngzib almazla zəngin olan Bicapur və Qolkondanı fəth edir.

Övrəngzibin dövründə Moğol ordusu getdikcə təkmilləşir və dünyanın ən güclü ordularından birinə çevrilir.

1689-cu ilə qədər Baburilərin Qolkondanın fəthi və cənubdakı zəfərləri İmperiyanın ərazisini 4 milyon kvadrat kilometrə qədər genişləndirir, o dövrdə imperiya əhalisinin sayı 158 milyondan çox idi. Övrəngzib həyatının son iyirmi altı ilini Dekan fəthinə həsr etmişdi. Bu, müharibənin son on ilində ildə təxminən yüz min insanın həyatı bahasına başa gəlmişdi. Təkcə Övrəngzibin səyyar paytaxtı, ətrafda otuz mil uzunluğunda çadır şəhəriciyi, yarım milyon əsgər və zabit, əlli min dəvə və otuz min fili qidalandırmaq lazım idi və bu məsrəf imperiyanı taxıl və sərvətdən məhrum etmişdi...

## Səfəvilər sülaləsi ilə əlaqələr

Səfəvi və Baburilər apasında Qəndəharla bağlı münaqişə və hətta müharibələr olub. Şəhər strateji mövqedə yerləşdiyindən dəfələrlə əldən-ələ keçib. Övrəngzib 1649 və 1652-ci illərdə Qəndəharı geri almaq üçün iki uğursuz yürüşə rəhbərlik edib. Daxili çəkişmələrlə bağlı Moğolların 1653-cü ildən sonra Qəndəhara hücumlarını dayandırıb.

Övrəngzib taxta çıxdıqdan sonra hakimiyyətinin legitimliyini gücləndirmək üçün Səfəvilərdən diplomatik tanınma istəyib. II Şah Abbas 1661-ci ildə Baburilər İmperiyasına səfir göndərib. Övrəngzib səfiri səmimiyyətlə qəbul edib və II Şah Abbasın hədiyyələrini qəbul etdikdən sonra özü də II Şah Abbasa hədiyyələr göndərib.

Qəndəhar ətrafında gərginlik yenidən artdığından Övrəngzibin 1664-cü ildə Səfəvilərə göndərdiyi səfir isti qarşılanmır. 1666-cı ildə II Şah Abbasın ölümündən sonra münasibətlər yaxşılaşır. Övrəngzibin üsyankar oğlu şahzadə Əkbər Səfəvilərə-I Süleymana sığınır.

## Övrəngzibin vergi və gömrük siyasəti tənqid edilir

Övrəngzib xəzinədarlığının Hindistan yarımadasının 24 əyalətdən vergilər, gömrük rüsumları və torpaq gəlirləri və s. kimi müxtəlif mənbələrdən illik gəliri indiki pulla 450 milyon dollardan çox idi. O bu sərvətdən Hindistanda, xüsusən də Karnatik, Dekan, Benqal və Lahorda bazalar və istehkamlar qurmaq üçün istifadə edib.

1679-cu ildə Övrəngzib yüz il müddətinə azaldılan hərbi xidmət əvəzinə qeyri-müsəlmanlara hərbi vergini-cizyəni yenidən tətbiq etmək qərarına gəlir, bu addım bir çox indus hökmdarları, Övrəngzibin ailə üzvləri və Moğol məmurları tərəfindən tənqid edilir.

Onun göstərişi ilə vergi yığan məmurlar müsəlman olmalı idi. Övrəngzib müsəlman tacirlər üçün 2,5%, indus tacirlər üçün 5% ilə vergi yükü tətbiq edib ki, bu da xeyli narazılığa səbəb olub. Qeyri müsəlmanların vergi ödəyərkən Qurandan ayə oxumaları tələbi də induslar arasında iğtişaşlara gətirib çıxarıb, yerli məmurlar etiraza qalxıb. Xəzinəni doldurmaq üçün Övrəngzib torpaq vergisini də qaldırıb.

Övrəngzib səbəbi bilinmədən indus məbədlərinin dağıdılmasını, yeni məbədlərin tikilməsininin dayandırılmasını əmr edib, bu addım da induslar arasında narazılıq yaradıb.

Bundan sonra imperiya nisbətən zəifləməyə başlayıb, Övrəngzibin başı vaxtaşırı üsyanları yatırmağa, Dekandakı hücumları dəf etməyə və əhəmiyyətsiz Maratha dağ qalalarını mühasirəyə almağa qarışıb. Bundan əvvəlki hökmdarların xəzinəyə topladığı sərvət imperiyanın kövrək sabitliyini qorumaq üçün xərclənib.

Ölkədə ingilislər və hollandların mövqeyi getdikcə güclənməyə, imperiyanın ticarəti getdikcə avropalıların əlinə keçməyə başlayıb.

## Sultan Övrəngzibin hakimiyyəti zəifləyir

1680-ci ildən sonra İslamı silah gücünə yayan Övrəngzibin hakimiyyətinin sonlarına yaxın ayrı-ayrı əyalətlərdə üsyanlar başlayır. Buna səbəb həm də Övrəngzibin repressiv siyasəti idi. 1681-ci ilin yanvar ayında hökmdarın dördüncü və sevimli oğlu, 1680-ci ildən Rajputanda orduya komandanlıq edən Şahzadə Sultan Məhəmməd Əkbər atasına qarşı üsyan qaldırır. Üsyan Rajput liderləri tərəfindən dəstəklənir, bununla belə, üsyan tezliklə yatırılır və Şahzadə Məhəmməd Əkbər Sambhaci marathalarına sığınır.

Övrəngzib bütün təbəələrinə təsir edən 80-dən çox vergi növünü ləğv edir. Rajput və Maratha məmurları, brahmanlar, qadınlar, uşaqlar, qocalar, əlillər, işsizlər, xəstələr və dəlilər daimi olaraq vergidən azad edilirlər.

## Övrəngzib 88 yaşında vəfat edir

Övrəngzib 1707-ci imartın 3-də Əhmədnaqar yaxınlığındakı Bhingardakı hərbi düşərgədə 88 yaşında vəfat edərkən övladlarından çoxu artıq dünyasını dəyişmişdi. O, dəfninin sadə olmaslını vəsiyyət etmişdi, odur ki, Övrəngzib Övrəngabad şəhəri yaxınlığında Xuldabad adlanan yerdə açıq səma altında torpağa tapşırılır.

Mənbələrin məlumatına görə ölərkən onun cəmi 300 rupisi olub, vəsiyyətinə uyğun olaraq bu vəsait xeyriyyə işlərinə sərf edilib. Övrəngzib üçüncü oğlu Əzəm şahı varis elan etmişdi. Bununla belə Övrəngzibin ikinci oğlu Birinci Bahadur şahın ordusu 1707-ci ilin iyun ayında Əzəm şahın tərəfdarlarını Cacau döyüşündə məğlub edir, qardaşını öldürtdürür və taxta çıxır. Birinci Bahadur şah zəif hökmdar olduğundan imperiyanın torpaqları yavaş-yavaş itirilir.

## Övrəngzibin xanımları və övladları...

Sultan Övrəngzibin üç arvadı və azı dörd cariyədən altı oğlu və altı qızı olub, onlardan bəziləri uşaq vaxtı dünyasını dəyişib.

• Diras Banu Bəyim, Səfəvi şahzadəsi, Şahzadə Mirzə Bədiuzzaman Səfəvinin qızı, Övrəngzibin birinci arvadı.

• Nəvvab Bai, Övrəngzibin ikinci arvadı, Raca Tacuddin Xanın qızı.

• Övrəngabadi Mahal, Övrəngzibin ilk cariyəsi.

• Udaipuri Mahal, Övrəngzibin ikinci cariyəsi. O, hərəmxanaya gəlməzdən əvvəl


Şahzadə Övrəngzib soldan birinci – qardaşları Dara Şikox və Şah Şuca – atası Şah Cahan və ana babası Əbülhəsən Asəf xan

rəqqasə olub.

Oğlanları

• Nəvvab Baidən Şahzadə Mirzə Məhəmməd Sultan (30 dekabr 1639 – 14 dekabr 1676). Atası tərəfindən həbs edilib.

•Nəvvab Baidən I Bahadur şah (14 oktyabr 1643 – 27 fevral 1712). Moğol İmperatoru, kiçik qardaşını devirmək üçün plan quran hökmdar.

•Diras Banu Bəyimdən Məhəmməd Əzəm şah (28 iyun 1653 – 20 iyun 1707). Böyük ögey qardaşı tərəfindən vəzifədən uzaqlaşdırılıb.

•Diras Banu Bəyimdən Şahzadə Mirzə Məhəmməd Əkbər (11 sentyabr 1657 – 31 mart 1706). Səfəvi imperiyasına sürgün edilib.

•Udaipuri Mahaldan Şahzadə Mirzə Məhəmməd Kam Baxş (7 mart 1667 – 14 yanvar 1709). Bijapur hökmdarı.

Qızları

•Diras Banu Bəyimdən Şahzadə Zebunnisə (15 fevral 1638 – 26 may 1702). Şairə idi, atası tərəfindən həbs olunmuşdu, evlənməyib və övladı olmayıb.

•Diras Banu Bəyimdən Şahzadə Zinətunnisə Bəyim (5 oktyabr 1643 – 7 may 1721). O, Moğol İmperatriçası (Padşah Begum) olub.

• Nəvvab Baidən Şahzadə Bədrunnisə Bəyim (17 noyabr 1647 – 9 aprel 1670). Evli olmayıb.

•Diras Banu Bəyimdən Şahzadə Zübdətunnisə Bəyim (2 sentyabr 1651 – 17 fevral 1707). Evlənib, bir oğlu olub.

•Övrəngabadi Mahaldan Şahzadə Mihrunnisə Bəyim (28 sentyabr 1661 – 2 aprel 1706). Bir dəfə evlənib, 2 oğlu olub.

**Sultan Övrəngzib ədəbiyyatda:**

• 1675-ci ildə Con Drydenin imperatorun sağlığında yazdığı Övrəngzibin həyatı ilə bağlı London səhnəsində oynanılan dram əsəri.

• 1688-ci ildə “Aləmgirnamə” əsəri Övrəngzibin sarayında yaşayan rəsmi bioqraf Mirzə Məhəmməd Qasim tərəfindən yazılan məşhur əsər.

• 19?? – Övrəngzibin 48 illik şahlığı haqqında Açari Çatursen Şastrinin indus dilində romanı.

• 1970-ci ildə Sultan Övrəngzibin həyatı haqqında N. S. İnamdar tərəfindən yazılan “Şahənşah” əsəri, 2017-ci ildə Vikrant Pande tərəfindən ingilis dilinə “Şahenşah” kimi tərcümə edilib.

• 2017-ci ildə Erik Flint və Qriffin Bərbərin “1636: Moğolların missiyası” əsəri

• 2018-ci ildə Audrey Truşkenin yazdığı “Övrəngzib: İnsan və mif”əsəri

Son olaraq onu da deyək ki, 2015-ci ilin məlumatına görə hazırda Hindistanda təxminən 177 şəhər və kənd imperator Övrəngzibin adını daşıyır.

Beləliklə 48 il Böyük Moğol İmperiyasının (Baburilər dövləti) taxtında oturan, Hindistan yarımadasının cənubundakı kiçik bölgədən başqa bütün yarımadanı Türk dövləti edən imperator Övrəngzib 88 yaşında həbsxaana divarları arasında dünyasını dəyişib.

*Qulu KƏNGƏRLİ*

**Daşkənd**

# Milli maraqlara bağlı insan

**Ömrüm boyu böyük ziyalı, xalqın sevdiyi insan, görkəmli dövlət xadimi, diplomat... kimi tanıdığım Həsən Həsənov haqqında bu yazını yazmağa başlamamışdan əvvəl bir neçə gün əlimə qələm almağa cəsarət etmədim. Çox düşündüm. Azərbaycanda hamının tanıdığı şəxsiyyət haqqında mən nə yazım ki, ona layiq olsun. Doğrusunu deyim ki, yazı-pozu ilə məşğul olduğum 55 il müddətində belə çətinliyə düşməmişdim. Axı, xalqın tanıdığı insanı xalqa necə təqdim edim?**



Vikipediyaya baxdım, tərcümeyi-halını bir daha "vərəqlədim", "yaxşı bunlar da hər adam üçün əlçatandır, mən nədən başlayım?" – deyə çətinlikdən çıxmağa çalışdım. Bəlkə, hansı dövlət işlərində çalışdığından, keçdiyi şərəfli həyat yolundan bəhs edim?

1995-ci ildə 1-ci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçiləndə Həsən müəllim də millət vəkili seçilmişdi. O, həm də Azərbaycan Respublikasının Xarici İşlər naziri idi. Beləliklə, ilk yaxın tanışlığımız Milli Məclisdə oldu. Mənimlə elə görüşdü ki, sanki, çoxdan tanıdığı insanla görüşürdü. Çox səmimi, gülərüz insan kimi gördüm onu. İki il, həftədə iki dəfə Milli Məclisin iclaslarında görüşürdük...

Sonra mən Türkiyə Cümhuriyyətinin İstanbul şəhərinə Azərbaycan Respublikasının baş konsulu vəzifəsinə təyin olundum. Beləliklə, Həsən müəllim "mənim nazirim" oldu. Onunla görüşəndə müəyyən fikirlərimi söyləyirdim, səhv danışanda özünəməxsus şirin gülüşlə "Yox, elə deyil" – deyə düzəliş verirdi. Həsən müəllimdən heç vaxt irad eşitmədim, özümdən böyük kimi (10 yaş fərqimiz var) ondan daim nə isə öyrənməyə çalışırdım. Öyrəndiklərim diplomatik işimdə mənə çox kömək edirdi.

...Baş konsul kimi 10-15 gün idi ki vəzifəmin icrasına başlamışdım. Bizə xəbər verdilər ki, Azərbaycanın gəmisini borca görə bir neçə gündür ki, Mərmərə dənizində saxlayıblar. Gəmi heyətinin də bütün ərzağı qurtarıb. Dözülməz vəziyyət yaranıb. Konsulluğun bir əməkdaşı ilə dənizin ortasında saxlanılan gəmiyə getdik. Orada türk polisləri və Azərbaycan gəmi heyətinin qarşısında çıxış etdik. Dost, qardaş xalqlar olduğumuzu bir daha xatırlatdıq. Sonra masa başında birlikdə çay içdik. Türk polisləri əlaqəli təşkilatların rəhbərləri ilə danışdılar. Gəmini buraxmaq haqqında qərar qəbul edildi. Həmin gün gecə saat 2-də nazir Həsən müəllim mənə zəng edib, şifahi təşəkkürünü bildirdi. Baş verən əhvalat AzərTAC vasitəsilə yayımlandı...

Elə həmin ərəfələrdə bir gün konsulluqda yenicə işə başlamışdıq ki, dedilər Azərbaycan Xalq Cəbhəsi Partiyasının İstanbul universitetlərində oxuyan 30 tələbəsi konsulluğun qarşısında mitinq keçirmək üçün gəlib. Doğrusu, mən həmişə mitinqlərin əleyhinə olmuşam. Odur ki, heç nə fikirləşmədən əməkdaşlarımıza dedim ki, gedin, onların başçısını yanıma dəvət edin. Başçı gəldi. Soruşdum: "Nə istəyirsiniz?" Cavab verdi ki, biz istəyirik, Heydər Əliyev hakimiyyətdən getsin. Dedim, a bala, məni bura Heydər Əliyev göndərib! Onunla xeyli tərbiyəvi söhbət apardıqdan sonra başının dəstəsini də götürüb getdi. İndi yadıma düşür ki, 11 gün idi işə başlamışdım... Yenə həmin gün Həsən müəllim zəng vurub təşəkkür etdi. Bir daha hiss etdim ki, mən nazir tərəfindən diqqət və qayğı ilə əhatə olunmuşam.

Həsən Həsənov işlədiyi bütün dövlət vəzifələrində həmişə şərəflə çalışıb və xalqımız üçün böyük işlər görüb. 1990-cı il yanvar faciəsi ilə bağlı SSRİ rəhbərliyinə məktubunda bildirirdi: "Xalqın qanı töküldü, amma o qan bu torpağın azadlığı üçün töküldü! Azərbaycanın səbrini sınağa çəkmək xalqı daha da birləşdirdi".

Qeyd etmək lazımdır ki, 1992–1993-cü illərdə BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi kimi Dağlıq Qarabağ konfliktinə dair 4 qətnamənin qəbuluna nail olması Həsən Həsənovun xarici siyasətdə əhəmiyyətli rolunu göstərir. Müstəqil Azərbaycanın ilk Diplomatik pasport sisteminin əsasını Həsən Həsənov qoyub. "Azərbaycan diplomatiyası tarixi" kitabını yazıb.

Heç demə, Həsən müəllimin gözəl qələmi də varmış, o, dərin mənalı əsərlər də yazırmış. Bir gün gördüm ki, Akademik Milli Dram Teatrının qarşısında "Brüsseldən məktublar" tamaşasının afişası asılıb. Afişada müəllif kimi Həsən Həsənovun ad-soyadının yazıldığını görəndə təəccübləndim: Görəsən, Xarici İşlər naziri Həsən Həsənovdur? Tamaşaya baxdım, çox təsirləndim. Səhv etmirəmsə, tamaşa haqqında mətbuatda resenziya da yazdım. Həsən müəllim yaddaşlardan silinməyəcək bir pyes yazmışdı, ona görə tamaşa da anşlaqla keçdi. O zaman öz-özümə fikirləşirdim: Həsən müəllimlə məni birləşdirən, doğma edən bəlkə də onun yaradıcılığı, qiymətli əsərlər yazmasıdır. Necə deyərlər, "ürəkdən-ürəyə yollar görünür"...

Bu yaxınlarda Həsən müəllimin türklərin tarixi, ənənələri, həyat tərzləri ilə bağlı bir yazısını maraqla oxudum. Bəli, Həsən müəllim həm də tarixçi alimdir. Çoxlu tarixi araşdırmaların müəllifidir. Bütün bunlar Həsən Həsənovun hərtərəfli biliyə malik bir insan olduğunu təsdiq etmirmi?

Sonralar Həsən müəllim müxtəlif ölkələrdə səfir oldu, harada işlədisə, Azərbaycanı ləyaqətlə təmsil etdi.

Son zamanlar Həsən müəllimlə müxtəlif tədbirlərdə görüşürük, telefonla əlaqə saxlayırıq.

Bir sözlə, mən Həsən müəllimlə həmişə fəxr etmişəm, onun adı gələndə şərəf duymuşam. Həmişə də ürəyimdə fikirləşirəm: Kaş, belə adamlar çox olaydı...

*Xeyrəddin QOCA,*
*yazıçı*

# Turançılıq ideyaları müasir ədəbiyyatda

## *"Qarabağ Zəfərindən Turana doğru"*

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Kitab Evi" İctimai Birliyinin həyata keçirdiyi layihə çərçivəsində nəşr olunan "Qarabağ Zəfərindən Turana doğru" antologiyası türk xalqlarının mənəvi birliyinin sarsılmazlığını göstərən gözəl nümunədir.**



Qarabağ Zəfərindən sonra siyasi anlamda Turan konsepsiyası dediyimiz birgəlik ideyaları digər sahələrdə olduğu kimi, ədəbiyyatda da aktual mövzulardan birinə çevrilib. Bu baxımdan çağdaş şair və yazıçılar XIX əsr türk və müsəlman dünyasının nəhəng fikir adamlarından biri olmuş İsmayıl bəy Qaspıralının dediyi kimi: "Dildə, işdə, fikirdə birlik" ideyasının "çətiri" altında birgə toplusunun hazırlanması ilə bir araya gəliblər.

Doğrudur, turançılığı təkcə coğrafiya ilə əlaqələndirmək olmaz, harada türk toplumu varsa, orada bu ideya vardır. Amma kitabın Sumqayıt şəhərindəki Poeziya Evində keçirilən təqdimat mərasimində də deyildiyi kimi, Azərbaycan turançılıq ideyasına daha çox can atan və bu birliyə çalışan ölkədir. Bəlkə də bu, bir az da hazırda ölkə gündəmində olan Zəngəzur dəhlizinin açılmasına çalışmağımızla əlaqəlidir, amma ideya özlüyündə və həyati vacibliyində nəqliyyat kommunikasiyasından daha geniş anlam kəsb edir.

Mərasimdə AYB-nin Poeziya bölməsinin rəhbəri və təqdimatın keçirildiyi məkanın direktoru İbrahim İlyaslı, "Kitab Evi" İctimai Birliyinin sədri və layihə rəhbəri Adilə Nəzərova, filologiya elmləri doktoru, şair Rafiq Yusifoğlu, ünlü qələm sahibləri – AYB Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin, Yusif Nəğməkar və başqaları çıxış etdilər. Vurğulandı ki, antologiyada təkcə Qarabağ Zəfəri ilə daha da güclənən turançılıq ideyaları haqqında gəlişigözəl sözlər, fikirlər cəmlənməyib, bu əsərlərdə Azərbaycan xalqının, eləcə də türk toplumunun arzuları, ümidləri və inancları əksini tapıb. Bədii-publisistik nümunələrdə mövzu ilə bağlı xalqımızın (və digər türk xalqlarının) milli dəyərləri və qan yaddaşından gələn turançılıq ideyaları işıqlandırılır. Bu da milli ruhu yüksəldir, qardaş xalqları bir kökə bağlı mənəviyyat ideyası ətrafında daha sıx birləşməyə səsləyir.

Antologiyada Xalq şairləri Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Ramiz Rövşən, Vahid Əziz, eləcə də Ramiz Qusarçaylı, Elçin Hüseynbəyli, Timuçin Əfəndiyev, Qulu Ağsəs, Giya Paçxataşvili, Xatirə Fərəcli, Ayaz Arabaçı, Əbülfət Mədətoğlu, Nuafiz və onlarla başqalarının seçmə şeir, hekayə, esse və məqalələri toplanıb. Nəriman Həsənzadə "Zəfər yolu" lirik poemasında yazır:

**Şuşa yolu, Zəfər yolu,**
**Otuz illik səfər yolu!**
**Cənab Ali Baş Komandan,**
**Səfərdəsən sən o vaxtdan.**
**İstidə, boranda, qarda,**
**Uzaq-yaxın o yollarda!**
**Yol içindən yol seçirsən,**
**Keçilməz yollar keçirsən, –**
**Fikrin, zehnin yollarını,**
**44 günün yollarını...**

Digər müəlliflərin də yazıları eyni ruha köklənmiş duyğu və düşüncələrdən ibarətdir. Onların sırasından təqdimatda iştirak edənlər məhz bu ruhlu bədii nümunələrini səsləndirdilər.

Mərasimin bütün iştirakçılarına hədiyyə olunan "Qarabağ Zəfərindən Turana doğru" antologiyasında Azərbaycanın müasir şair və yazıçılarla yanaşı, digər türk xalqlarından olan yazarların da ədəbi nümunələri yer alır. Misal olaraq Güldərən Vəli, Serhat Kabaklı, Lilya Bucurova, Peder Xuzanqay, Servet Gürcan, Altınbek İsmayıl, Nadejda Paina, Abdukaxxor Kosim və başqalarının adlarını çəkə bilərik. Əlbəttə, antologiyaya bu imzaların da düşməsi həm türk dünyasının ədəbiyyat adamlarının ölkəmizin ictimai-siyasi həyatındakı uğurlu gedişatı sevə-sevə izlədiyini göstərir, həm də ictimai-siyasi hadisələri ədəbiyyatın aynasından izləmək imkanı yaradır. Antologiyada çap olunmuş nəzm və nəsr əsərlərində vətənpərvərlik ruhu, birlik, bərabərlik ideyaları mühüm yer tutur. Belə ki, Azərbaycan milli hərəkatının gücləndiyi bir mərhələdə romantizmin mövzu və problematikasında milli mövzu dəyişikliyi diqqəti cəlb edir.

Mərasimdə əsasən qələm adamlarının iştirakı nəzərə alınaraq, hər kəsə yeni kitabla bərabər, bir bloknot da hədiyyə edildi. Rəmzi mənada bunu "Bacardıqca böyük Turana doğru yolda qələm çalın, yeni əsərlərinizlə türk birliyi ideyasına bacardığınız qədər xidmət göstərin" mesajı kimi də mənalandırmaq olar.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Azərbaycanın ilk Xalq artisti

**Bir çox görkəmli xanəndələrimizi, məşhur musiqiçilərimizi yetirən Qarabağ torpağında milli-mənəvi irsimiz illərlə nəsildən-nəslə ötürülüb. Bu irsin təməlini qoyanlardan biri də, Azərbaycanın ilk Xalq artisti, tar ifaçısı Qurban Pirimovdur.**

Beynəlxalq Muğam Mərkəzində onu sevənlər və sənətinin davamçıları görkəmli tarzənin 145 illik yubiley gecəsinə toplaşmışdılar. Tədbirdə Xalq artistləri Vamiq Məmmədəliyev, Elçin Həşimov, BMM -nin solistləri, Əməkdar artistlər Təyyar Bayramov və Elnur Zeynalov, Sevinc Sarıyeva, Günay İmamverdiyeva, Kamal Nuriyev, gənc tarzən Asim Pirimov çıxış etdilər.

Tanınmış mədəniyyət xadimləri, musiqiçilər sənətkarın həyat və yaradıcılığından söz açaraq, tarzənin Azərbaycan musiqisinin inkişafı naminə gördüyü işlərdən danışdılar. Həmçinin, qonaqlara ifaçının qızıl fondda qorunan ifaları videoformatda təqdim olundu.

**Xalq artisti, tarzən Möhlət Müslümov XQ-yə müsahibə verdi:**

– Nə yaxşı ki, dövlətimiz, xalqımız belə dahi sənətkarları həmişə yada salır. Qurban Pirimov müasir tarzənlərinin mənəvi babası olub. Mən də mütəmadi olaraq onun lent yazılarına qulaq asıram. Əgər Sadıqcan tarı yaradıb, təkmilləşdirib, dizinin üstündən qaldırıb sinəsində ifa edibsə, Qurban Pirimov bu ənənəni layiqincə davam və inkişaf etdirib. Xanəndələr növbəyə düzülürdülər ki, Qurban əmi onları tarda müşayiət edəcək, onlar da oxuyacaqlar. O, muğamları gözəl bilməklə yanaşı, opera sənətində misilsiz xidmətləri



olub. Üzeyir Hacıbəyovun bütün operaları onun ifası ilə yeni inkişaf yoluna qədəm qoyub. Fəxr edirik ki, Qurban Pirimov kimi dahi sənətkarımız olub.

*FİDAN*
*XQ*

**Məlum olduğu kimi, bu il fevralın 14-də Prezident İlham Əliyev "Mirzə Qədim İrəvaninin 200 illiyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb. Bir qədər sonra hələ dövlət televiziyasında işlədiyim vaxtlardan tanıdığım, hazırladığım verilişlərdə dəfələrlə çıxışlar etmiş ünlü sənətşünas, fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyevdən Azərbaycan dəzgah boyakarlığının banisi Mirzə Qədim İrəvani haqqında müsahibə almaq istədim.**

Telefon zəngimə cavab verən qızı Aysel Ziyadxanlı ağlaya-ağlaya bildirdi ki, Ziyadxan müəllim ağır xəstədir, cavab verə bilməyəcək. Onun yazmış olduğu "Rəssamlığımızın Mirzə Qədim İrəvani zirvəsi" məqaləsinə baxın, yarayarsa, istifadə edin. Bir neçə gün keçməmiş – martın 16-da Ziyadxan müəllim dünyasını dəyişdi... Acı xəbərin sarsıntısı keçəndən sonra həmin məqaləni tapıb oxudum və mərhum

# Rəssamlığımızın Mirzə Qədim İrəvani zirvəsi



müəllifin dərin biliyinin, təhlil bacarığının bir daha şahidi oldum. Məqaləni müəyyən ixtisarlarla oxuculara təqdim edirəm.

***

Duyulası zaman distansiyası bizə Azərbaycan təsviri sənətini bənzərsiz inciləri ilə zənginləşdirən Mirzə Qədim İrəvaninin (1825–1875) axtarışlara köklənmiş yaradıcılığının əsl dəyərini göstərməyə imkan verir. Qənaətimizcə, onun çoxəsrlik sənət tariximizə verdiyi ən böyük töhfə ənənə və müasirlik probleminin həlli kontekstində, milli rəssamlığımızı duyğulandırıcı realist-gerçəkçi ifadə vasitəsilə yeniləşdirməsidir. Başqa sözlə desək, o, yaradıcılığında Şərq və Qərb bədii ənənələrini uğurla birləşdirən rəssam kimi tarixə düşüb.

Vaxtilə Təbriz bəylərbəyinin, Bakıda Hüseynqulu xanın, İrəvanda sərdar Hüseynqulu xanın, Şuşada Mehmandarovların və Səfibəyovun evini, Şəkidə Şəkixanovların evini və Xan sarayını, Quba, Naxçıvan və Şamaxı hamamlarını bəzəyən və bəziləri də bu günə kimi qalan divar rəsmləri özünəməxsus bədii məziyyətləri ilə memarlıq tikililərini zənginləşdirdiklərini təsdiqləyir. Həmin sənət əsərlərinin müəllifləri arasında Mirzə Qədim İrəvani özünəməxsus dəst-xətti ilə seçilib.

Onun atası Hacı Məhəmməd Hüseyn öz dövrünün çox məşhur ağacoyma ustalarından idi. Elə balaca Qədimin rəssamlığa meylinin kökündə də onun göz açdığı vaxtdan evlərində atasının yaratdığı sənət möcüzələri ilə üz-üzə qalması durur. Qədimin uşaqlıq illərində çəkdiyi rəsmlər onun böyük istedadından xəbər verirdi. Ancaq sənətə bu qədər böyük sevgisi olan Mirzə Qədimin sonradan professional təhsil almaması sual doğuran məsələlərdəndir. Belə ki, vaxtı çatanda atası İrəvanda ibtidai təhsil almış oğlunu Tiflis gimnaziyasına başqa bir peşəyə yiyələnmək üçün göndərib və o, təhsilini bitirəndən sonra İrəvana qayıdaraq ömrünün axırına kimi poçtda teleqrafçı işləyib.

Teleqrafçı-rəssamın yaradıcılığının yüksək bədii-estetik dəyərini şərtləndirən səbəblər sırasında, şübhəsiz, müasir tipli gimnaziyada rəsm sənətinin ilkin vərdişlərinə yiyələnməsi və davamlı olaraq öz üzərində çalışmasının durduğunu söyləmək olar. Taleyinə 50 il ömür payı yazılmış M.Q.İrəvaninin adını bu gün Azərbaycan incəsənəti tarixində yaşadan, adi poçt məmuruna ölməzlik qazandıran onun məhz sənətlə sıx bağlı olması, ecazkar bədii nümunələr yaratmasıdır. Rəssamın ərsəyə gətirdiyi portret və divar rəsmlərinin bu gün öz xalqına başucalığı və qürur bəxş etməsi isə, yəqin ki, həyatdakı ən böyük mənəvi qazancıdır. Əsərlərini "Mirzə Qədim İrəvani" və "Qədim bəy", bəzən də "kollec asessoru" kimi imzalamışdır.

O, təsviri sənətin bir çox sahələrində, o cümlədən monumental rəngkarlıq və qrafika sahələrində fəaliyyət göstərib. O qədər də çox olmayan bədii irsində portret və ornamental kompozisiyalar geniş yer tutur. Rəssamın kağız, parça, dəri və şüşə üzərində işlənmiş əsərləri bu gün Azərbaycan Milli İncəsənət Muzeyində, Tiflisdə Gürcüstan Dövlət İncəsənət Muzeyində və Sankt-Peterburqda Dövlət Ermitajında nümayiş etdirilir.

Onun divar tərtibatı və milli tikmələr ("təkəlduz" və "güləbatın") üçün tərtib etdiyi orijinal çeşni-eskizlər, hazırladığı trafaret-qəliblər də gözoxşayandır. Milli naxışlardan ibarət belə çeşnilərin əksəriyyətini simmetriya əsasında qurulmuş, nəbatat və yaxud heyvanat aləmindən götürülmüş motivlər təşkil edir. Rəssamın bizim dövrə gəlib çatmış "Qırqovul və gülər" rəsm-qəlib nümunəsi də diqqətçəkən nümunələrdəndir. Bakı muzeyinin kolleksiyasındakı şüşə rəsmləri – "Rəqqasə" və "Dərviş" adlı kiçik ölçülü əsərlər yağlı boya ilə çəkilmişdir. Yaşıl fon-yerlikdə milli geyimdə qavalla rəqs edən qadının, bozumtul-yaşıl rənglə əhatələnən və ənənəvi geyimdə təqdim olunan dərvişin obrazları rəssamın ilkin yaradıcılıq axtarışlarının uğurundan xəbər verir.

Rəssamın vəfatından sonra ailə arxivində onun yüzdən çox əsəri qalıbmış. Bizim günümüzə isə onların yalnız 23-ü gəlib çatmışdır. Bunlar da ermənilərin 1918-ci ildə İrəvanda yaşayan azərbaycanlılara qarşı törətdikləri qırğınlardan xilas olmağa çalışan ailə üzvlərinin özləri ilə götürə bildikləri nümunələrdir. Sulu boya və qələmlə çəkilmiş həmin əsərlərin 20 ədədi hazırda Bakı muzeyində saxlanılır. Onları zamanında muzeyə rəssamın yaxın qohumları təqdim ediblər.

Rəssamın yaradıcılığının ikinci mərhələsini də bilavasitə həmin işlər təşkil edir. Vaxtilə İrəvan xanlığının iqamətgahı kimi inşa edilən Sərdar sarayı (XVIII əsr) çox gözəl olub. Zəngin tərtibata malik olan bu sarayın geniş salonunu zərif və şux koloritli naxışlar, tarixi və əfsanəvi süjetli divar rəsmləri, eləcə də "Qacar üslubu"nda çəkilmiş portretlər bəzəyirdi. O portretlərin çoxunu (Fətəli şah Qacar, Abbas Mirzə, İrəvan sərdarı Həsən xan İrəvanlı, Rüstəm - Zal) o dövrdə 25 yaşı olmasına



baxmayaraq, məşhur rəssam kimi tanınan Mirzə Qədim çəkmişdi. Hazırda Tbilisi muzeyində saxlanan "Sərkərdə" və "Fətəli şah" əsərləri rəssamın Sərdar sarayı üçün işlədiyi portretlərdəndir.

M.Q.İrəvaninin yaratdıqlarını özündən əvvəl mövcud olanların – nə "Qacar üslubu"nun, nə də real-gerçəkçi sənət ənənələrinin birbaşa bənzəri saymaq olmaz. Onun yaratdıqlarında hər iki ilhamverici mənəvi qaynağın təsiri olsa da, bütünlükdə onların çox fərqli biçimdə təfsiri-interpretasiyası duyulur. Ədalət naminə demək lazımdır ki, M.Q.İrəvaninin obrazları bütün mənalarda həm Azərbaycan, həm dünya rəssamlığında gördüyümüz bədii şərhlərdən çox fərqlənir. Bunları həm də milli təsviri sənətimizdə gerçəkləşməyə başlayan dəzgah rəssamlığı formalarının ilk görüntüləri hesab etmək mümkündür. Onun ərsəyə gətirdiyi portret-kompozisiyalarda bədii şərh özünəməxsusluğunun qabarıq ifadəsi obrazların real, onlar üçün fon – yerlik rolunu oynayan məkanın şərti-dekorativ biçimdə təqdim olunmasındadır. "Abbas Mirzə", "Mah Tələt xanım", "Vüculla Mirzə", "Gənc qadın", "Fətəli şah" əsərləri bu qəbildəndir. Bu portretlərin çox önəmli və Azərbaycan təsviri sənəti üçün yeni olan bədii-estetik xüsusiyyəti onlarda insan psixologiyasının yaddaqalan ifadəsinə nail olunmasıdır. Yüksək bədii kamilliyi ilə seçilən bu əsərlər Mirzə Qədimin çox da uzun sürməyən bədii yaradıcılığının elə son – daha yetkin üçüncü mərhələsini təşkil edir.

*Ziyadxan Əliyevin*
*ruhuna ehtiramla hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

Günün mövzusu

# Sosial media qovuşdurur, yoxsa ayırır?

*Nikahın azalmasında və boşanmanın artmasında onun rolu varmı?*

**XXI əsr texnoloji inqilabın və rəqəmsal ünsiyyət vasitələrinin hökm sürdüyü bir dövrdür. Bu dövrün seçilən dəyərlərindən biri sosial mediadır. Əvvəllər sadəcə əlaqə saxlamaq məqsədi ilə yaradılan bu platformalar zamanla cəmiyyətin bütün sahələrinə nüfuz edərək, insan münasibətlərini, ünsiyyət formasını, məlumat əldə etmə metodlarını köklü şəkildə dəyişdirib.**

Artıq ənənəvi media vasitələri– televiziya, radio və qəzetlər – uzun müddət informasiya mənbəyi kimi üstün mövqeyi olsa da, bu rol tədricən sosial mediaya tərk edilir. Hazırda insanlar gündəlik xəbərləri Twitter, Facebook, Telegram və Instagram kimi platformalardan da alırlar.



Bu, sosial media vasitələri gənclər üçün geniş imkanlar təqdim edir. İnformasiya mübadiləsi, yaradıcılığın sərbəst ifadəsi, ictimai təşəbbüslərdə iştirak və gəlir əldə etmək bu platformaların müsbət tərəflərindəndir. Gənclər foto, video, bloq yazıları, musiqi və rəsm kimi yaradıcılıq məhsullarını sosial şəbəkələr vasitəsilə qlobal auditoriyaya təqdim edə bilirlər. Bundan başqa, sosial media insanları bir araya gətirən vasitəyə çevrilib. Eyni zamanda, onun köməyilə müxtəlif sahələr üzrə məlumatlar sürətlə yayılır, maarifləndirmə kampaniyaları geniş auditoriyalara çatır.

Bütün bunlar barədə psixoloq **Vüsalə Əmiraslanova** XQ-yə bildirdi:

– Bu platformalar sayəsində istedadlar üzə çıxır, gənclər öz fikirlərini, sənət əsərlərini, duyğularını sərbəst şəkildə ifadə edə bilir. Biri şeir yazır, biri video çəkir, digəri bloq yazır və bu şəkildə onların istedadı milyonlarla insana çatır. Sosial media, demək olar ki, demokratik bir tribuna təqdim edir – burada hamı eyni “səhnəyə” çıxır və özünü ifadə etməyə cəhd edir.”

Bundan əlavə, sosial medianın köməyilə uzun illər əvvəl əlaqəsi kəsilmiş dostlar tapılır, dünyanın o biri ucundakı insanla bir neçə saniyədə danışmaq olur. Onlayn dərslər, canlı yayımlar, maarifləndirmə kampaniyaları – bütün bunlar sosial medianın insan həyatını asanlaşdıran və zənginləşdirən yönləridir.

Onu da qeyd edək ki, sosial medianın müsbət cəhətləri ilə yanaşı, fəsadları da var. Onun yaratdığı ən mühüm sosial fəsadlardan biri – səthi münasibətlər və bunun nəticəsində yaranan tənhalıq hissidir. Gənclər sosial mediada özlərini yalnız həyatlarının ən uğurlu və gözəl anları ilə təqdim edirlər. Bu, digər istifadəçilərdə öz həyatlarının qeyri-kafiliyinə dair yanlış təəssüratlar yaradır.

Müsahibimiz daha “bəyən” və “şərh” səviyyəsindəki ünsiyyətin real həyatda səmimi və dərin münasibətlərin yerini tuta bilmədiyini söylədi.

– Gənclər özlərini başqaları ilə müqayisədə dəyərsiz və natamam hiss edirlər. Süni “mükəmməllik” təəssüratı, real həyatla uyğun gəlmədikdə psixoloji diskomforta, narahatlığa və tənhalığa yol açır.

Bu süni və redaktə edilmiş virtual kimliklər emosional gərginlik yaradır. Sosial media istifadəsi artdıqca, gənclər real həyatda emosional yaxınlıq qurmaqda çətinlik çəkir, sosial bacarıqları – empatiya, dinləmək və fikir bildirmək – zəifləyir. Nəticədə, real münasibətlərdən uzaqlaşaraq təcrid olunmuş şəkildə yaşamağa başlayır, tənhalığa meyilli olurlar.



Tənhalıq yalnız emosional bir hiss deyil, eyni zamanda psixoloji və sosial narahatlıq mənbəyidir. Gənclər hisslərini bölüşməkdən, yanlış anlaşılmaqdan və rədd edilməkdən qorxduqları üçün real münasibətlərdən qaçırlar. Bunun əvəzinə sosial medianı “təhlükəsiz sığınacaq” kimi qəbul edirlər.

Vüsalə Əmiraslanova qeyd edir: “Gənclər sabit münasibətlərə girməyə tələsmir, bəzən heç maraq göstərmirlər. Sosial media onları tək qalsa belə, daim məşğul və “ünsiyyət içində” saxlayır. Lakin bu ünsiyyət real empatiya, toxunuş və qarşılıqlı baxışdan uzaqdır.

Emosional qidalanma baş vermədiyinə görə, insan nə qədər paylaşsa da, dərin bir boşluq içində qalır. Dost çevrəsində qəbul edilməmək, anlaşılmamaq və ya davamlı rəqabət hissi də gəncin sosial əlaqələrdən uzaqlaşmasına səbəb olur. Belə olan halda, gənc özünə “təhlükəsiz” bir məkana çəkilir – virtual dünya. Burada o, istədiyi kimi görünə, istədiyini gizlədə, hisslərini “redaktə” edə bilir. Lakin bu, saxta bir sığınacaqdır. Gerçək münasibətlərin verdiyi emosional dərinlik burada yoxdur.

Müsahibimizin dediklərinə əlavə olaraq qeyd edək ki, bu hal, təkcə psixoloji baxımdan deyil, eyni zamanda təhsil və peşə həyatı baxımından da ciddi fəsadlara yol açır. Diqqət dağınıqlığı, motivasiya itkisi, planlaşdırma və təşkiletmə qabiliyyətinin zəifləməsi kimi hallar sosial medianın təsiri ilə ortaya çıxır. Gənclər virtual məkanda saatlarla vaxt keçirdikcə, idman, ictimai tədbirlər, ailə və dost görüşləri kimi sosial fəaliyyətlərdən uzaqlaşırlar. Bu isə sosial çevrənin daralması, təcrid və tənha bir həyat tərzinə gətirib çıxarır.

Sosial medianın zərərləri yalnız emosional və sosial sferalarla məhdudlaşmır. Göz yorğunluğu, onurğa ağrıları və fiziki hərəkətsizlik kimi sağlamlıq problemləri də bu platformalardan həddindən artıq istifadənin nəticəsidir. Bundan əlavə, kiberzorakılıq – təhqir, təhdid, şəxsi məlumatların yayılması (doksinq) və şantaj – sosial medianın ən təhlükəli problemlərindən biridir. Gənclər bəzən bu platformalarda özləri haqqında həddən artıq məlumat paylaşdıqları üçün fırıldaqçılar və zorakıların hədəfinə çevrilirlər. Bununla bağlı psixoloq dedi:

– Sosial medianın digər bir təhlükəli tərəfi isə kiberzorakılıqdır. Bəzi yeniyetmələr paylaşdıqları şəxsi məlumatlara görə təhdid, şantaj, alçaldılma ilə üzləşir. Statistikaya görə, uşaqların üçdə biri bu cür zorakılığın qurbanı olur. Bu hallar onların özünə hörmətini azaldır, psixoloji travmalar yaradır və emosional güvənsizlik hissi formalaşdırır. Belə travmaların fonunda gənclər sosial əlaqələrdən tamamilə uzaqlaşaraq özlərini təkliyə və içəqapanmaya məhkum edirlər. Bu hallar onların psixoloji durumuna mənfi təsir göstərir, özünə hörmətin azalmasına, narahatlıq pozuntularına və bəzi hallarda intihar düşüncələrinə səbəb ola bilir.

Vüsalə Əmiraslanova vurğuladı ki, sosial media ailədaxili və dost münasibətlərinin zəifləməsində də mühüm rol oynayır:

– Müasir ailələrdə valideyn-övlad münasibətləri çox vaxt funksional və məsafəli xarakter daşıyır. Gənclər emosiyalarını paylaşmaq üçün etibarlı bir mühit tapa bilmədikdə, daxili aləmlərinə qapanır və sosial təcridə meyl edirlər, vaxtlarını sosial şəbəkələrdə keçirirlər: “Dost çevrəsində də qəbul edilməmək, rəqabət və anlaşılmazlıq halları gənclərdə tənhalıq hissini daha da artırır. Belə bir şəraitdə sabit və dərin münasibətlər qurmaq çətinləşir və nəticədə sosial passivlik və özünə inamsızlıq yaranır.

Mütəxəssislər bildirirlər ki, tənhalıq problemi ilə mübarizə isə kompleks yanaşma tələb edir. Bu problemin həllində ailələr, məktəblər, psixoloqlar və cəmiyyət birgə hərəkət etməlidir. Ailələr emosional dəstəyi gücləndirməli, məktəblər sosial və emosional bacarıqları inkişaf etdirən proqramlara yer verməlidir. Eyni zamanda psixoloji dəstək xidmətləri hər kəs üçün əlçatan olmalıdır. Sosial medianın balanslı və məqsədli istifadəsi təşviq edilməli, gənclərə rəqəmsal savadlılıq, tənqidi düşünmə və emosiya idarəetməsi kimi bacarıqlar öyrədilməlidir. Gənclərə aşağıdakı əsas tövsiyələr verilə bilər: Sosial şəbəkə hesablarını məxfi saxlamaq, naməlum şəxslərlə şəxsi məlumat paylaşmamaq, gündəlik istifadə müddətini məhdudlaşdırmaq, real ünsiyyət və sosial fəaliyyətlərə üstünlük vermək, problemlərlə qarşılaşdıqda mütəxəssis və böyüklərə müraciət etmək.

Sosial media insanları tənhalaşdırmaqdan başqa, nikahların azalmasına və boşanmaların sayının artmasına səbəb olur. Araşdırmalar da göstərir ki, subay qalmağa üstünlük verənlərin sayı gündən-günə artır.

Vüsalə Əmiraslanova dedi ki, müasir dünyanın sürətlə dəyişən texnologiyaları həyatımızın bütün sahələri kimi, ailə həyatımıza da təsir edir: “Əvvəllər ailə qurmaq cəmiyyətin əsas dəyərlərindən biri sayılırdı. Gənclər ailə məsuliyyətini üzərinə götürməyə, evlənməyə can atırdı. İndi isə vəziyyət dəyişib. Gənclər arasında subay qalmağa üstünlük verənlərin sayı durmadan artır. Bəziləri üçün bu, sadəcə, bir seçim deyil – azadlığın, rahatlığın və məsuliyyətdən yayınmağın yoludur. Sosial media bu həyat tərzini daha da cazibədar edir: insanlar real münasibətlərdəki çətinliklərlə üzləşməkdənsə, virtual aləmdə daha sərbəst və rahat olmağı üstün tuturlar.

Kişilər evləndikdən sonra azadlıqlarının məhdudlaşacağından, qazandıqları pulu yalnız özlərinə xərcləyə bilməyəcəklərindən narahat olurlar. Qadınlar isə ailə qurmağın onları karyera və şəxsi inkişaf yolundan saxlayacağını düşünürlər. Sosial media bu düşüncələri daha da möhkəmləndirir: burada hər kəs istədiyi kimi görünə bilər, istədiyi həyat tərzini nümayiş etdirə bilər. Gerçək həyatın çətinlikləri isə arxa plana keçir.

Boşanmaların artmasının səbəbləri arasında da sosial medianın rolu böyükdür. Sosial şəbəkələrdə gizli yazışmalar, həyat yoldaşının davranışlarını izləmək, davamlı qısqanclıq və inamsızlıq – bütün bunlar ailə münasibətlərində çatlara səbəb olur. Bəzi insanlar seriallarda, filmlərdə izlədikləri ideal sevgi və evlilikləri öz həyatlarında da gözləyir. Gerçək həyat isə çox vaxt bu gözləntiləri qarşılamır və nəticədə münasibətlər dağılır.

Hazırda hər 3 nikahdan biri boşanma ilə nəticələnir. Bu, ailə institutunun zəiflədiyini göstərir. İnsanlar ailə qurmağı artıq bir ehtiyac kimi deyil, çətin və ağır bir məsuliyyət kimi görürlər. Halbuki ailə yalnız məsuliyyət deyil, həm də qarşılıqlı anlayış, dəstək və sevgi üzərində qurulan bir dəyərdir.

Nəticə olaraq demək olar ki, sosial media həyatımıza çoxlu imkanlar gətirsə də, ailə münasibətləri baxımından ciddi problemlərə yol açır. Gənclər arasında ailəyə olan marağın azalması, münasibətlərin dayanıqsızlığı, məsuliyyətdən qaçma meyli – bunların hamısı sosial medianın dolayısı təsirləri kimi ortaya çıxır. Cəmiyyət olaraq bu məsələlərə daha ciddi yanaşmalı, ailə dəyərlərinin qorunması üçün maarifləndirmə və psixoloji dəstək tədbirləri görməliyik. Əks halda, gələcəkdə ailə anlayışı yalnız keçmişin nostaljisi kimi yadda qalacaq”.

Beləliklə, nəticə etibarilə, rəqəmsal texnologiyalar və sosial media müasir dünyanın ayrılmaz parçasıdır. Bu platformalar düzgün və məqsədli şəkildə istifadə olunduqda, gənclərin inkişafına əhəmiyyətli töhfə verə bilər. Lakin balans pozulduqda – sosial media asılılığa, emosional izolyasiyaya və psixoloji gərginliyə səbəb olur. Gənclərin psixoloji və sosial sağlamlığı üçün ciddi təhdidə çevrilir. Tənhalıq bu təhdidlərin ən səssiz, lakin ən təhlükəli formasıdır. Bu səbəbdən, sosial medianın istifadəsində fərdi məsuliyyət, emosional dəstək və ictimai nəzarət əsas prinsiplərdən olmalıdır. Unutmayaq ki, bizi birləşdirən də, ayıran da bu platformaların necə istifadə olunmasından asılıdır. Sağlam və səmimi münasibətlərin hökm sürdüyü bir cəmiyyət – tənhalıqla mübarizədə ən güclü vasitədir.

***P.ƏFƏNDİYEV***
***XQ***

Qayıdışın akkordları

# Cəhənnəmdən çıxmış Süleymanovlar cənnət Xocalıya qayıtdılar

**Erməni cəlladlarının törətdikləri amansız Xocalı soyqırımı ilə bağlı bir fotoda 2 yaşlı balasını bağrına basmışı, yanındakı yaralı qız uşağının əlindən tutmuş, qışın dondurucu şaxtasında ayaqyalın, başıaçıq ölümün pəncəsindən qurtularaq Ağdama pənah gətirmiş Cəmilə Süleymanovanın dəhşətli görüntüsü cəhənnəm mənzərəsidir. Yolda məcbur qalıb bacısına verdiyi və sonra ayrı düşdüyü digər övladı 3 aylıq Vüsaldan, müdafiə postuna getmiş həyat yoldaşı Zülfüdən xəbər tuta bilməməsi Cəmiləni ikiqat dəhşətə gətirmişdi...**



Ancaq heç bir zülm yerdə qalmaz. Azərbaycan yüzminlərlə insanımızın acı taleyini öz çirkin maraqlarının qurbanına çevirməyə çalışan dünyanın “ədalət təmsilçiləri”nin oyunlarını pozaraq özü ilahi ədaləti bərpa etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz torpaqlarımızın işğalına birdəfəlik son qoydu, Xocalı cəlladlarının bir qismi indi Bakıda məhkəmə qarşısında törətdikləri əməllərə görə mühakimə olunurlar.

Xocalı isə yenidən qurulur, tikilir, gözəlləşir, öz əzəli sakinlərinə qucaq açır.

2025-ci il aprelin 28-də “Böyük Qayıdış” çərçivəsində Xocalıya baş tutan növbəti köç zamanı mənzillərin açarlarının təqdimetmə mərasimində doğma yurda qovuşanların siyahısında Süleymanovlar ailəsinin də adı çəkildi.

Həmin kadrlarda da Cəmilə var, bu dəfə isə üzündən sevinc, qürur və xoşbəxtlik yağırdı. Tədbirdə biz də iştirak edirdik, ancaq yaxınlaşıb hisslərinə ortaq olmadıq. Fikirləşdik ki, Xocalı torpağına yenicə ayaq basıblar, evlərinə yerləşsinlər, köç həyəcanını atlatsınlar, necə deyərlər, özlərinə gəlsinlər, daha sonra.



Beləliklə, təxminən, 2 aydan sonra Xocalıda Süleymanovların yaşadığı 159 nömrəli evin qarpısını döydük. Həyətə daxil olar-olmaz xoş bir mənzərənin şahidi olduq: Evin ətrafında güllər, çiçəklər ətir saçırdı, qısa müddətdə əməlli-başlı bostan salmışdılar, dirriklərdə əkilmiş müxtəlif bitkilər məhsul verə biləcək qədər böyümüşdü.

Elə Zülfü və Cəmiləni də iş başında gördük. Şitillərin arasındakı torpağı yumşaldır, alağını edir, bir-biri ilə zarafatlaşır, öz aralarında deyib-gülürdülər. Salamlaşıb, ata-baba yurdlarına dönüşləri, yenidən tikilmiş, təmir edilmiş evlərində yaşamağa başlamaları münasibətilə təbrik etdik. Söhbətimizə də elə evlərində onlar üçün yaradılmış şəraitdən, günlərinin necə keçməsindən, həyət-bacada gördükləri işlərdən başladıq.

Zülfü Süleymanov bildirdi ki, Xocalıda ötən hər gün onların illərlə çəkdikləri acılarına məlhəm olur:

– O dəhşətli günləri unutmaq mümkün deyil. Mən də, həyat yoldaşım da erməni vəhşiliyinin canlı şahidiyik. Soyqırımı gecəsi əsir düşmüşəm, əsir düşənlərin əksəriyyəti kimi işgəncələrə məruz qalmışam, başımda avtomatın qundağı ilə vurub yardıqları yaranın yeri həmişəlik qalır (əli ilə başındakı çapığı göstərir – M.R.). Ancaq Xocalıya qayıdandan sanki yenidən dünyaya gəlmişəm. Bu evi 24 yaşım olanda özüm tikmişdim, işğal vaxtı ermənilər dağıtmışdılar. İndi dövlətimiz yenidən bərpa edib bizi öz evimizə köçürdü. Özü də, sağ olsunlar, burada rahat yaşamağımız üçün hər cür şərait yaradıblar.

Bu xoşbəxtlik duyğuları sözlə ifadə ediləsi deyil. Hər səhər tezdən durub təmiz havanı ciyərlərimizə çəkə-çəkə həyətdə gülləri, bostanımızda əkdiyimiz tərəvəzləri sulayırıq, elə səhər çayımızı da qapının ağzında qoyduğumuz stolda içirik. Görün, bitkilər cəmi 2 ayda nə qədər inkişaf ediblər, bu torpaqlar necə bərəkətlidir? İnşaallah, tezliklə evimizə gələn qohum-əqrəbanı, övladlarımı, nəvələrimi zəhmətimizin bəhrəsinə qonaq edə biləcəyik.

Xocalı arzuları reallaşana qədər məcburi köçkün kimi Goranboy rayonunda məskunlaşmış Süleymanovlar ailəsi hər zaman dövlətin qayğısı ilə əhatə olunduqlarını dedilər. Orada da müvəqqəti olaraq yeni mənzillə təmin ediliblər. Doğma yurda dönəcəkləri günə olan inamları isə heç zaman tükənməyib.

Söhbətimizə Cəmilə xanım da qoşuldu:

– O soyuq fevral gecəsi yaşadıqlarım yadıma düşəndə hisslərimə hakim ola bilmirəm, qəhər məni boğur. Gözümün qarşısında gülləbaran edilən günahsız insanlar, al qana bölənmiş ağ qar, ayaqyalın qarın üstündə saatlarla sürünməyimiz, qonşumuzun körpəsini sinəmə basıb əmizdirməyim, yaralı bacım qızı ilə öz qızımı sürünərək bir-bir irəli daşıdığım, həmin gecə soyuqdan xəstələnərək iki ay sonra ölən körpə Vüsalım canlanır (elə bizimlə danışa-danışa da göz yaşlarına hakim ola bilmir – M.R.)! Yəni mənfur düşmənə sonsuz nifrətim elə-belə yaranmayıb. Bütün bunları ona görə xatırladıram ki, hamı xocalılıların nələr yaşadıqlarını, ermənilərin necə qaniçən, vəhşi bir tayfa olduqlarını unutmasın. Ancaq bu gün biz yenidən öz yurdumuzdayıq. Əkirik, becəririk, xoşbəxt günlərimizə geri dönmüşük. Sanki, zülmətdən çıxıb cənnətə qovuşmuşuq.

Bəli, yuxarıda da qeyd etdiyimiz kimi, heç bir zülm yerdə qalmaz. Zalımın zülmü varsa, tanrının da ilahi ədaləti var. Qarabağda, Şərqi Zəngəzurda yağı düşmən qarşısında bərpa etdiyimiz o ilahi ədalətin nəticəsidir ki, Zülfü və Cəmilə də bu gün Xocalıdakı öz yeni evlərində yenidən xoşbəxt, qayğısız günlərinə geri dönüblər. Özü də həmişəlik.

Bu tarixi anların şahidi olmağın qüruru ilə sağollaşdıq Süleymanovlar ailəsi ilə. Bir də növbəti dəfə bu evə xoşməramlı məclislərdə, nəvələrin xeyir işlərində iştirak etmək üçün gəlmək arzusu ilə...

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 136 (30830) 6 iyul 2025-ci il, bazar

# İkiqat Sumqayıt dolması

**Bəli, məhz ikiqat dolma. 75 yaşlı Sumqayıtın iqtisadiyyat, mədəniyyət, təhsil və idman sahələrində olduğu kimi, kulinariyada da fərqli keyfiyyətləri ilə öyünməyə haqqı var. Milli mətbəximizin çeşidli nümunələri sırasında məşhur Corat qutabı ilə bərabər, Sumqayıt dolması da artıq özünün layiqli yerini tutub.**






Sumqayıt dolmasının digərlərindən əsas fərqi odur ki, dolmaiçi inqrediyentlər əvvəl üzüm yarpağına, sonra isə ikinci qat olaraq kələm yarpağına bükülür. Hələ 2012-ci ilin oktyabrında təqdimat mərasimi keçirilən bu dolma növünün reseptinin ideya müəllifi sumqayıtlı həkim, İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri Hümbət Quliyevdir. Onun təqdim etdiyi dolma löyünü 2016-cı ildə Mədəniyyət Nazirliyi, Milli Kulinariya Mərkəzi və Assosiasiyasının keçirdiyi 1-ci beynəlxalq dolma festivalında 300 növ arasında fərqlənərək gümüş medala layiq görülüb. 2-ci analoji festivalda isə bu gözəl təam həm qida dequstatorları, həm də ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri tərəfindən bəh-bəhlə dadılaraq çox bəyənilib və bu dəfə məhz qızıl medalla dəyərləndirilib.



Eyni məhəllədə yaşayıb, eyni məktəbdə oxuduğumuz Hümbət Quliyevi hələ uşaqlıqdan yeniliklər həvəskarı kimi tanıyıram. Yaxşı futbolçu olub, yaxşı göz həkimidir (16 il Moskva vilayəti və Sankt-Peterburqda, eləcə də Almaniyanın Toypits şəhərində işləyib), ikinci ixtisas kimi Berlin biznes məktəbini bitirib. Yüksək peşəkarlığı və erudisiyası, dərin ensiklopedik biliyi var, yaxşı da səyyahdır. Bir sözlə, yaxşı mənada təəccübləndirməyi bacaran insandır. Elə onun Sumqayıt dolması kimi tanınan dadlı təamı yaratması da dediklərimi sübut edir.

Hümbət həkimin öz xörək resepti ilə bağlı fikirləri maraqlıdır:

**– Şərqdə ət qiyməsini od və suya dəyməkdən qoruyan xəmirlə paralel olaraq müxtəlif bitki yarpaqlarından istifadə olunub. Tarixin süzgəcindən bizə çatan əsasən üzüm və kələm yarpağı, yeməyin adı isə dolmadır.** Bunu öz adlarına çıxmaq istəyən ermənilər unudurlar ki, "dolma" sözünün mənası elə sırf türk dili mənşəli "dolmaq" və ya "doldurmaq"dır. İkiqat bükümlü Sumqayıt dolmasına gəlincə isə deyim ki, etibarlı hermetiklik təmin olunduğuna görə ayrı-ayrılıqda yarpaq və kələmdə olan müəyyən həzm çatışmazlıqlar aradan qaldırılır. Kələmə bükülmüş yarpaq özü də yaxşı bişir və beləliklə, kələm yarpağın həzmini asanlaşdırır. Ölçüsü balaca olan bu dolma ağızda sıxılanda "dad partlayışı" effekti yaradır ki, nəticədə də bütün dolmaiçi inqrediyentlərin, həm də yarpaq və kələmin təkrarolunmaz ləzzəti ortaya çıxır. Atalarımız yaxşı deyib: "Dadlı söz dinlədər, dadsız söz əsnədər, dadlı yemək isə insana böyük ləzzət verməklə, ona xoş sima, gülər üz bəxş edər".

Onu da deyim ki, dostum həm də istedadlı yazardır. Hümbət Həsənoğlu imzası ilə onun "Statusman", "Kəpənək xoşbəxtliyi", "Aforizmlər" (3 cilddə 6 mindən çox nümunə ilə), "Son təbəssüm" və sair kitabları Azərbaycan və Türkiyə işıq üzü görüb. Əsərləri rus və ibrani (ivrit) dillərinə tərcümə edilib, həmçinin Güney Azərbaycandakı soydaşlarımız üçün əski əlifba ilə transliterasiya olunub. 40 hekayəlik "Fotoqraf" kitabı "Asmir" nəşriyyatında ingiliscə çıxıb. 70 illik yubileyi ərəfəsində çıxan "Seçilmiş əsərləri"ni oxucular böyük maraqla qarşılayıblar. AYB-nin Prezident təqaüdçüsüdür. Haqqında film də çəkilib.

Bu günlərdə isə Hümbət Həsənoğlunun "Sumqayıt dolması" kitabı Azərbaycan və ingilis dillərində çapdan çıxıb. Kitabda verilmiş "Ən ləziz yemək" hekayəsində oxuyuram: "...ağızda qidanın duzluluğunu, acılığını, şirinliyini, turşluluğunu müəyyən edə bilən on minə yaxın dad reseptorları var. İndi on min dili olan bir fortepiano təsəvvür edin. Aşpaz onun dillərindən istifadə edib musiqi, yəni yemək kompozisiyası yaratmalıdır. Yaxşı kulinar elə bəstəkardır, o, yemək bəstələyir".

Hekayənin qəhrəmanlarından biri olan amerikalı Toninin bu sözləri də dadlı dolmanın resept açıqlamasına aiddir: "Təsəvvür edirsən, o, alimləri cəlb edərək formalar düzəltdirib və xüsusi ölçülərdə buz hazırlayır. Hər dolma qiyməsinin içinə o buzları qoyur. Qazanın içində o buzlar əriyib ikiqat dolmalara əlavə ilginc şirəlik verir. İndi dünyanın ən ləziz yeməyi belə adlanır: Buzlu, ikiqat Sumqayıt dolması".

Müəllif daha sonra göstərir ki, musiqi ruh oxşadığı kimi, yemək də ətirli, dadlı, insana faydalı olmalıdır. Yəni insana lazım olan maddələrlə – zülallarla, yağlarla, karbohidratlarla, vitaminlərlə və mikroelementlərlə zəngin və lazımi mütənasiblikdə olmalıdır ki, ağızdakı bütün reseptorlar üçün eyni anda "dad atəşfəşanlığı" yaransın. Necə də obrazlı ifadələrdir!

Əziz oxucular, Sumqayıta gəlsəniz, Hümbət Quliyevi axtarıb tapmanız çətin olmaz – onu hamı tanıyır. Gəlin və Sumqayıt dolmasından siz də dadın.

*Ə.DOSTƏLİ*
*XQ*

## İDMAN

### Basketbolçu qızlarımız Avropada yarışırlar



**Azərbaycanın basketbol üzrə qızlardan ibarət U-18 millisi ilk dəfə iştirak etdiyi Avropa çempionatının B divizionuna qələbə ilə başlayıb. Belə ki, millimiz qrupdakı birinci oyununda Bosniya və Herseqovina yığması üzərində 83:81 hesablı qələbə qazanıb.**

Komandamız qrupda növbəti oyununu dünən, Bakı vaxtı ilə gecə saatlarında Ukrayna seçməsinə qarşı keçirməli idi.

### "Çelsi" 2-ci yarımfinalçı oldu



**İngiltərənin "Çelsi" klubu ABŞ-da keçirilən klublararası dünya çempionatının 2-ci yarımfinalçısı olub. Belə ki ki, London klubu 1/4 finalda Braziliyanın "Palmeyras" komandasını gərgin mübarizədə məğlub edib - 2:1.**

Yarımfinalda Enzo Mareskanın yetirmələri Braziliyanın digər klubu – "Fluminense" ilə qarşılaşacaqlar. Klublararası dünya çempionatına iyulun 13-də yekun vurulacaq.

### "Kəpəz"in yeni transferi



**"Kəpəz" klubu ilə gənc futbolçu Şakir Seyidov arasında 2 illik müqavilə imzalanıb. Bu barədə Gəncə təmsilçisinin mətbuat xidməti məlumat yayıb.**

Qeyd edək ki, oyunçu 2023/2024 mövsümündə də "Kəpəz"in formasını geyinib. Həmin dövrdə "Sabah"-dan icarəyə götürülmüş futbolçu 28 matçda 1 qola imza atıb.

*M.HACIXANLI*
*XQ*

# Yaşıllıq qənimləri

**Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən son bir həftə ərzində keçirilən nəzarət tədbirləri zamanı Bakı şəhərinin, Abşeron, İmişli və Füzuli rayonlarının inzibati ərazilərində yaşıllıqların qanunsuz kəsilməsi faktları aşkar olunub.**



Bildirilib ki, araşdırma zamanı Bakı şəhəri Xətai rayonu Gəncə prospekti N.Tusi küçəsi 28 ünvanında, Abşeron rayonu Xırdalan şəhəri Heydər Əliyev prospekti 167 ünvanında, eyni zamanda, İmişli və Füzuli rayonları ərazisində yaşıllıqların qanunsuz kəsilməsi faktları aşkarlanıb və yaşıllıqlara ümumilikdə 81 min 470 manat məbləğində ziyan dəydiyi müəyyən edilib.

Hər bir fakt üzrə yaşıllıqlara dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələyə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Baş Prokurorluğa göndərilmək üçün hazırlanır.

*XQ*

## Şirvanda qanvermə aksiyası



**İyulun 5-də Aşura günü münasibətilə Şirvan şəhər məscidində könüllü qanvermə aksiyası təşkil olunub.**

Şirvan Şəhər İcra Hakimiyyətindən mətbuata verilən məlumata görə, səhər saatlarından başlayan aksiyada həkim-hematoloqlar tərəfindən hər bir donorun sağlamlıq vəziyyəti əvvəlcədən yoxlanılıb, müvafiq tibbi müayinədən sonra onlardan qan götürülüb. Toplanan qan ehtiyatı yoxlanıldıqdan sonra talassemiya, hemofiliya və leykoz kimi xəstəliklərdən əziyyət çəkən şəxslər üçün istifadə olunacaq.

*XQ*

## Hava

# Dəyişkən buludlu, əsasən yağmursuz...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin səhər və axşam yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 18-21, gündüz 25-28 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan aşağı - 757 millimetr civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında dağlıq ərazilərdən başlayaraq arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman gözlənilir. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-21, gündüz 28-32, dağlarda gecə 5-10, gündüz 12-17 dərəcə isti olacağı bildirilir.

*Q.QASIMOV*
*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2912
SİFARİŞ 1258
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00